Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 32 (6174) 28 avqust 2026-cı il | Qiyməti 40 qəpik

# Əbədi dostluq



Bax:səh-2

Aqil ABBAS

## ŞAH İSMAYIL DEYİB Kİ...



**Ağır taxtalı kişi Firudin Şuşinski əsərlərinin birində Lenindən sitat gətirərək yazır: "Lenin deyib ki..."**

Rəhmətliyin o qədər düşməni vardı ki, həm özümüzdən, həm də ermənilərdən, həmin düşmənlər yığışıb Leninin əsərlərini ələk-vələk edirlər, amma Firudin Şuşinskinin yazdığı sitatı tapa bilmirlər. Və şikayət edirlər ki, Lenin heç vaxt belə bir şey yazmayıb.

Firudin bəyi çağırırlar yuxarı, "yuxarı" sözünü də başa düşdüz də, deyirlər ki, göstər görək Lenin hansı əsərində yazıb bunu.

Bəy gülüb deyib:

- Lenin onu yazmayıb ey, deyib, Peterburqda bir iclasda. Mən də həmin iclasdakı məsləkdaşlardan eşitmişəm.

Şah İsmayıl davası qurtardısa, mən də Şah babamızdan bir bənd demək istəyirəm.

Deyib ki:

***Türk dilim dövlət dilimdir,***
***mənəvi varlığım, qeyrət dilimdir!***

Qoy indi Şah İsmayılı sevməyənlər məni topa tutsunlar ki, bunu harda deyib, nə vaxt deyib?

Narahat olmayın, cavabım hazırdır.

Rza RZAYEV

## Polad Bülbüloğlu: dövrünün əfsanəsi

Bax:səh-7

## BU OYUNDA KİM UDUZDU, KİM UDDU?!



**ABŞ-İran müharibəsində nə udan var, nə də uduzan. Düzdür, İranın iqtisadiyyatına böyük zərbə vurulub, amma hələ yıxılmayıb, ayaq üstədi. Bir dəfə yazmışam, yenə yazıram, nə ABŞ, nə də Rusiya bizim fikirləşdiyimiz boyda deyilmişlər. Amma Çin deyəsən, onların hər ikisi boydadı.**



**TRAMP ŞİMALİ KOREYA PREZİDENTİNİN AYAĞINA GEDƏCƏK.**

**HÖRMÜZ BİR BOĞAZ DEYİL, BİR KƏNDİRDİ. KEÇİB, ABŞ BAŞDA OLMAQLA, AVROPA DÖVLƏTLƏRİNİN BOĞAZINA.**



**- Rusiya dağılır, cənablar, Rusiya dağılır!**
**- Hə, hə, get ağla.**

**("26-lar" filmindən)**

## BAKILILARA MUŞTULUQ



**Bakılı deyəndə iki cür bakılı var: biri əsilli-nəsilli, köklü bakılılar, biri də mənim kimi sonradan gəlib Bakıda yaşayan bakılılar. Yəni Bakıda kim yaşayırsa bakılıdı.**

Dünən bir şad xəbər aldıq və bakılılardan muştuluq istəyirik. Bilirsiniz də, hər yerdə maşın saxlayıb adamı düşürtmək mumkün deyil, o dəqiqə cərimə gəlir. Allaha şükür ki, şəhərdə piyada gəzmək üçün cərimə yoxdu. Amma maşına mindin, nə qədər istəsən cərimə var. Dünənki şad xəbər - 4 milyonluq şəhərdə on yerdə taksidən düşmək day qadağan deyil, yəni cərimə olmayacaq. Bu bəzi xəstəxanalar və sosial xidmətlər şöbələrinin qarşısıdır.

4 milyonluq şəhərdə on yer. Bu bakılılara AYNA-nın ən böyük hədiyyəsidir.

Bunu bilgisayarda yazdıranda operatorun sevindiyindən ürəyi getdi.

İradə TUNCAY
iradetuncay@rambler.ru

# MEHRİBAN ƏLİYEVA

## (İNTERYERDƏ PORTRET)



**Əslində portret mürəkkəb janrlardan biridir. Həm populyar, həm də peşəkarlıq tələb edən. Əvvəllər yalnız saraylarda çox istifadə olunan, sonralar daha demokratikləşən, hamıya yaxın ola biləcək bir janr. Amma nəzərə alsaq ki, hər kəsin tanımadığı bir sima nə qədər maraq doğura bilər ki? Deməli, obraz elə seçilir ki, onu hamı həyatının bir hissəsi kimi qəbul edir. Bu da əksər hallarda saraylarda yaşayan, rəğbət və ya nifrət qazanan kimsə ola bilər. Sənətin müxtəlif növləri - ədəbiyyat da, təsviri sənət də məhz belə məşhur obrazlara müraciət edib. Xatırlasaq üzü Renessansdan bu tərəfə nə qədər usta müəlliflərin əsərləri var bu janrda.**

Bax: səh.3

## GÜNÜN LƏTİFƏSİ



Pənah Hüseyn məktəb yoldaşları ilə birləşib İqbal Ağazadəni döyürlər. Müəllim soruşur:

**- Onu niyə döyürsünüz?**

Pənah Hüseyn:

**- Tapşırığı düz yazmayıb.**

Müəllim:

**- Bunun sizə nə dəxli var?**

Pənah Hüseyn:

**- Biz hamımız ondan köçürmüşük.**

## Prezident qələbə münasibətilə “Sabah” futbol klubunu təbrik edib



**Prezident İlham Əliyev ”Sabah” futbol klubunu UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması münasibətilə təbrik edib.**

Bu barədə Prezident İlham Əliyevin ”X” sosial şəbəkə hesabında paylaşım edilib. Paylaşımda qeyd olunub:

””Sabah” futbol klubunu möhtəşəm zəfər qazanaraq UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə əldə etməsi münasibətilə ürəkdən təbrik edirəm. Yeni yaradılmış bir komandanın qısa müddət ərzində belə böyük nailiyyətə imza atması xüsusi sevinc və qürur doğurur. Klublarımızın ardıcıl ikinci dəfə dünyanın ən güclü klub turnirinin əsas mərhələsində mübarizə aparmaq hüququ qazanması Azərbaycanın bütün sahələrdə əldə etdiyi tərəqqinin, ölkəmizin idman dövləti kimi mövqeyinin daha bir bariz göstəricisidir. ”Sabah” klubuna qarşıdakı matçlarda yeni-yeni qələbələr və uğurlar arzulayıram!”.

Qeyd edək ki, ”Sabah” komandası tarixində ilk dəfə UEFA Çempionlar Liqasının liqa mərhələsinə vəsiqə qazanıb.

Azərbaycan çempionu pley-off mərhələsində İsrailin ”Hapoel” (Beer-Şeva) kollektivi ilə üz-üzə gəlib. Qarşılaşma Bakı təmsilçisinin 5:2 (ümumi 6:4) hesablı qələbəsi ilə yekunlaşıb.

## Formula 1 üçün Azərbaycana gələn əcnəbilərə viza proseduru sadələşdirilir

**Prezident İlham Əliyev 2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.**

Bu barədə məlumat Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Sərəncamla, 2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2026-cı il avqustun 25-dən sentyabrın 30-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab ediləcək:

- Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan ”Formula One Management Limited” Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd;
- Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;
- 2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışına bilet, o cümlədən elektron bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə ”Formula One Management Limited” Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat verməlidir.

2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ”ASAN Viza” sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etməlidir.

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2026-cı ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat verməlidir.

# "Əbədi dostluq": Ortaq dəyərlər üzərində yüksələn müttəfiqlik

**Azərbaycan və Özbəkistan arasında ”Əbədi dostluq haqqında Müqavilə”nin imzalanması iki ölkənin münasibətlərini ən yüksək siyasi etimad səviyyəsinə qaldıran tarixi addımdır. Bu sənəd 1996-cı ildə imzalanmış dostluq və əməkdaşlıq müqaviləsinin, eləcə də 2024-cü ildə rəsmiləşdirilmiş müttəfiqlik münasibətlərinin məntiqi davamıdır. Beləliklə, Bakı və Daşkənd son illərdə sürətlə inkişaf edən əlaqələri ayrı-ayrı layihələrdən asılı olmayan, uzunmüddətli və institusional tərəfdaşlığa çevirirlər. Müqavilənin dövlət başçıları İlham Əliyev və Şavkat Mirziyoyev tərəfindən imzalanması siyasi iradənin ən yüksək səviyyədə mövcud olduğunu göstərir.**

Sənədin ən mühüm istiqamətlərindən biri tərəflərin suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına qarşılıqlı dəstəyidir. Müqavilədə tərəflərin birbirinə qarşı yönələn ittifaqlarda iştirak etməməsi, ərazilərindən digər dövlətə zərər vurmaq məqsədilə istifadəyə imkan verməməsi də təsbit olunur. Bu müddəalar Azərbaycan və Özbəkistanın münasibətlərinə yalnız dostluq deyil, eyni zamanda təhlükəsizlik zəmanətləri üzərində qurulan strateji xarakter verir. Xüsusilə geosiyasi rəqabətin gücləndiyi bir şəraitdə belə qarşılıqlı öhdəliklər iki ölkənin xarici təsirlər qarşısında bir-birinə güvənən tərəfdaş kimi çıxış etməsinə imkan yaradır.

Müqavilə Azərbaycanla Mərkəzi Asiya arasında formalaşan yeni geosiyasi bağlantının da hüquqi dayaqlarından biri hesab edilə bilər. Azərbaycan Cənubi Qafqazın, Özbəkistan isə Mərkəzi Asiyanın mühüm siyasi və iqtisadi mərkəzlərindən biridir. Bu iki dövlət arasında



əlaqələrin möhkəmlənməsi Xəzər hövzəsinin ayırıcı deyil, birləşdirici coğrafiyaya çevrilməsini sürətləndirir. Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının məşvərət formatına tamhüquqlu iştirakçı kimi qəbul edilməsi də bu yaxınlaşmanın artıq ikitərəfli münasibətlərdən daha geniş regional məna qazandığını göstərir. Bakı-Daşkənd xətti gələcəkdə Cənubi Qafqaz ilə Mərkəzi Asiyanı birləşdirən siyasi əməkdaşlıq modelinin əsas sütunlarından biri ola bilər.

Sənədin iqtisadi müddəaları münasibətlərin yalnız siyasi bəyanatlarla məhdudlaşmadığını nümayiş etdirir. Tərəflər ticarət, investisiya, energetika, nəqliyyat, sənaye, kənd təsərrüfatı, rəqəmsal iqtisadiyyat və informasiya-kommunikasiya texnologiyaları sahələrində birgə layihələrin həyata keçirilməsini nəzərdə tuturlar. Xüsusilə gömrük prosedurlarının sadələşdirilməsi və nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılması Orta Dəhlizin inkişafına ciddi töhfə verə bilər. Özbəkistan məhsullarının Azərbaycan üzərindən Avropa bazarlarına, Azərbaycanın isə Mərkəzi Asiya bazarlarına çıxış imkanlarının genişlənməsi qarşılıqlı iqtisadi asılılığı artıracaq. Bu isə siyasi münasibətlərin davamlılığını təmin edən mühüm amildir.

Mədəniyyət, elm, təhsil və turizm sahəsində əməkdaşlığın ayrıca qeyd olunması iki ölkənin yaxınlaşmasının yalnız hökumətlərarası səviyyədə saxlanılmadığını göstərir. Azərbaycan və özbək dillərinin qarşılıqlı tədrisi, universitetlər arasında əlaqələrin genişləndirilməsi, birgə elmi layihələr və mədəni proqramlar ortaq türk kimliyinin sosial əsaslarını gücləndirə bilər. Regionlar və şəhərlər arasında tərəfdaşlığın təşviqi isə münasibətlərin paytaxtlardan kənara çıxmasına şərait yaradacaq. Yeni Daşkənddə ”Azərbaycan” parkının təməlinin qoyulması və Nizami Gəncəvi adına Milli Pedaqoji Universitetin açılması bu istiqamətin artıq konkret layihələrlə müşayiət edildiyini nümayiş etdirir.

**Nəticə etibarilə, ”Əbədi dostluq haqqında Müqavilə” Azərbaycan-Özbəkistan münasibətlərini dostluqdan strateji tərəfdaşlığa, oradan isə uzunmüddətli siyasi həmrəyliyə aparan prosesin yeni zirvəsidir. Sənəd üçüncü dövlətə qarşı yönəlməsə də, onun təhlükəsizlik müddəaları dəyişən geosiyasi şəraitdə Bakı və Daşkəndin bir-birinə verdiyi açıq siyasi təminat kimi qiymətləndirilə bilər. Müqavilənin real əhəmiyyəti bundan sonra nəzərdə tutulan iqtisadi, nəqliyyat və humanitar layihələrin hansı sürətlə icra ediləcəyindən asılı olacaq. Öhdəliklər praktik mexanizmlərlə tamamlanarsa, Azərbaycan-Özbəkistan tandemi türk dünyasında inteqrasiyanın ən uğurlu nümunələrindən birinə çevrilə bilər.**

**Sübhan**

# "Türk dünyası yalnız mədəni birlik deyil, siyasi və iqtisadi güc mərkəzinə çevrilməlidir"

**”Prezident İlham Əliyevin Özbəkistanın Milli İnformasiya Agentliyinə verdiyi müsahibə Azərbaycan-Özbəkistan münasibətlərinin bu gün hansı siyasi və strateji mərhələyə çatdığını aydın şəkildə ortaya qoyur. Bu münasibətlər artıq yalnız ortaq tarixə, dilə və mədəniyyətə söykənən qardaşlıq deyil, qarşılıqlı etimad, siyasi iradə və ortaq strateji maraqlarla möhkəmlənən müttəfiqlikdir”.**



Adalet.az xəbər verir ki, bunu Adalet.az-a açıqlamasında ”Yeni Xətt” Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, Azərbaycanla Özbəkistan arasında bu yaxınlaşmanın arxasında təsadüfi proses yox, ardıcıl və düşünülmüş dövlət siyasəti dayanır:

”Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev arasında formalaşmış qarşılıqlı etimad və siyasi dialoq iki ölkə arasındakı münasibətlərin bütün istiqamətlərinə ciddi təsir göstərir. Əslində, bu münasibətlərin gücü yalnız siyasi bəyanatlarda deyil, konkret nəticələrdə görünür.

Ticarət dövriyyəsinin sürətlə artması, Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin fəaliyyəti, sənaye və avtomobil istehsalı, kənd təsərrüfatı və digər birgə layihələr siyasi yaxınlığın real iqtisadi tərəfdaşlığa çevrildiyini göstərir.

Nəqliyyat, logistika və yaşıl enerji sahəsində əməkdaşlıq isə məsələyə daha geniş regional prizmadan baxmağa imkan verir. Azərbaycan Cənubi Qafqazda, Özbəkistan isə Mərkəzi Asiyada yerləşməklə Şərqlə Qərb arasında formalaşan yeni iqtisadi və nəqliyyat bağlantılarında bir-birini tamamlayan strateji tərəfdaşlardır”. R.Hüseynovun sözlərinə görə, münasibətlərin ən dəyərli tərəflərindən biri isə bu əməkdaşlığın xalqların həyatına da sirayət etməsidir:

”Füzulidə Mirzə Uluqbəy adına məktəb, ”Dostluq bağı”, mədəniyyət günləri, təhsil və şəhərlərarası əməkdaşlıq layihələri göstərir ki, Azərbaycan-Özbəkistan qardaşlığı yalnız dövlət sənədlərində deyil, real həyatda da öz ifadəsini tapır.Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşlərində tamhüquqlu iştirakı isə yeni regional reallığın mühüm göstəricisidir. ”C5” formatının faktiki olaraq ”C6”ya çevrilməsi Azərbaycanın Mərkəzi Asiya ilə münasibətlərinin artıq ayrıca strateji istiqamətə çevrildiyini göstərir. Məncə, Azərbaycan-Özbəkistan münasibətlərinin əsas gücü ondadır ki, burada keçmiş və gələcək bir-birini tamamlayır. Ortaq tarix mənəvi təməl yaradır, siyasi etimad bu təməli möhkəmləndirir, iqtisadi və regional əməkdaşlıq isə onu real gücə çevirir. Bu səbəbdən Azərbaycan və Özbəkistan müttəfiqliyinə yalnız iki qardaş dövlət arasındakı münasibət kimi baxmaq kifayət deyil. Bu, eyni zamanda Türk dünyasında siyasi həmrəyliyin, iqtisadi inteqrasiyanın və regional əməkdaşlığın yeni modelinin formalaşmasıdır”.

**Vasif ƏLİHÜSEYN**

*İRADƏ TUNCAY*

# MEHRİBAN ƏLİYEVA

## (İNTERYERDƏ PORTRET)

Əslində portret mürəkkəb janrlardan biridir. Həm populyar, həm də peşəkarlıq tələb edən. Əvvəllər yalnız saraylarda çox istifadə olunan, sonralar daha demokratikləşən, hamıya yaxın ola biləcək bir janr. Amma nəzərə alsaq ki, hər kəsin tanımadığı bir sima nə qədər maraq doğura bilər ki? Deməli, obraz elə seçilir ki, onu hamı həyatının bir hissəsi kimi qəbul edir. Bu da əksər hallarda saraylarda yaşayan, rəğbət və ya nifrət qazanan kimsə ola bilər. Sənətin müxtəlif növləri - ədəbiyyat da, təsviri sənət də məhz belə məşhur obrazlara müraciət edib. Xatırlasaq üzü Renessansdan bu tərəfə nə qədər usta müəlliflərin əsərləri var bu janrda. ...İndi isə foto da qarışıb bu çalışmalara. Mahiyyət eynidir - təsvir olunan obyektin daxili və xarici xarakteristikasın dəqiq çatdırmaq. Görünən reallığı dəqiq çatdırmaq. Perspektivi çatdırmaq. Sosial mühiti, mənsub olduğu zümrəni göstərə bilmək və bu zaman müəllifin təsvir etdiyi obraza münasibəti də aydın görünəcək, ustalığı aydın bilinəcək. Xarakterin interpretasiyası, xarici görkəmdən çıxış edərək mənəvi aləmə xitabı səslənəcək. Ən məşhur yazıçılar portret janrında yazdıqları ilə ədəbiyyatda yer tuta biliblər. Sveyqin, Moruanın əsərlərin xatırlayaq. Sveyq qadın obrazlarına daha çox diqqət edib - Mariya Styuart, Mariya -Antuanetta... Lider qadınlar...

Qadın olmaq... Qadın olmaq çətindir, bəs lider olmaq? O da çətindir. Qadın lider olmaq? Ay aman, müsibətdir.

... Bəs, Şərq ölkəsində qadın olmaq, lider olmaq necə? Cavab verə bilmirəm...

Mehriban Əliyeva - ölkənin First Ladysi... Hamının maraq dairəsində olan bir xanım... Yəni boğazdan yuxarı sözlər deyil - həqiqətən belədir... Hər zümrədən olan insanların diqqət mərkəzində - hər kəsin öz istəyi var ondan. Yaxın tariximizdə tamam yeni bir obrazdır - həm siyasi anlamda, həm də mənəvi... Əslində bir xarakteri açmaq üçün həmin adamın kənardakı insanlara necə münasibətdə olduğunu bilmək yetərli. Necə bilmək olar? Siyasi tərəfləri qoyaq bir tərəfə - mənəvi anlamda danışsaq??? İlk gözə dəyən mərhəmət hissi olacaq. Onun hakimiyyətdə göstərdiyi performans məhz bu tərəfdən açıldı. Mərhəmət!!! Şəfqət!!!



Zövq... Bu da daxili keyfiyyətdir, heç nə ilə alınan bir nəsnə deyil. Məncə, genetik keyfiyyətdir. Sonradan formalaşması çətin prosesdir...

Daha bir genetik xüsusiyyət isə dünyada gedən mədəni dəyişimləri dərindən bilməkdir. Yazıçı ailəsinə, söz aləminə mənsub olması da çox problemlərə münasibəti göstərə bilir. Hər halda mən belə düşünürəm. Və sonra məmləkətin ən önəmli adamının ailəsinə düşüb də burda formalaşmaq. Maraqlı taledir... Üstəlik də xarici görkəmin də belə maraqlı ola... Və belə qarışıq dövrə rast gələsən, belə dövrü yönətmək iqtidarın ola... Ailə bütünlükdə ölkənin azadlıq əsgəri oldu. Qarabağın xilası səadəti nəsib oldu. Göz önündə o tarixin necə baş verdiyini yaşadı... Əlbəttə, ona həsəd aparanlar da çoxdur. Ayın görünməyən tərəfi də var axı - görünməyən tərəfdə isə ağrı-acı da çoxdur... Nə çətindi amma zərif xanım vücudunda səni əhatə edən güclülərə öz iradəni göstərə biləsən...

Əslində biz hər hansı tarixi sima haqqında tam həqiqəti bilmirik - yəni müasiri olduğumuz simalar haqqında... Deyək ki, insan haqqında yazdığı məktublar da çox həqiqətləri danışır... Təəssüf bunu bilmirik...

Amma bildiklərimiz də çoxdur - ölkədə gedən bütün möhtəşəm tikintilər onun imzasıyla gedir. Bilirik ki, bunları Mehriban xanım edir... Monteneqroda görmüşəm, dağın ətəyindən çəkilən yol hündürdən M hərfiylə görünür... Kraliçanın adı M hərfiylə başlanır. Bəlkə getdiyimiz dağ yollarında bizim Mehribanın da öz işarəsi olsun? O, bunu haqq edib... Poetik, həyatsevər, isti qammalarda təqdim edib öz portretini...

# İntellektual təvazökarlıq:

## Siyasi peşəkarlığın görünməyən gücü

**”Sədi Şirazi deyib ki, ”Axmaq adam sussa, yaxşıdır, amma bunu bilsə, axmaq olmazdı.” Siyasətdə bunun adı metakoqnitiv çatışmazlıqdır. İnsan öz bilik və bacarığının sərhədlərini düzgün qiymətləndirə bilmir. Əslində, güclü, müdrik siyasətçi danışmazdan əvvəl nəticəni hesablamasında görür”.**

Adalet.az xəbər verir ki, bunu Adalet.az-a açıqlamasında ”Yeni Xətt” Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib. O, bildirib ki, əslində, siyasətdə emosionallıq metakoqnitiv nəticələrə gətirib çıxarır:

”O cümlədən populizm informasiya boşluğu, dilettantlıq yaradır. Əsl siyasət də bu terminləri sevmir və bunu həyata keçirən siyasətçilərin sonu məhvə doğru gedir. Siyasətdə sağlam xüsusiyyət intelektual təvazökarlıqdır. Əsl siyasi peşəkarlığın əhəmiyyəti nə vaxt danışmaq və susmaq bilməklədir. Azərbaycan reallığında biz bunu Zəfərlə tamamlanan, ərazi bütövlüyü ilə bitən siyasi strategiyamızda görmüşük. İnsanlar arasında, cəmiyyətdə hazırkı müasir texnologiyalardan istifadə edərək qəbul etdikləri informasiyaya dərhal reaksiya vermək özü də emosionallığın ən pik həddi sayılır. Düşünülmür ki, bu informasiyanı yayanın məqsədi, niyyəti, marağı nədir. Bu, kütləyə işləməkmi, kütlənin diqqətini özünə cəlb etməkmi, əsl həqiqətləri gizlətməkmi və ya ölkənin nüfuzuna zərbə vurmaqmı? Bu məsələlər düşünülmür. Ona görə də mütləq istənilən informasiyanı qəbul edəndən sonra analiz etmək lazımdır”.

R.Hüseynov deyib ki, ilk növbədə dövlət maraqlarını və dövlət prinsiplərini düşünərək təmkinli reaksiya, intellektual yanaşma, səbr olmalıdır:

”Təsəvvür edin ki, milli maraqlara uyğun olmayan, kimlərəsə özlərinə piar təşkil edir. Bu, qətiyyən yol verilməzdir. Dövləti təmsil edən siyasi hakimiyyət dövləti emosiya ilə idarə etmir, əksinə, emosiyanın yaratdığı problem və fəsadlarını aradan qaldırmaq üçün tədbirlər planı həyata keçirir. Bəli, biz anlayırıq ki, bu proses cəmiyyətin bütün təbəqələrində var və olacaq, amma siyasi məsuliyyəti öz üzərinə götürən şəxslər isə bu ziyanlı emosiyadan uzaq durmalıdırlar və heç vaxt imkan verməməlidirlər ki, emosiya düşüncəni, faktları, məsuliyyəti üstələsin. Siyasətdə bu cür hallar qəzəb, intiqam, siyasi və diplomatik böhran yarada bilər, cəmiyyətdə qütbləşmə və qarşıdurma də yaradır. Ona görə də bu, təhlükəli və lazımsızdır. Dəyərli soydaşlar, bu gün insanları bütün dünyada davranış qaydalarına tərbiyələndirmək məsuliyyəti, həm də hakimiyyətlər daşıyır. Belə hallar baş verəndə, istər yumşaq, istər dərin müdaxilələr dövlət maraqlarını düşünərək atılır. Və kimlərsə bu prosesdən sui-istifadə edib milli maraqlarımızı qorumağa qarşı çıxırsa, demək, o, Vətənə bağlı adam deyildir. Müasir dünyanın əsas ehtiyacı ”emosional insan” deyil, ”emosiyanı idarə edən” insandır. İstənilən siqnal gələ bilər, amma qərarı ağıl, fakt və dövlət marağı verməlidir”.

**Vasif ƏLİHÜSEYN**

*Rafiq MƏMMƏDOV,*
*Əməkdar müəllim*

# Azərbaycan və Özbəkistan arasında münasibətlərdərin qarşılıqlı rəğbətə əsaslanır



**Dövlətimizin xarici siyasətində tarixi, mədəni və stratejibaxımdan yaxın olan regionlarla əlaqələrin yeni müstəviyəqaldırılması prioritet təşkil edir. Bu uğurlu xarici siyasətkursunda Mərkəzi Asiya ölkələri ilə münasibətlərin inkişafımühüm yer tutur. Regionun sürətlə inkişaf edəndövlətlərindən olan Özbəkistan ilə əlaqələr də bubaxımdan böyük əhəmiyyətə malikdir.**

**Azərbaycanla Özbəkistanın tarixi dostluq, qardaşlıqmünasibətləri ötən dövr ərzində davamlı olaraq inkişafetdirilib və uzun illərin sınağından çıxaraq bugünküsəviyyəyə gəlib çatıb. Müstəqillik illərində iki qardaş ölkəarasında əlaqələrin inkişafında və dövlətlərarasımünasibətlərin formalaşmasında Ümummilli Lider HeydərƏliyevin müstəsna xidmətləri olub.**

**”İki qardaş ölkə - Azərbaycan və Özbəkistan arasındamünasibətlər ortaq tarixə, mədəniyyətə, dil və mənəvidəyərlərə, həmçinin birliyə, həmrəyliyə və xalqlarımızınəsrlərlə davam etdirdiyi, nəsildən-nəslə ötürdüyü dərinqarşılıqlı rəğbətə əsaslanır”, bu sözləri Prezident İlhamƏliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində söyləyib. Dövlətimizin başçısı qeyd edib ki, bu möhkəm bünövrə üzərində qurulan dövlətlərarasımünasibətlər son illər misli görünməmiş inkişafmərhələsinə qədəm qoyub, ən yüksək pilləyə - müttəfiqliksəviyyəsinə yüksəlib və tamamilə yeni məzmun qazanıb.**

**Onu da qeyd edək ki, Liderlərin intensiv qarşılıqlı səfərlərimünasibətlərin inkişafında mühüm rol oynayıb. Son illərdəimzalanan ”Strateji tərəfdaşlığın dərinləşdirilməsihaqqında Bəyannamə” və ”Müttəfiqlik münasibətlərihaqqında Müqavilə” ikitərəfli əlaqələrin hüquqi bazasınıdaha da möhkəmləndirib. Həmçinin təsis edilən Ali Dövlətlərarası Şura strateji tərəfdaşlığın dərinləşdirilməsiüçün mühüm institusional mexanizmə çevrilib.**

**Özbəkistan keçmiş Qarabağ münaqişəsində hər zamanAzərbaycanın ədalətli mövqeyini dəstəkləyib.**

**Yerigəlmişkən, qardaş ölkə tərəfindən Füzuli şəhərindəinşa edilən Mirzə Uluqbəy adına tam orta məktəb və”Dostluq bağı” bu dəstəyin və sarsılmaz birliyin parlaqrəmzləridir.**

**Qarşılıqlı etimad eyni zamanda iqtisadi və ticari sahədə dəəksini tapır, ikitərəfli ticarət dövriyyəsi sürətlə artır. 500 milyon dollar kapitalla yaradılan Azərbaycan-Özbəkistanİnvestisiya Şirkəti fəal layihələr həyata keçirir. Avtomobilsənayesi, energetika, ”yaşıl enerji” və nəqliyyatlogistikasahələrində sıx əməkdaşlıq mövcuddur. İki ölkənin coğrafimövqeyi Şərqlə Qərbi birləşdirən Orta dəhliz çərçivəsindəyükdaşımaların həcmini artırmağa imkan verir. Prezidentİlham Əliyev müsahibəsində iqtisadi əlaqələrin inkişaftempini belə ifadə edib: ”İqtisadi-ticari əməkdaşlığımız son illərdə sürətli inkişaf dinamikası nümayiş etdirir. Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsi2025-ci ildə əvvəlki illə müqayisədə üç dəfədən çox artıbvə 795 milyon dollar təşkil edib. Bu, əla göstəricidir.Bundan əlavə, 2026-cı ilin yanvar-may aylarında ticarətdövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 33 faizartaraq 144 milyon dollara çatıb”.**

**Çoxtərəfli diplomatiya müstəvisində, xüsusilə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində Azərbaycan vəÖzbəkistanın əməkdaşlığı müstəsna əhəmiyyət kəsb edir.Hər iki dövlət TDT-ni türk dünyasının siyasi, iqtisadi vəmənəvi gücünü artıran mühüm birlik kimi qiymətləndirir.Eyni zamanda Azərbaycanın Mərkəzi Asiya DövlətBaşçılarının Məşvərət görüşlərində tamhüquqlu iştirakı ilə”C5” formatının ”C6” formatına çevrilməsi regionlararasıinteqrasiyanı yeni səviyyəyə qaldırıb.**

**İkitərəfli münasibətlərin vacib elementlərindən biri dəhərbi-texniki sahədə əməkdaşlığın genişlənməsidir. İkiölkənin müdafiə nazirlikləri arasında imzalanan fəaliyyətplanlarına uyğun olaraq keçirilən birgə taktiki təlimlər, müdafiə sənayesi sahəsində təcrübə mübadiləsi vəhərbçilərin peşəkarlığının artırılmasına yönəlmiş addımlarregional təhlükəsizliyin və sabitliyin təmin olunmasındamüstəsna rol oynayır. Dövlətlərarası inteqrasiyanı tamamlayan mühüm amillərarasında mədəni-humanitar sahələrdə əməkdaşlıq da önəmli rol oynayır. Daşkənddə fəaliyyət göstərən HeydərƏliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi, mütəmaditəşkil olunan Mədəniyyət Günləri, media forumları və alitəhsil müəssisələri arasındakı birbaşa əməkdaşlıqxalqlarımızın bir-birini daha yaxından tanımasına, gəncnəsillər arasında mənəvi körpülərin sarsılmaz olmasınaxidmət edir.**

**Əminliklə deyə bilərik ki, ölkələrimiz arasındakı qarşılıqlıetimada söykənən və əsrlərdir davam edən dostluq vəqardaşlıq əlaqələri bundan sonra da inkişaf edəcək, xalqlarımızın rifahının yaxşılaşmasına xidmət göstərəcək.**

# Birinci vitse-prezident açılışlarda iştirak etdi

**Avqustun 26-da Bakıda Bilgəh incəsənət məktəbinin açılışı olub.**

Bu barədə məlumat Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Arzu Əliyeva açılışda iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli incəsənət məktəbində görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Bilgəh incəsənət məktəbi Bilgəh qəsəbə Mədəniyyət Evi, 27 nömrəli uşaq musiqi məktəbi və Sabunçu rayon mərkəzləşdirilmiş kitabxana sisteminin 10 nömrəli kitabxana filialının fəaliyyətlərinin optimallaşdırılması nəticəsində yaradılıb.

Qeyd edək ki, Bilgəh qəsəbə Mədəniyyət Evinin inzibati binası 1987-ci ildə inşa olunduğundan ötən müddət ərzində köhnələrək istifadəyə yararsız vəziyyətə düşmüşdü. Bu səbəbdən Heydər Əliyev Fondu tərəfindən 220 yerlik yeni məktəb binası inşa olunub.

Zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə təchiz edilən təhsil müəssisəsinin binasında musiqi, nəzəriyyə, xor, fotoqrafiya, rəssamlıq, heykəltaraşlıq, dizayn otaqları, xoreoqrafiya və akt zalları, qarderob, kitabxana və yeməkxana var.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri də görülüb.



***

Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Bakının Nəsimi rayonunda 352 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər.

Bu barədə məlumat Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov körpələr evi-uşaq bağçasında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 116 yerlik uşaq bağçası kimi istifadəyə verilən müəssisə 1972-ci ildən eşitmə qabiliyyəti pozulmuş uşaqların respublika ixtisaslaşdırılmış körpələr evi-uşaq bağçası kimi fəaliyyət göstərib. Hazırda isə 352 saylı körpələr evi-uşaq bağçası kimi fəaliyyətini davam etdirir.

Heydər Əliyev Fondunun dəstəyi ilə binada əsaslı təmir işləri aparılıb və yeni korpus inşa olunub. Yeni körpələr evi-uşaq bağçasında eşitmə qabiliyyəti pozulmuş uşaqlar üçün xüsusi qrup saxlanılmaqla, uşaqların məktəbəqədər təhsil və tərbiyə almalarına hər cür şərait yaradılıb. Eşitmə qabiliyyəti pozulmuş uşaqlar üçün burada 36 yerlik ikimərtəbəli əlavə korpus inşa olunub.

Körpələr evi-uşaq bağçasında surdoloq, oyun və yataq otaqları, idman, tədbir, musiqi və rəqs zalları, tibb, geyinib-soyunma və müəllimlər otaqları var. Surdoloq kabinetləri, dərs, oyun otaqları zəruri avadanlıqlar və mebellərlə təmin olunub.

Uşaqlar üçün açıq havada oyun və idman meydançaları salınıb, söhbətgahlar qurașdırılıb.

***

Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunu ziyarət ediblər. Bu barədə məlumat Azərbaycan Prezidentinin rəsmi internet saytında dərc edilib.

Səhiyyə naziri Teymur Musayev Birinci vitse-prezident Mehriban Əliyevaya İnstitutun fəaliyyəti barədə məlumat verdi.

Qeyd olundu ki, Elmi-Tədqiqat Pediatriya İnstitutu bir əsrdən çoxdur uşaqların sağlamlığının qorunması kimi mühüm və nəcib işə xidmət edir.

Hazırda elmi-metodik mərkəz kimi fəaliyyət göstərən bu tibb müəssisəsi 1925-ci ildə 200 çarpayılıq uşaq xəstəxanasının bazasında təşkil olunub, 1927-ci ildə yenidən qurularaq Ana və Uşaqları Mühafizə İnstitutuna çevrilib. Burada uşaqların müalicə-profilaktikası ilə yanaşı, pediatriya sahəsində peşəkar tibbi kadrların hazırlanması, elmi tədqiqatların aparılması, mövcud tibb təhsilinin təkmilləşdirilməsi həyata keçirilir. İnstitutda 255 çarpayılıq klinik şöbələr, elmi və bir çox paraklinik bölmələr var. Yenidoğulanların 60 çarpayılıq reanimasiyası və intensiv terapiyası şöbəsi respublika üzrə mərkəz funksiyasını yerinə yetirir.

**Birinci vitse-prezident və qızları ziyarət zamanı institutda yaradılmış şəraitlə tanış olublar. Həmçinin gələcəkdə fəaliyyətin təkmilləşdirilməsi üçün instituta avadanlıqlar - süni ventilyasiya aparatları hədiyyə edilib.**

# "Yeni Dehli Moskva ilə əməkdaşlıqdan imtina etmək istəmir"

**"Hindistanın xarici işlər naziri Subrahmanyam Jaishankar 23-24 avqustda Moskvada səfərdə olub. Hindli nazir Moskvada hökumətlərarası komissiyasının iclasında iştirak edib. Rusiya Prezidenti Vladimir Putin Subrahmanyam Jaishankarı qəbul edib. Hindistanın xarici işlər nazirinin Moskvaya budəfəki səfəri ona görə diqqəti çəkib ki, Yeni Dehli Vaşinqtonla Moskva arasında balansı qorumağa çalışır. Məsələ burasındadır ki, Vaşinqton Yeni Dehli ilə Moskva arasında sıx əlaqələrin əleyhinədir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloq bildirib ki, Vaşinqtonun təzyiqinə baxmayaraq, Yeni Dehli Moskva ilə əməkdaşlıqdan imtina etmək istəmir, əksinə iki ölkə arasında ticarət əlaqələrinin həcmi artıb: "Doğrudur, Vladimir Putin Subrahmanyam Jaishankarla söhbətində ticarət tərəfdaşlığının həcminin bir qədər azaldığını etiraf etsə də, Rusiya Prezidenti builki göstəricilərdən məmnun qaldığını söyləyib.

Putin buna görə Hindistanın baş naziri Narendra Modiyə minnət olduğunu vurğulayıb. Görünür, Putin bununla demək istəyib ki, Modi Vaşinqtonun təzyiqlərinə baxmayaraq, Rusiya ilə ticarət əlaqələrinin artmasında maraqlı olub.Hindistan Rusiyadann neft alışının həcmini artırıb".



E.Şahinoğlu deyib ki, bunun iki səbəbi var:

"Birinci, səbəb Hörmüz boğazımda yaranan gərgin vəziyyətlə əlaqəlidir. Hindistan ABŞ-İran müharibəsindən əvvəl neftə olan tələbatının əsas hissəsini Hörmüz boğazı üzərindən əldə edirdi. Hazırda bu mümkün deyil.

Ona görə Hindistan Rusiyadan neft alışını artırmaq məcburiyyətində qalıb. İkinci səbəb Rusiya neftinin qiymətlərinin Hindistan üçün münasib olmasıdır.

Rusiya Qərbin sanksiyaları qarşılığında Hindistana nefti dünya bazar qiymətlərinə nisbətən ucuz satmağa üstünlük verir. Rusiyanın neft emalı zavodları Ukraynanın dron zərbələri altında olduğundan Moskva Hindistandan benzin alışını artırıb. Bu iki ölkə arasında ticarət həcminin artmasına şərait yaradır.Rusiya Hindistanla Şanxay Əməkdaşlıq Təşkilatı və BRİKS çərçivəsində də əməkdaşlığın inkişafında maraqldır. Şanxay Əməkdaşlıq Təşkilatının növbəti zirvə toplantısı bu ayın sonunda Qırğızıstanda keçiriləcək.

BRİKS-in zirvə toplantısı isə sentyabr ayında Hindistanda baş tutacaq. Vladimir Putin hər iki sammitdə iştirak etməyi planlaşdırır. Halbuki, Rusiya Prezidenti bundan əvvəlki sammitlərdə iştirakdan ehtiyat edirdi. Bu dəfə isə Putin Yeni Dehlidəki sammitdə iştiraka üstünlük verir.

Təsadüfi deyil ki, Putin Hindistanın xarici işlər naziri ilə söhbətində yaxınlarda Narendra Modi ilə görüşəcəyinə işarə edib".

**Sübhan**

# "Xocalının qisası ləngisə də fidanı səhrada bitirən Allah bunu reallaşdırdı"



**"Quran məntiqinə görə Allahın qisas metodlarından biri də bir zalımdan digər zalımın əli ilə intiqam almaqdır. Tarixdə bunun örnəkləri çoxdur. Həşşaşilərin İslam coğrafiyasında terror şəbəkəsi qurması, Abbasi xəlifəsinin həddini aşması, müsəlmanların parçalanıb Allahın dinini siyasi məqsədlərə alət etməsi Hulakuların əli ilə ilahi cəza mexanizmini işə saldı".**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib. "Hulaku əvvəlcə İran coğrafiyasında qurulmuş olan terror dövləti Həşşaşilərin üstünə yürüdü, Ələmut qalasının altına barıt və neft doldurub partlatdı və demək olar ki, hamısını qırdı.

Sonra da Bağdada üz tutub böyük dağıntılar və qətllər törətdi. Xəlifəni xalçaya büküb atların ayaqları altında çığnatdı. Böyük məscidlərə baxıb bu binaların nə olduğunu soruşdu. Dedilər, Allahın evidir. Dedi, Allah insanın qəlbində olmalıdır.

Siz isə onu qəlbinizdən çıxarıb yerinə çirkin niyyətlər qoymusunuz, böyük-böyük evlər tikib özünüz də o evlərin içində murdar-murdar işlərlə məşğulsunuz...İsrail və İran bu gün Allahın adı ilə dünyada qətliamlar, fəsad törədir. Hər ikisi də guya müqəddəslik uğrunda qan tökdüyünü deyir. Biri Maşiaxın, digəri Mehdinin gəlişi üçün çalışdıqlarını mütəmadi olaraq dilə gətirir. Əslində isə hər ikisi Allahla savaşırlar.

Dinləri siyasi maraqlara alət ediblər. Məğlub olacaqlar. Bir-birini tükədəcəklər. Birinin süqutu digərinin də son nəfəsi olacaq.

Dünyada bir damla göz yaşı, bir damla nahaq qan heç vaxt yerdə qalmayıb. Fərqli zamanlarda, fərqli şəkildə mütləq əvəzi, qarşılığı verilib. Dostoyevski demişkən, hətta bəşəriyyətin xoşbəxtliyini təmin etmək üçün tikilən bir sarayın tikintisində bir körpənin göz yaşı axacaqsa o saray mütləq tar-mar olacaqdır. İranın Suriyada, İraqda qırdığı körpələr, şərləyib asdığı milli fəallar, Allahın dinini təhqir etməsi, eyni zamanda İsrailin genosid törətdiyi məzlum Fələstin xalqının ah-naləsi hədər ola bilməz. Çünki bu, ilahi ədalətə ziddir.

Bəndələrinə ədaləti əmr edən Allah özü daha adildir. Məhz bu ədalətin ali təntənəsi, bir zalımın digər zalımın əli ilə cəzalandırılmasıdır.Bu gün Xocalı qatilləri Sərkisyan və Köçəryan həbs olunub. Nəticə odur ki, Xocalının qisası ləngisə də fidanı səhrada bitirən Allah bunu reallaşdırdı. 44 gündə ordumuza qarşı savaşan, əli şəhidlərimizin qanına bulaşan Paşinyan bu gün Xocalı qatillərini həbs edir. Atalar demişkən, qisas qiyamətə qalmaz", - deyə o, bildirib.

**V. ƏLİHÜSEYN**

# "Yeni iqtisadi və siyasi reallıq ölkəmizi regionun bir hissəsinə çevirir"

**"Azərbaycan Prezidenti cənab İlham Əliyevin Özbəkistana hər səfəri coğrafi baxımdan Mərkəzi Asiya ölkəsi olmayan Azərbaycanın regionda iqtisadi və siyasi çəkisini artırır, əməkdaşlığını genişləndirir və ölkəmizi Mərkəzi Asiyada gedən proseslərin əsas iştirakçılarından birinə çevirir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. İqtisadçı bildirib ki, bir milyard dollara yaxınlaşan ticarət dövriyyəsi, 500 milyon dollarlıq birgə İnvestisiya Şirkəti, 1,4 milyon tona çatan tranzit daşımaları və bu ilin ilk yarısında daha 12,2 faiz artım, Azərbaycanda 130-dan çox Özbəkistan investisiyalı, Özbəkistanda isə 280 Azərbaycan kapitallı müəssisənin fəaliyyəti hələ işin hamısı deyil:

"Özbəkistan əməkdaşlıq üçün yüksək perspektivə malik gələcəyin ölkələrindən biri olacaq. Bu, artıq hiss olunur. Odur ki, burada əsas müsbət məqam təkcə rəqəmlər deyil, sürətlə artan dinamikadır. Orta Dəhliz və perspektivdə Zəngəzur dəhlizi, Xəzər üzərindən formalaşan yaşıl enerji xətti, qarşılıqlı investisiyalar və sənaye kooperasiyası Mərkəzi Asiyanın Azərbaycan üzərindən Qərbə iqtisadi bağlantılarını gücləndirir. Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının məşvərət görüşlərinə tamhüquqlu iştirakçı kimi qoşulması isə bu prosesin artıq iqtisadi çərçivədən çıxaraq siyasi müstəviyə də keçdiyini göstərir. Əlqərəz, coğrafiya Azərbaycanı Mərkəzi Asiyadan ayırsa da, formalaşan yeni iqtisadi və siyasi reallıq ölkəmizi regionun bir hissəsinə çevirir".

**Vasif**

# «Xocalı qatilinin həbs olunması Azərbaycan ictimaiyyəti üçün...»

**"Bu gün Ermənistanın korrupsiyaya qarşı mübarizə komitəsinin əməkdaşları tərəfindən keçmiş prezident, Xocalı qatillərindən biri Robert Köçəryanı saxlayıb. İlkin mərhələdə Köçəryana qarşı irəli sürülən ittihamda onun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək dövlət əmlakını dəyərindən daha aşağı qiymətə mənimsəməsi, ətrafında olan insanlarla birgə bir çox cinayətlər törətməsinə dair əsaslı şübhələr yaranıb".**



Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, əslində Köçəryan ailəsi Ermənistan ərazisində bir çox gəlir gətirən obyektlərin sahibi olublar və onların vergidən yayınma məsələlərində də dəfələrlə adları hallanıb:

"İrəvanın mərkəzində böyük bir "Toyota" avtomobil salonu, Köçəryanın oğlunun həyat yoldaşının çoxsaylı gözəllik salonları, ailəyə məxsus olan marketlər, otellər, istirahət mərkəzləri də var ki, onların da hansı yolla əldə edilməsi yeqin ki, araşdırılacaq. Amma bizi daha çox narahat edən başqa məsələdir. Köçəryan Azərbaycan xalqına qarşı çox qanlı cinayətlər törədib. Xocalı soyqırımının əsas təşkilatçısı və iştirakçısı birbaşa Köçəryan olub. Kütləvi qırğınların törədilməsinə birbaşa rəhbərliyi o həyata keçirib". Ə.Verdiyev bildirib ki, əlavə olaraq da həm Robert Köçəryan, həm də ondan sonra Ermənistan rəhbərlik edən Serj Sarkisyan dəfələrlə Xocalı soyqırımını törətdiklərini etiraf ediblər:

"Soyqırım siyasətini həm də dəstəkləyiblər. Sonradan isə revanşizm ideyalarının təbliğ edilməsində Köçəryanın iştirakının şahidiyik. Hazırda Azərbaycanla Ermənistan sülh əldə olunmasına kifayət qədər yaxın məsafədədirlər. Azərbaycan birtərəfli qaydada Ermənistana bütün kommunikasiya xətlərinin açılmasına qərar verib. Hazırda dəmir yolu artıq min tonlarla yükü Ermənistana daşıyıb. Belə bir vəziyyətdə Xocalı qatilinin həbs olunması Azərbaycan ictimaiyyəti üçün müsbət bir siqnal kimi də qəbul edilə bilər. Burada təbii ki, bizim əsas gözləntimiz Köçəryana qarşı Qarabağda törətdiyi cinayətlərlə bağlı ittihamların elan edilməsidir".

**Vasif ƏLİHÜSEYN**

# İntellektual təvazökarlıq: Siyasi peşəkarlığın görünməyən gücü

**"Sədi Şirazi deyib ki, "Axmaq adam sussa, yaxşıdır, amma bunu bilsə, axmaq olmazdı." Siyasətdə bunun adı metakoqnitiv çatışmazlıqdır. İnsan öz bilik və bacarığının sərhədlərini düzgün qiymətləndirə bilmir. Əslində, güclü, müdrik siyasətçi danışmazdan əvvəl nəticəni hesablamasında görür".**

Adalet.az xəbər verir ki, bunu Adalet.az-a açıqlamasında "Yeni Xətt" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, bildirib ki, əslində, siyasətdə emosionallıq metakoqnitiv nəticələrə gətirib çıxarır: "O cümlədən populizm informasiya boşluğu, dilettantlıq yaradır. Əsl siyasət də bu terminləri sevmir və bunu həyata keçirən siyasətçilərin sonu məhvə doğru gedir. Siyasətdə sağlam xüsusiyyət intelektual təvazökarlıqdır. Əsl siyasi peşəkarlığın əhəmiyyəti nə vaxt danışmaq və susmaq bilməklədir. Azərbaycan reallığında biz bunu Zəfərlə tamamlanan, ərazi bütövlüyü ilə bitən siyasi strategiyamızda görmüşük. İnsanlar arasında, cəmiyyətdə hazırkı müasir texnologiyalardan istifadə edərək qəbul etdikləri informasiyaya dərhal reaksiya vermək özü də emosionallığın ən pik həddi sayılır. Düşünülmür ki, bu informasiyanı yayanın məqsədi, niyyəti, marağı nədir. Bu, kütləyə işləməkmi, kütlənin diqqətini özünə cəlb etməkmi, əsl həqiqətləri gizlətməkmi və ya ölkənin nüfuzuna zərbə vurmaqmı? Bu məsələlər düşünülmür. Ona görə də mütləq istənilən informasiyanı qəbul edəndən sonra analiz etmək lazımdır".



R.Hüseynov deyib ki, ilk növbədə dövlət maraqlarını və dövlət prinsiplərini düşünərək təmkinli reaksiya, intellektual yanaşma, səbr olmalıdır: "Təsəvvür edin ki, milli maraqlara uyğun olmayan, kimlərəsə özlərinə piar təşkil edir. Bu, qətiyyən yol verilməzdir. Dövləti təmsil edən siyasi hakimiyyət dövləti emosiya ilə idarə etmir, əksinə, emosiyanın yaratdığı problem və fəsadlarını aradan qaldırmaq üçün tədbirlər planı həyata keçirir. Bəli, biz anlayırıq ki, bu proses cəmiyyətin bütün təbəqələrində var və olacaq, amma siyasi məsuliyyəti öz üzərinə götürən şəxslər isə bu ziyanlı emosiyadan uzaq durmalıdırlar və heç vaxt imkan verməməlidirlər ki, emosiya düşüncəni, faktları, məsuliyyəti üstələsin. Siyasətdə bu cür hallar qəzəb, intiqam, siyasi və diplomatik böhran yarada bilər, cəmiyyətdə qütbləşmə və qarşıdurma da yaradır. Ona görə də bu, təhlükəli və lazımsızdır. Dəyərli soydaşlar, bu gün insanları bütün dünyada davranış qaydalarına tərbiyələndirmək məsuliyyəti, həm də hakimiyyətlər daşıyır. Belə hallar baş verəndə, istər yumşaq, istər dərin müdaxilələr dövlət maraqlarını düşünərək atılır. Və kimlərsə bu prosesdən sui-istifadə edib milli maraqlarımızı qorumağa qarşı çıxırsa, demək, o, Vətənə bağlı adam deyildir. Müasir dünyanın əsas ehtiyacı "emosional insan" deyil, "emosiyanı idarə edən" insandır. İstənilən siqnal gələ bilər, amma qərarı ağıl, fakt və dövlət marağı verməlidir".

**Sübhan**

<u>*Rüstəm Hacıyev*</u>

# "Adımı sənə qoyum..."



***Ukrayna prezidenti Volodimir Zelenskinin Ukrananın müstəqillik günü münasibəti ilə xalqını təbrik etməsi və rusların ukraynanıları "qardaş xalq" adlandırmasının səhv olmasını bəyan etməsi, Rusiyanı bərk qıcıqlandırıb.***

***RF-sı yanında Maliyyə Universitetinin dosenti İqor Semyonovski, Ukrayna prezidentinin bu çıxışını "şovinict və millətçi" manevri kimi qiymətləndirib. İqor "müəllimin" fikirincə, "Zelenskinin yalan tezislərlə, hətta nüvə təhlükəsi tezisləri ilə ritorikasında Rusiyanı aşağıamaq istəyi müşayət olunur".***

***Özünü siyasi ekspert kimi təqdim etməyə çalışan Rusiyalı politoloq qeyd edir ki, Zelenski guya biləkdən pauza verməklə danışıqlar prossesini uzatmağa çalışır.***

***Rusiya tərəfi hesab edir ki, "Ukrayna əslində heç vaxt müstəqil olmayıb, 1990- cı illərdən başlayaraq, Moskvanın əlinə baxıb". Belə çıxır ki, hazırki Rusiya hakimiyyəti 1991- ci ildə rəsmi olaraq Ukraynanın müstəqiliyini tanıyan Rusiyanın ilk prezidenti Boris Yeltsinin imzasını legitim saymır?***

***Beynəlxalq qurumlar tərəfindən (ilk növbədə elə Rusiyanın özü tərəfindən) suveren dövlət kimi tanınan Ukraynaya hücum edib ərazilərini işğal edən, yüz minlərlə insanın qətlə yetirilməsinə, milyonlarla insanın doğma yurd-yuvalarından məhrum olmasına bais olan, artıq 5-ci ildir ki, Ukrayna torpaqlarlnda müharibə aparan Rusiya, ərazi bütövlüyünün qorunması uğrunda mübarizə aparan Ukrayna xalqını, şovinizmdə, terrorçuluqda, millətçilikdə ittiham edir (?). Gülməli deyilmi? Əslində yox, daha çox ağlamadır.***

***Gecə-gündüz Rusiyanın kütləvi informasiya məkanlarından, televiziya kanallarından Ukraynanı və ukraynalıları açıq şəkildə təhqir edən solovyovlar, skabayevalar və onlara züy tutan marqarita simonyanlar, semyon baqdasarov kimi Kremlin erməni təbliğatçıları, adlarını başqasına qoyub, ukraynalıları "şovinizimdə", "millətçilikdə", "terrorçuluqda" günahlandırırlar.***

***Kremlin rəhbərlərinin fikirincə, Rusiyanın dediyi ilə oturub durmayanlar "Rusiyanın düşmənləridirlər", "şovinisdilər", millətçidirlər". Guya, artıq 35 ildən çoxdur müstəqillik əldə edən, keçmiş postsovet ölkələrinə yenə, Moskva nəzarət etməlidir.***

***İllərdi Ukrayna ilə bacarmayan, Kim Çen I-nın əsgərlərinin ümidinə aalan, imperiya xislətlərindən əl çəkməyən Kremlin "sahibləri", dayanmadan Avropa ölkələrini də, "terrorizmə dətək verməkdə" ittiham edərək, onlarıda nüvə silahlarl ilə hədələməkdən belə çəkinmirlər.***

***Ukrayna isə, nəinki müqavimət göstərətək təslim olmur, hətta demək olar ki, Rusiyanın min km-lərlə daxilində yerləşən strateji əhəmiyyətli hərbi obyektləri, yanacaq istehsal edən sahəri dron zərbələri ilə sarsltmaqda davam edir.***

# "Talibanla Pakistan hakimiyyəti arasındakı gərgin münasibətlər..."

**"Taliban hakimiyyətə gəlişinin 5 ilini qeyd edib. ABŞ qüvvələri "Əl-Kaida" terror təşkilatıyla mübarizə adı altında Əfqanıstana müdaxilə edəndə qısa zamanda Taliban hərəkatı üzərində qələbə qazandı. ABŞ hərbçilərinin Talibana qarşı müxalif mövqedə olan Şimal Kolaisiyasıyla birgə başlatdığı əməliyyat paytaxt Kabilin ələ keçirilməsiylə tamamlandı. ABŞ hərbçiləri sonrakı müddətdə Əfqanıstanın digər şəhərlərini də Taliban hərəkatından təmizlədilər. O zaman düşünülürdü ki, Taliban hərəkatı özünə gələ bəlməyəcək. Ancaq belə olmadı. Taliban hərəkatı partizan müharibəsinə keçdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, ABŞ Prezidentlərindən əvvəlcə Barak Obama, ondan sonra isə Co Bayden amerikalı hərbçilərin Əfqanıstanda saylarını azaltmağa qərar verdilər:

"Nəhayət 2021-ci ilin avqust ayında ABŞ hərbçilərinin Əfqanıstanı tərk etməsiylə Taliban yenidən paytaxt Kabili ələ keçirdi.Taliban hakimiyyətə gəldikdən sonra müxtəlif dövlətlərlə əməkdaşlığa başlamaq istədi. Ancaq bir çox ölkədə Taliban terrorçu qruplaşma kimi dəyərləndirildiyinə görə, Kabildəki rejimlə diplomatik əlaqələri bərpa etmək istəyən dövlətlərin sayı çox olmadı. Birincilər sırasında Çin oldu. Pekin Talibanla əməkdaşlığa başladı, diplomatik əlaqələr qurdu. Çinin Talibanla əməkdaşlığının iki məqsədi var idi. Birincisi, Çin Əfqanıstanın zəngin yeraltı resurslarından istifadə etmək istəyirdi. İkincisi, Pekin Əfqanıstan ərazisində silahlı uyğurların varlığını Çin üçün təhlükə kimi qiymətləndirirdi. Pekin Talibanla əməkdaşlığın və Əfqanıstana yatırımların qarşılığında silahlı uyğurların Çin sərhəddindən uzaq tutulmasını tələb edirdi. Taliban Pekinin bu şərtini qəbul edərək silahlı uyğurların Çinə təhlükə yaratmasının qarşısını aldı. Ancaq Əfqanıstan dağlıq və müxtəlif milli qrupların yaşadığı ölkədir".



Politoloq bildirib ki, Taliban böyük şəhərlərə hakim olsa da, Əfqanıstanın tamamına nəzarət etmək imkanına malik deyil:

"Talibanla Pakistan hakimiyyəti arasındakı gərgin münasibətlər məhz bu amillə qaynaqlanır. Vaxtilə Talibanın yaranmasında və güclənməsində Pakistanın əhəmiyyətli rolu olub. Ancaq Taliban gücləndikdən və Əfqanıstanda əsas gücə çevrildikdən sonra Pakistanla münasibətlər gərginləşdi. Çünki, Əfqanıstan ərazisində Pakistana hücum edən silahlı qruplar mövcuddur. Taliban həmin qruplara nəzarət edə bilmir. Həmin qruplar Pakistan ərazisinə silahlı hücumlar təşkil etdikdə, Pakistanın ordu komandanlığı Əfqanıstana zərbələr endirirlər. Buna cavab olaraq da Taliban hərəkatı Pakistan ərazisinə zərbələr endirirlər. Nəticədə, hər iki tərəfdən mülki insanlar arasında itkilərin sayı artır.Bu arada, Taliban ABŞ-la diplomatik əlaqələr qurmaq və ABŞ-nin Kabildə səfirliyinin bərpasını istəyir. Vaşinqton buna hazır deyil. Taliban ABŞ Prezidenti Donald Trampın nadir torpaq elementlərinə marağını nəzərə alaraq, Əfqanıstan ərazisində birgə istehsal qurmağı təklif edib. Ancaq Tramp başqa ölkələrdə gəlir əldə etməyə çalışsa da, bunu Talibanla etməyə hazır deyil. Vaxtilə Türkiyə də Əfqanlstana yatırım qoymağa, hətta Kabilin hava limanını bərpa etməyə hazır olduğunu bildirmişdi. Ancaq bu baş tutmadı. Çünki, Talibanın Əfqanıstanda tətbiq etdiyi qadağalar bir çox ölkəni bu qruplaşma ilə əməkdaşlıqdan çəkindirir. Misal üçün Talibanın qadağaları səbəbindən Əfqanıstanda milyonlarla gənc qız orta və ail təhsil almaqdan məhrum olub".

**Vasif**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Yas mərasimləri və ehsan...

**... Hələ də bir çoxlarımız "ehsan" - deyəndə yas mərasimlərində verilən yeməkləri xatırlayarıq! Amma ehsan tam fərqli bir əməl deməkdir. Yəni ehsan rəhmətə getmiş adamın xatirəsinə savab iş görməkdir; yol çəkdirməkdir, bulaq açmaqdır, bir fağır, yazıq, kasıb adama kömək etmək, əl tutmaq, arxa durmaqdır.**

**Yoxsa, nə qədər yemək-içmək verəsən də o, ehsan sayılmır. Nə isə... Bu barədə mübahisə eləmək istəmirəm! Çünki həmin sahənin dəfələrlə yaxşı bilən din xadimləri var! Amma onlar da çox vaxt hər şeyi öz "arşın"ları ilə ölçürlər... İndi ölkəmizdə, xüsusilə də, Bakıda çox sayda mərasim evləri var! Və orda da yas məclisləri verilir! Lap yaxşı. Hələ biz bahalı, günü min manata olan çadırları demirik! Əksər rayonlarda yas mərasimlərində yemək vermək yığışdırılıb. Bu isə kasıb və imkansız adamların işini yüngülləşdirib.**

**Belə ki, lap bizim Bəhmənlidə rəhmətə gedən adamın yas məclisini vermək üçün ən azından 15 min manat pul xərclənirdi. Birindən qırxına qədər hər cümə axşamı yemək verilirdi. Amma sonradan rayonda camaat ənənəni yenisi ilə əvəzlədi. Belə ki, yas mərasimlərində yemək verilmədi. Təbii ki, bu yeni adət el-oba, camaat tərəfindən hörmətlə qarşılandı. Və kimliyindən asılı olmayaraq hamı bu qaydalara əməl etdi! Düz də elədilər. İndi yas mərasimlərində çay, qənd, limon, halva, su verilir.**

**Əgər əvvələr bir nəfərin yas məclisində 15 min manata yaxın pul xərclənirdisə, indi uzağı 1000-1500 manat pul çıxır! Görün, nə qədər fərq var? Gəlin, düşünək bunun nəyi pisdir!!! Və heç kim də bu yeni adəti pozmur! Bəs Bakıda niyə belə deyil? Çünki Bakıda yas mərasimlərinə bir çox imkanlı adamlar biznes marağı ilə yanaşırlar! Aydındır ki, mərasim evlərinin sahibləri varlı adamlardır. Elə mərasim yeri var ki, orda 8-9 zal var. Və hər gün də yas məclisi. Bir nəfər üçün 15 manatdan 50-i manata kimi qiymətlər var.**

**Heç indi şadlıq saraylarının sahibləri mərasim yerləri qədər pul qazanmırlar. Çünki Məhərrəmlik və Səfər ayları ilə əlaqədar hər il iki aydan çox şadlıq saraylarında toy olmur, amma elə mərasim yerləri var ki, hər gün bütün zalları dolu olur, hətta gündə iki dəfə dolub, boşalır. Ona görə də bir çox iş adamları şadlıq saraylarının təyinatını dəyişərək mərasim evinə çevirir. Bəs yeni ənənələr Bakıda niyə yaranmır? Hər şey kasıblar üçün tətbiq edilməlidir? Əgər yeni adət-ənənə yaranırsa, bu, kimliyindən asılı olmayaraq hamıya şamil edilməlidir! Bakıda isə mərasim qüvvələri mövcuddur! O qüvvənin qarşısını isə hələ ki, heç kim ala bilmir və belə getsə, ala bilməyəcəklər də! Çünki burada bir çox biznes imperiyasının böyük maraqları var!!!**

# Dörd qardaş, bir gələcək. Bu, mümkündür? - TƏHLİL

**"Türkiyə-Pakistan-Səudiyyə Ərəbistanı arasında imzalanmış "Məkkə" anlaşması haqqında region və qeyri-region dövlətlərindən fərqli açıqlamalar gəlsə də, görünən ondan ibarətdir ki, müqavilə tərəfdarı olan ölkələr imzalanmış sazişin müsəlman dövlətlərinə, xüsusilədə İrana qarşı yönəlmədiyini göstərmək üçün demək olar ki, bütün lazımı addımları atmaqdadır".**

Adalet.az xəbər verir ki, bunu Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov deyib.

O, bildirib ki, 19 avqust 2026-cı ildə Türkiyə ordusunun baş qərargah rəisi Səlçuq Bayraqdaroğlu ilə İran ordusunun de-fakto komandanı general Rəhim Yahya Səfəvi arasında baş tutmuş telefon danışığında da Türkiyə rəsmisi İranı əmin etməyə çalışdı ki, "Məkkə" anlaşması İrana qarşı qurulmuş pakt deyil:

"Hətta həmin telefon danışığında Səlçuq Bayraqdaroğlunun Rəhim Yahya Səfəvidən Hursilərin Səudiyyə Ərəbistanına hücumları dayandırması xahiş edilmiş, Rəhim Yahya Səfəvi isə Səlçuq Bayraqdaroğlundan Suriyadakı Şara hökumətinin Hizbullaha qarşı tutduğu mövqeyi yumşalmağı xahiş etmişdir. Həmin telefon danışığı ilə Türkiyə və İran arasında münasibətlərdəki soyuqluğun aradan qalxması ilə yanaşı etibar və etimad mühitinin də qurulmasına şərait yaranmış olur. İndi isə "Məkkə" sazişinin digər tərəfdaşı Pakistanın yüksək rütbəli heyəti İrana səfərə hazırlaşır. Pakistanın feldmarşalı Asim Munir yüksək vəzifəli nümayəndə heyətinə rəhbərlik edərək bazar ertəsi günü Tehrana səfər edəcək. Yayılan bəzi informasiyalara əsasən feldmarşal Asim Munir İranın yüksək vəzifəli rəsmiləri ilə görüşəcək və danışıqlar aparacaq. Çox böyük ehtimalla bu şəxslərin arasında Rəhim Yahya Səfəvinin də olma ehtimalı mütləqdir. Hətta Pakistanın feldmarşalı Asim Munirin İran ordusunun de-fakto komandanı Rəhim Yayhya səfəvi ilə görüşməsi və "Məkkə" sazişinin İrana qarşı yönəlmədiyinə əmin edəcəyi və İranı da bu pakta qoşulmağa dəvət edəcəyi ciddi versiya hesab edilə bilər". Politoloqun sözlərinə görə, gözləntilərin arxasında isə İran XİN rəsmisinin ərəb mediasına əsasən söylədiyi "İran tərəfi "Məkkə" anlaşmasına dəvəti yüksək qiymətləndirir:

"Nəhayət məzhəb məsələlərini siyasi fikir ayrılıqlarını kənara qoyub islam birliyini qurmaq zamanıdır. Biz bu anlaşmanı yüksək qiymətləndiririk".İran XİN nümayəndəsinin fikrindən belə qənaətə gəlmək olar ki, "Məkkə" anlaşmasına qoşulmaq istiqamətində İran hakimiyyəti daxilində müəyyən istəklər var və hətta onlara bu addım təklif edilib.



Yayılan digər informasiyadan isə görünür ki, Səudiyyə Ərəbistanı "Məkkə" anlaşmasına qoşulacağı təqdirdə İrana sərmayə qoymaqla yanaşı, həm də ona qarşı ABŞ-nin yanında yer almama vəd edir. Amma qarşılığında isə İran başda hursilər olmaqla Səudiyyə Ərəbistanına qarşı yönəlmiş proksi şəbəkəsini nəzarət altına alacaq, Hörmüz boğazı isə Səudiyyə Ərəbistanı gəmiləri üçün açılacaq. Eyni zamanda İran ağır silahları İraqdan çıxardacaq".

S.Hümbətov bildirib ki, yayılan informasiyalardan və baş verən proseslərdən bir neçə istiqamətdə nəticə çıxartmaq olar:

"Bunlardan birincisi, "Məkkə" anlaşmasının İrana qarşı yönəlmədiyi hər kəs üçün aydın oldu. İkincisi, həm Türkiyə, həm də Pakistan Səudiyyə Ərəbistanına izah ediblər ki, İranın pakta qoşulması Səudiyyə Ərəbistanını təhlükəsizlik baxımından daha rahat hala gətirə bilər. Üçüncüsü, İranın pakta qoşulması Türkiyənin və Pakistanın da maraqlarına cavab verir.

Dördüncüsü, Səudiyyə Ərəbistanı başa düşdü ki, ABŞ və İsrail İranı məğlub edə bilmədi və faktiki olaraq tərəflər arasında baş vermiş müharibədə İranın Səudiyyəni vurmasının qarşısını ABŞ ala bilmədi yaxud almaq istəmədi. Beşincisi, İranla münasibətlərin qırılma nöqtəsinə çatması Səudiyyə iqtisadiyyatına milyardlarla dollar ziyan gətirməkdədir və bu hər keçən gün daha da artmaqdadır.

Təbii ki, bu kimi səbəbləri daha çox saymaq olar. Bu isə nə Türkiyə, nə Pakistan, nə də Səudiyyə Ərəbistanı üçün arzuedilən deyil. Çünki, bu anlaşmadan sonra tərəflərdən birinə olunan hücum, digər ölkələrə də hücum hesab edilə bilər ki, bu da Türkiyəni və ya Pakistanı hursilərə qarşı addım atmağa vadar edə bilər ki, onlar da bu addımı atmaq istəmirlər. Həmçinin iqtisadi baxımdan ciddi böhranda olan İran üçün Səudiyyə Ərəbistanının sərmayəsi böyük nəfəslik ola bilər.

Səudiyyə Ərəbistanı ABŞ ilə münasibətlərə baxmayaraq İrana qarşı aqressiyadan çəkinməsi də müsbət hal kimi dəyərləndirilə bilər.

Qeyd edilən müsbət məqamlarla yanaşı həm də mənfi məqamlar da var ki, bu da uzun illərdi davam edən sünni və şiə əqidələri arasındakı dərinləşmiş ziddiyyətlərin aradan qaldırılması və dini həmrəyliyin nümayiş etdirilməsi o qədər də asan məsələ deyil. Burada hər tərəf ciddi səmimiyyət göstərməsə və islamı bir bütün olaraq qəbul etməsə, İranın pakta qoşulmasının vacib əhəmiyyəti olmaya bilər. Odur ki, tərəflərin bir araya gəlməsi də asanlıqla mümkün olmur".

**Sübhan**

# "Əgər Azərbaycan və Türkiyə istiqamətində dəmir yolları açılarsa..."

**"Ermənistan dəmir yollarının konsessiya hüququnu 400 milyon dollara Rusiyadan almaq istəyir. Əvvəlcə konsessiya hüququnun nə olduğunu sadə şəkildə izah edək. Ermənistanın dəmir yolları Rusiyanın yox, Ermənistan dövlətinin mülkiyyəti olsa da, 2008-ci ildə Ermənistan hökuməti dəmir yolu sisteminin idarə olunması və istismarı hüququnu 30 il müddətinə Rusiya Dəmir Yollarına verib. Müqavilə 2038-ci ilə qədər qüvvədədir və tərəflərin razılığı ilə daha 10 il uzadıla bilər.Yəni Rusiya dəmir yolunun sahibi deyil, hazırda onun idarə edilmə hüququnun sahibidir. Baş nazir Nikol Paşinyanın təklifi də məhz bundan ibarətdir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, Rusiya əlində olan bu hüququ Ermənistan və Rusiya üçün məqbul olan üçüncü tərəfə, yəni üçüncü bir ölkəyə 400 milyon dollara satsın:

"Bəs Ermənistan niyə 18 ildən sonra bu məsələni qaldırır? Səbəb dəmir yolunun indiki vəziyyətindən daha çox regionda yaranan yeni nəqliyyat imkanlarıdır. Bu gün Ermənistanın işlək beynəlxalq dəmir yolu əlaqələri olduqca məhduddur. Ölkənin əsas xarici dəmir yolu çıxışı Gürcüstan istiqamətidir. 2025-ci ildə Ermənistan dəmir yollarından cəmi 510 min sərnişin istifadə edib və onların yalnız 42 mini beynəlxalq marşrutların payına düşüb. 2025-ci ilin ilk yarısında isə dəmir yolu ilə təxminən 735 min ton yük daşınıb. Amma Azərbaycanla kommunikasiyaların açılması bu mənzərəni ciddi şəkildə dəyişə bilər. Paşinyanın parlamentdə dediyinə görə, gələcəkdə Ermənistan Azərbaycan ərazisi vasitəsilə Rusiya və Mərkəzi Asiyaya, Naxçıvan vasitəsilə isə digər istiqamətlərə dəmiryol bağlantısı əldə edə bilər. Eyni zamanda, Yerasx-Axurik xətti Ermnistanı Türkiyə istiqamətinə çıxara bilər. Məhz burada Rusiya amili problemə çevrilir".

İqtisadçının sözlərinə görə, Paşinyan açıq şəkildə bildirir ki, Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalar səbəbindən beynəlxalq investorlar və yükdaşıyan şirkətlər Rusiya şirkətinin idarə etdiyi Ermənistan dəmir yollarının istifadəni riskli hesab edə bilərlər: "Nəticədə yeni tranzit yüklər Ermənistan dəmir yolundan yan keçə bilər. Deməli, Ermənistan üçün məsələ sadəcə dəmir yolunu kimin idarə etməsi deyil. Əsas məqam regional nəqliyyat xəritəsində yaranacaq yük axınlarının Ermənistan ərazisindən keçib-keçməməsidir. Bəs 400 milyon dollar nə dərəcədə real qiymətdir? Burada maraqlı məqam var. 2008-ci ildə Rusiya Dəmir Yolları konsessiyanı əldə edərkən ilkin olaraq cəmi 5 milyon dollar konsessiya haqqı ödəyib. Bundan əlavə, yükdaşımalardan əldə olunan gəlirin 2 faizini hər il Ermənistan tərəfinə ödəmək və 30 il ərzində dəmir yolu infrastrukturuna təxminən 400 milyon dollar, hərəkət tərkibinə isə əlavə 170 milyon dollar investisiya etmək öhdəliyi götürüb.İndi isə söhbət həmin konsessiya hüququnun özünün təxminən 400 milyon dollara satılmasından gedir.Bu rəqəmi yalnız Ermənistan dəmir yollarının bugünkü sərnişin və yük dövriyyəsi ilə əsaslandırmaq çətindir. Üstəlik, mövcud 30 illik müqavilənin başa çatmasına təxminən 12 il qalır. Ona görə 400 milyon dolların iqtisadi məntiqini Ermənistan dəmir yolunun bugünkü vəziyyətində deyil, gələcək tranzit potensialında axtarmaq lazımdır".

E.Əmirov bildirib ki, əgər Azərbaycan və Türkiyə istiqamətində dəmir yolları açılarsa, Ermənistanın indiki lokal dəmir yolu sistemi Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində beynəlxalq yük axınlarına qoşula bilər:

"Belə olan halda bu gün çox böyük kommersiya dövriyyəsi olmayan dəmir yolu şəbəkəsinin iqtisadi və geostrateji dəyəri tamamilə dəyişə bilər. Ancaq açıq mənbələrdə 400 milyon dolların hesablanmasını əsaslandıran maliyyə qiymətləndirməsi yoxdur. Buna görə indiki məlumatlarla bu məbləğin dəqiq bazar qiyməti olduğunu demək tezdir. Burada başqa, bir maraqlı sual da yaranır. Bu üçüncü tərəf kim ola bilər? Paşinyan hələ bu ilin fevralında mümkün variantlardan danışarkən Qazaxıstan, BƏƏ və Qətərin adlarını çəkmişdi. Bunların içərisində Qazaxıstan xüsusilə diqqət çəkir. Çünki həm Rusiya, həm Ermənistan üçün məqbul tərəf ola bilər, həm də Orta Dəhlizin əsas iştirakçılarından biri kimi yeni dəmir yolu bağlantılarında birbaşa iqtisadi marağı var. Amma burada ABŞ amilini də nəzərdən qaçırmaq olmaz. Zəngəzur istiqamətində yaradılması nəzərdə tutulan "TRIPP Development Company"də ABŞ tərəfinin 74%, Ermənistanın isə 26% paya malik olması planlaşdırılır. Bu halda Ermənistanın regional dəmir yolu şəbəkəsinin gələcək idarəçiliyində ABŞ və ya ABŞ kapitalı ilə bağlı investorların marağının yaranması da təəccüblü olmazdı. Təbii ki, Rusiyanın Ermənistan dəmir yolları üzərindəki konsessiya hüququnu birbaşa ABŞ tərəfinə satmağa razı olub-olmayacağı ayrıca sualdır. Qazaxıstan kimi Rusiya üçün məqbul üçüncü ölkənin bu prosesdə aralıq və ya kompromis tərəf kimi meydana çıxması da mümkün ssenarilərdən biridir. Hətta daha sonrakı mərhələdə idarəetmədə ABŞ kapitalının iştirakı ehtimalını da tam istisna etmək olmaz. Hələlik bunlar yalnız mümkün ssenarilərdir. Amma görünən odur ki, Ermənistan dəmir yollarının gələcək operatorunun kimliyi məsələsi regiondakı yeni geoiqtisadi düzənin bir hissəsinə çevrilir".

**Vasif ƏLİHÜSEYN**

# Doğma torpaqda yeni həyat: Xocalı sakini Mürvət Məmmədovun qayıdış hekayəsi

**Vətən müharibəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda bərpa-quruculuq işləri sürətlə davam edir. İllərdir doğma yurdunun həsrəti ilə yaşayan soydaşlarımızın öz evlərinə qayıtması mərhələli şəkildə həyata keçirilir.**

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, azad edilən bölgələrdə daimi məskunlaşan, işləyən və təhsil alan şəxslərin ümumi sayı 90 300 nəfərdən çoxdur. Bərpa və quruculuq işləri sürətlə davam etdirilir.

Onlardan biri də Xocalı sakini Mürvət Məmmədovun ailəsidir. Mürvət Məmmədovun ailəsi 32 ildən sonra doğma yurdlarına, Xocalıya qayıdıblar. Onu çoxları yaxşı tanıyır, Xocalı faciəsi zamanı 14 yaşlı Mürvət ailəsi ilə birlikdə əsir düşüb və 6 gün olmazın işgəncələrinə məruz qalıblar. İki qardaşını və atasını ermənilər aparıb erməni qəbirlərinin üstündə başlarını kəsiblər. Təəssüf ki, bu gün də onlardan bir xəbər yoxdur. Mürvət artıq 34 ildir ki, Xocalı faciəsində özünün və digər insanların yaşadıqları işgəncələri ölkə və dünya mediasına danışır.

O, bu gün Xocalının Təzəbinə kəndinə qayıtdıqlarını deyib:

"Biz Xocalıya 1988-ci ildə Qərbi Azərbaycandan deportasiya olundan sonra gəlmişdik. 1992-ci ilə qədər Xocalıda yaşadıq. Xocalı işğal olunandan sonra biz Qobustan rayonunda məskunlaşdıq. 34 il doğma rayonumuzun həsrəti ilə yaşadıq. 2023-cü ilin sentyabr ayında keçirilən lokal əməliyyat sayəsində Xocalı işğaldan azad olunanda çox sevindik. Bunu Cənab Prezident İlham Əliyev şəxsən özü elan etdi. Anam və bütün ailə üzvlərim sevincimizdən ağladıq. Ondan sonra dövlət qurumlarına müraciət etdik ki, bizim Xocalıya getməyimiz üçün şərait yaratsınlar. 2024-cü ildə bizim bu müraciətimiz nəzərə alındı və anamla birlikdə Xocalıya getdik. Ordan isə 6 gün əsirlikdə işgəncələrə məruz qaldığımız Əsgəran polis idarəsinin təcridxanasını ziyarət etdik. Anam əsir saxlandığımız otağı görəndə infarkt keçirdi. Ondan sonra təcili Bakıya qayıtdıq və anam Mərkəzi Klinikada ürəyindən əməliyyat keçirdi. Burda da bizə dövlətimiz çox dəstək oldu.

Nəhayət 2026-cı ilin may ayında öz istəyimizlə Xocalının Təzəbinə kəndində mənzillə təmin olunduq. Qardaşım Ruslanın ailəsi və anam ayrı, mən isə dörd nəfərlik ailə üzvümlə birlikdə ayrı mənzillə təmin olunduq. Buna görə, ölkə başçımız Cənab Prezident İlham Əliyevə təşəkkür edirik. Allah şəhidlərimizi rəhmət eləsin, qazilərimizə can sağlığı versin. Onların sayəsində biz öz doğma torpaqlarımıza qayıtdıq".

Mürvət Xocalıda da işlə təmin olunduğunu bildirib:

"Mən Qobustanda "Azəriqaz" İstehsalat Birliyində çalışırdım. Elə oldu ki, Xocalıya köçəndən sonra burda "Azəriqaz" tərəfindən işlə təmin olundum və rəhbərlikdən çox razıyam".

Mürvətin anası Narxanım Məmmədovanın 83 yaşı var. O, bu gün doğma Xocalıya qayıtdığı üçün çox sevindiyini bildirib:

"Oğul həmişə deyirdim ki, torpaqlar işğaldan azad edilsin və doğma elimə-obama qayıdım. Həmişə narahat idim ki, birdən ömür vəfa etməz və bu günləri görməräm. Amma Allaha çox şükür ki, o mənə iki şəhid oğlumun, həyat yoldaşımın ruhu gəzən torpaqlarda yaşamağa ömür verdi. Mən Əsgəran polis idarəsinin təcridxanasını ziyarət edəndə o günləri təzədən yaşadım. Gözlərim həyat yoldaşım Məmmədi, oğlanlarım Söhbət və Möhləti axtardı.



Ona görə infarkt keçirdim. Buna ürək necə dözsün?! Bu gün Xocalıda və başqa rayonlarda şəhid olmuş insanlarımızın qalıqları tapılır. Bizdən də nümunələr götürülüb. Ümid edirəm ki, həyat yoldaşımın və oğlanlarımın da qalıqları tapılar, onları dəfn edərəm, ziyarət yerim olar.Şükür Allaha ki, bu gün evimdə-eşiyimdəyəm. Allah Prezidentimizi qorus un, şəhidlərimizi rəhmət eləsin, qazilərimizə cansağlığı versin"

Mürvət anasının səhhətindəki problemləri nəzərə alıb onun Xocalı faciəsində yaşadıqlarını danışmağı məsləhət görmür. O, 25-dən 26-na keçən gecə Xocalıdakı faciəni özü bizə nəql edir:

"1992-ci ilin fevral ayında Xocalıda vəziyyət çox pis idi. Atam, qardaşlarım Möhlət və Söhbət özünümüdafiə batalyonlarına qoşulub döyüşürdü. Xocalı artıq blokadada idi, şəhərin hər tərəfindən giriş-çıxışı ermənilə bağlamışdılar. İnsanları şəhərdən çıxarmaq üçün helikopter göndərmişdilər, amma onu da ermənilər vurdular. Atam qardaşlarımla tələsik evə gəlib dedilər ki, çıxmalıyıq, ermənilər artıq şəhərdədir. Camaat artıq meşə yoluyla şəhəri tərk edirdilər, amma biz gecikmişdik, qaça bilmədik. Ona görə də ağır yaralanan qonuşumuz Vidadi dayını götürüb bir evə sığındıq. Qəfildən ermənilər biz olduğumuz evə əl qumbarası atdılar. Partlayışdan sonra hamımız yaralandıq və ermənilər bizi girov götürdülər. Əvvəl bizim hamımızı yandırmaq istəyirdilər. Həmin vaxt 3 yaşlı qardaşım Ruslan əllərini qaldırıb ağlayaraq yalvardı ki, əmi, qurban olum bizi öldürməyin".

O, deyib ki, həmin vaxt anası Nurxanım Məmmədova, qardaşları və Müvət özü ayağından yaralanıb:

"Bizi bir rus zabiti xilas etdi. Amma o da evdə olan bütün qızıl-zinət əşyalarını yığıb apardı. Həmin gecə atamı, qardaşlarım Möhlət və Söhbəti isə ermənilər bizdən ayırıb naməlum istiqamətə apardılar. Biz sığındığımız evdən çölə çıxanda qonşumuz Sara xalanın və azyaşlı övladının meyitini də götürüb küçəyə tulladılar. Bunu görən Vidadi dayı özünü saxlaya bilmədi və ermənilərə atəş açdı. Aləm bir-birinə dəydi. Sonra isə bizi döyə-döyə təcili tibbi yardım maşınına mindirib Əsgərandа polis idarəsinin təcridxanasına apardılar".

Mürvət Əsgərandakı təcridaxanada əsirlərə olmasın işgəncələrin verildiyini bildirib:

"Əsirlərə o qədər işgəncə vermişdilər ki, hərə bir tərəfdə zarıyırdı, salamat adam yox idi. Həmin gün həm də balaca qardaşım 11 yaşlı Əhmədin ad günü idi. Ermənilər silahı ona uzadıb soruşdular ki, bununla bizə atəş açarsan? Qardaşım da uşaq idi, nə anlayırdı ki, onlar nə demək istəyir. Ruslan dedi ki, bəli, ataram. Biz söz elə uşağın ağzında qaldı. Bütün əsirlərin gözünün önündə avtomatla uşağın ovucunun içindən atəş açdılar. Gülərək dedilər ki, bu da bizdən sənə ömürlük hədiyyə olsun. Hələ bu azmış kimi yaralı əlinin üstünə qaynar çayın dəmini tökdülər. Uşağın naləsi göylərə qalxdı. Amma çarəsiz idik, heç nə edə bilməzdik".

M.Məmmədov bir həftə erməni əsirliyində ağır işgəncələrə məruz qaldıqdan sonra xilas edildiklərini deyib:

"Bizi Ağdamla Əsgəranın arasında bir əraziyə gətirdilər və hansı ki, orda əsirləri dəyişirdilər. Milli Qəhrəman Allahverdi Bağırov bir muzdlu qaradərilinin meyiti ilə bizimlə birlikdə 80 nəfər əsiri xilas etdi. Allah onu rəhmət eləsin. Xocalı faciəsi zamanı Allahverdi Bağırov min nəfərdən çox azərbaycanlının əsirlikdən xilas edilməsində rolu olub. Amma atam və qardaşlarım əsirlikdə qaldılar, uzun illər onların axtarışına çıxsaq da təəssüf ki, heç bir məlumat ala bilmədik. 2007-ci ildə öyrənə bildik ki, sən demə atamın və qardaşlarımın başlarını erməni qəbirlərinin üstündə qurban kimi kəsiblər və sonra elə bizim öz əsirlərimə xəndək qazdıraraq basdırıblar". M.Məmmədov Xocalıya qayıtdıqlarına görə, çox sevindiklərini bildirib:

**"Uzun illər qaçqınçılıq yaşadıq, əziyyət çəkdik. Bu illər ərzində ermənilər Xocalı faciəsində törətdikləri vəhşilikləri bütün dünyada təbliğ etdik. Mehriban xanım Əliyevaya, Leyla xanım Əliyevaya "Xocalıya ədalət!" kampaniyalarına görə təşəkkür edirəm. Bu illər ərzində Xocalı faciəsinin tanıdılması üçün kifayət qədər işlər görüldü. Ali Baş Komandan İlham Əliyev bizim arzumuzu çin etdi, Allah onu qorusun".**

**Vasif ƏLİHÜSEYN**

# Bir siqaret ömürdən nə qədər aparır?

**Siqaretin insan sağlamlığına vurduğu zərəri konkret rəqəmlərlə hesablamaq mümkündür. London Universitet Kollecinin yeni araşdırması siqaret çəkməyin ömür uzunluğuna təsirini müəyyənləşdirib.**

Adalet.az xəbər verir ki, alimlərin hesablamalarına görə, çəkilən hər siqaret insan ömrünü orta hesabla 20 dəqiqə qısaldır. Bu göstərici kişilərdə təxminən 17, qadınlarda isə 22 dəqiqədir. Gündə 10 siqaret çəkən şəxs bu vərdişindən cəmi bir həftə uzaqlaşmaqla statistik hesablamaya əsasən, ömrünün təxminən bir gününü qoruya bilər. Böyük Britaniyanın Milli Statistika İdarəsinin məlumatına görə, 2023-cü ildə ölkədə yaşı 18-dən yuxarı olan siqaret çəkənlərin sayı təxminən 6 milyon nəfər təşkil edib. Mütəxəssislər bildirirlər ki, insan siqaretdən nə qədər tez imtina etsə, uzun və sağlam yaşamaq ehtimalı bir o qədər artır.

Siqareti tərgitdikdən sonra orqanizmdə müsbət dəyişikliklər qısa müddətdə başlayır. Təxminən 20 dəqiqə sonra ürək döyüntüsü normallaşmağa başlayır. 12 saat ərzində qandakı dəm qazının səviyyəsi normal həddə qayıdır. Bir neçə həftə sonra isə qan dövranı və ağciyərlərin fəaliyyəti yaxşılaşır.

Siqaret qanı qatılaşdıraraq tromb yaranması riskini artırır, arterial təzyiqi və nəbzi yüksəldərək ürəyin daha çox işləməsinə səbəb olur. Eyni zamanda damarları daraldır və orqanlara oksigenlə zəngin qanın çatmasını azaldır.

Bütün bunlar ürək-damar xəstəlikləri, insult və digər təhlükəli problemlərin yaranması ehtimalını əhəmiyyətli dərəcədə artırır. Mütəxəssislər siqaretdən imtina etmək üçün heç vaxt gec olmadığını vurğulayırlar.

*Rza RZAYEV*

## Polad Bülbüloğlu: dövrünün əfsanəsi



**Həyatda ən alçaq, ən mənəviyyatsız, ən şərəfsiz hərəkət kiminsə yaşını arqumentə çevirməkdir.**

**Polad Bülbüloğlu öz dövrünün ən sevilən gənclərindən olub - həm də bütün SSRİ məkanında. Hətta dövrünün əfsanəsi də demək olar...**

**İllər öncə - təxminən 2012-2013-cü illərdə Polad Bülbüloğlu "Dolu" filminin yaradıcı heyətini Rusiyaya dəvət etmişdi. Moskvada və bir neçə digər şəhərdə filmin ən yüksək səviyyədə təqdimatı keçirildi. Moskva şəhərindəki nümayişdən sonra məşhur restoranların birində yaradıcı heyətin şərəfinə ziyafət verildi.**



**Təqdimatda və ziyafətdə Polad Bülbüloğlu və ailəsi - həyat yoldaşı, qızı və oğlu da iştirak edirdi; hamımız eyni süfrə ətrafında əyləşmişdik.**

**Polad Bülbüloğlunun həyat yoldaşı və uşaqları Azərbaycan dilində təmiz danışır, özlərini çox mütəvazi aparırdılar. Heç deməzdin ki, bu xanım keçmiş nazirin, hazırkı səfirin həyat yoldaşıdır. Uşaqların Azərbaycan dilində belə səlis danışması məni təəccübləndirdi, çünki onlar Moskvada rus dilində təhsil alırdılar.**

**Həyat yoldaşı bildirdi ki, biz evdə ancaq Azərbaycan dilində danışırıq, bütün adət-ənənələrimizə əməl edir, milli bayramlarımızı qeyd edirik.**

**Yəni bütün azərbaycanlılar kimi...**

## DİM sədri: Bu il ali təhsil müəssisələrinin qəbul planı 97,07 % dolub

**Bu il ali təhsil müəssisələrinin qəbul planı 97, 07 % dolub.**

Adalet.az xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzi (DİM) İdarə Heyətinin sədri Məleykə Abbaszadə bildirib.

O qeyd edib ki, bu il ali təhsil müəssisələrinin müsabiqəsində 87 146 nəfər iştirak edib:

"Onlardan 58 947 nəfəri (o cümlədən 4215 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 28 108 (o cümlədən 1145 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 317 (o cümlədən 58 subbakalavr) nəfər dövlət hesablı, 30 522 (o cümlədən 3012 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Ali təhsil müəssisələrinin qəbul planı 97,07 % dolub. Boş qalan plan yerlərinə ixtisas seçimi aparılandan sonra bu göstəricilər bir qədər də yüksələcək".

Sədrin sözlərinə görə, qeyd olunan rəqəmləri ötən ilin müvafiq məlumatları ilə müqayisə etsək, bu il tələbə adını qazananların sayının 1 711 nəfər daha çox olduğunu müşahidə edilir: "Eyni zamanda dövlət sifarişi əsasında qəbul olunanların sayı da ötənilki göstəricidən 290 nəfər çoxdur. Son illər qəbul planında dövlət sifarişi yerlərin sayının artırılması nəticəsində ödənişsiz oxumaq imkanı əldə edən tələbələrin sayı çoxalmaqda davam edir".

## Hörmüz boğazı minalardan tamamilə təmizləndi

**ABŞ Prezidenti Donald Tramp Hörmüz boğazının minalardan təmizləndiyini bəyan edib.**

Adalet.az xəbər verir ki, o bu barədə "Truth Social"da bildirib. Tramp vurğulayıb ki, yeni minaların yerləşdirilməsinə qarşı sıfır tolerantlıq siyasəti qüvvədədir.

"ABŞ Hərbi Dəniz Qüvvələri indicə mənə məlumat verib ki, Hörmüz boğazının beynəlxalq suları minalardan təmizlənib. İrana xəbərdarlıq edilib ki, yeni minalar yerləşdirən gəmilər və ya qayıqlar dərhal və sistematik şəkildə məhv ediləcək", - o yazıb. Tramp əlavə edib ki, ABŞ Kosmik Qüvvələri Hörmüz boğazının bütün ərazisində müntəzəm monitorinq keçirir. Onun sözlərinə görə, "Pikeks-Mauntin" və İranın əvvəllər məhv edilmiş digər üç nüvə obyekti üzərində də eyni qaydada müşahidə aparılır. Daha əvvəl "Tasnim"də yayılan məlumata görə, İran Hörmüz boğazı ilə bağlı şərtlərini vasitəçi qismində Pakistana təqdim edib. Əsas şərt isə İslamabad Anlaşma Memorandumunun 5-ci bəndi - Hörmüz boğazının İranın nəzarətində olmasına aiddir.

BAXIŞ BUCAĞI



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Mən də bu qoşundanam

**Bir müdrik deyim var. Xəstə nə qədər arzulasa da, armud vaxtında yetişir. Təkcə arzu, istəklə idarə olunmur. Bu dünya əgər arzuya, istəyə qalsa, milyardların - yəni yer kürəsinin ağlı başında olan bəndələrinin, məncə, heç 5 nəfərinin arzusu-istəyi üst-üstə düşə bilməz. Ona görə ki, Yaradan heç kəsi bir-birinin təkrarı kimi yaratmır. Sürətini, yəni indiki anlamda desək, kopyasını çıxarmır. Hər kəs öz qanı, canı, ağlı ilə, hətta yerişi-duruşu özüdür, fərqlidir və özü də fərqli olaraq qalır. Deməli, rəhmətlik Mikayıl Müşfiq demişkən, ”Arzuya bax, sevgilim” istəyi burda keçərli deyil. Böyük şairin ruhu inciməsin - şair sözüdür. İnanmaya da bilərsiniz. Necə ki, mən inanmıram. Amma**

**Bir həqiqət də var ki, od olmayan yerdən tüstü çıxmaz. Deməli, hardasa, nə vaxtsa, nə isə üst-üstə düşüb. Bu da körpüdən keçəndə bir- birinə toxunub. Ona görə o arzu, o istək min illəri aşıb gəlib. Gəldikcə də təkmilləşib, müasirləşib. Müəyyən məqamları dəyişib. O məqamlardan biri ”armud məsələsi”dir. Yəni indi insanlar süni üsullarla parniklərdə genini dəyişməklə armudu qışın oğlan çağında da yetişdirirlər. Xəstənin armud istəyi həllini tapıb. Və gündəlikdən çıxıb. Amma o armud xəstənin istədiyi armud deyil. Nə dadı ilə, nə tamı ilə, nə də xəstənin istədiyi, arzuladığı həmin o gendə, yaddaşda olan armudu xatırlatmağı ilə. Axı insanın istənilən halda gen yaddaşı həmişə oyaq olur. Nəyi harda, necə görüb, necə dadıbsa, dadı damağında o cür qalıb!..**

**Bu obrazlı girişdən sonra mən istək məsələsinə qayıdıram. Və bu sözü böyük, həm də qırmızı hərflərlə yazıram:**

**- İSTƏK!!!**

**Elə bilməyin ki, dilimizin qrammatikasına bələd deyiləm. Elə bilməyin ki, əllaməçilik edirəm. Xeyr! Sadəcə mən ölkənin az-çox düşünmək, duymaq, dərk etmək qabiliyyəti olan insanlarının bu sözə qarşı həssas, nə qədər diqqətli, yaşlılar demişkən, ləlöyün olduqlarını önə çəkməyə çalışıram. İnanmırsınızsa, özünüz fikir verin.**

**Sosial mediada hansısa bir mövzu, bir məsələ paylaşılan kimi dərhal ağına-bozuna baxmadan tirajlanır. Hər kəs öz ağlına, öz çəkisinə uyğun fikir bildirir. Və adama elə gəlir ki, bütün ölkənin problemləri də, yaşamağı da, var olmağı da, hətta bayrağının dalğalanmağı da müzakirə olunan məsələdən asılıdır.**

**Əslində isə müzakirə olunan kiminsə kiməsə yanakı baxmağı, kiminsə təzə mülk almağı, kiminsə təzə imicdə səhnəyə çıxmağı, kiminsə boşanmağı, daha nə bilim nələrdi Yenə hamısı bir şəxsin məişəti, əxlaqı, maddi durumu ilə bağlı olan məsələlərdir. Bu məqamda yenə bir müdrik kəlam yada düşür:**

**- At getdi, örkən apardı. Baxırsan, görürsən, hiss edirsən... Və istəyirsən bağırasan:**

**- Ay millət, ay camaat, ay el-oba, özünə qayıt! Öz gün-güzəranını, işini, peşəni, vətəndaş vəzifəni düşün. Sabahını qur. Ən azından körpü altında dayanıb, qoltuğuna sıxdığın çörək parçasını əzabsız, üzülmədən, daha rahat qazanıb evinə aparmağın yolunu axtarıb tap. Yoxsa?..**

**Bəli, bu yazını yazarkən, özüm də özümə bir neçə dəfə sağdan-soldan baxdım. Gördüm mən də elə hamı kimiyəm. Necə deyərlər, mən də bu qoşundanam. Sadəcə mən bir az özümü əldə tuta bilirəm. Kimliyimi anlamağa çalışıram. Nəhayət, mən özgənin gözündə tir axtarmıram.**

***P.S.* Bu yazının neçənci dəfə evlənən Putinə, yenidən ailə quran Ağalarova və bu günlərdə gündəm olan Polad müəllimə iynə ucu qədər də dəxli yoxdur. Onların istəyi budur. Biz də istəyə hə deyənlərik!**

***P.P.S.* İndi bildinizmi niyə ”istəyi” böyük və qırmızı hərflə yazmışam?**



Tapdıq ƏLİBƏYLİ

# MƏHƏBBƏTİN "LAÇINIM"I – LAÇIN MƏHƏBBƏTİM...

**Laçın yağı tapdağından azad olunduğu gün yazmışdım:**

**Azaddır Laçın!**
**Yolunu açın...**

Türk Ağsaqqalları Birliyinin təmsilçiləri olaraq Qarabağ səfərimizdə Laçında da olduq. Sevincimiz, kövrəlməyimiz, qürur duymağımız, duyğulanmağımız təbii haldır... Mənə elə gəldi ki, el məhəbbəti qazanmış sənətkar, Əməkdar artist Məhəbbət Kazımov da Laçında olduğumuz müddətdə bizimləydi. Qəribə hisslər ağuşunda hara üz tutdumsa, sanki ”Laçınım” oxuyurdu ... ehtizazlı səsi bütün varlığımı sardi...

Kaş ki bu günü görəydi və ayrı bir ”Laçınım” oxuyaydı.

...İllər öncə Məhəbbət Kazımovun ”Laçınım” mahnısı el şənliklərində, toy-düyündə, efirlərdə səslənər-səslənməz dillər əzbəri oldu. Müğənninin möhür- ifasına çevrilən bu mahnının məndə doğurduğu düşüncə və təəssüratları vaxtilə ”Yanğını sevdim yandığım zaman” adlı bir yazımda qələmə almışam.

”Nisgil odu” (2005) adlı kitabımada yer alan həmin mətni bənzərsiz Sənətkarın ruhuna salam olaraq təqdim edirəm: Əzəli-əbədi ülviliklər - Tanrı qüdrəti, torpaq qüvvəti, yurd məhəbbəti, söz heyrəti sırasına şaqraq səsli müğənni Məhəbbət Kazımovun ifasında səslənən ”Laçınım” mahnısı ilə səsin ecazkar təsir gücü, hikməti də qatıldı. Səsin bu qədər ovsununa, sehrinə inanmazdım, bəlkə də. Bəlkə də, səsin nuruna boyana-boyana bu qədər kövrəlməzdim, ancaq kövrəltdi məni Məhəbbət öz səsiylə:

***Seyr etdim səsinlə dağ şəlaləsin,***
***Qoxudum dağların gül rayihəsin.***
***Dinlədim Laçının həsrət nəğməsin,***
***”Laçınım” mahnısı oxunan zaman.***

Dinlədikcə, qəsbkara rəğmən nifrətimizə bülöv çəkən bu səs vətən həsrətinin yanğısını ovxarından keçirərək pərdə-pərdə haraya, çağırışa dönür. Elə bu ovqatla da üz tutdum Məhəbbətin görüşünə. Söhbətimiz əsnasında mənə bir məqam da aydın oldu ki, bu səsin sahibi bütöv varlığı ilə oxuduğu bu nəğməni yaşayır, misra-misra yanıb külə dönür. Yağı tapdağında əsir qalmış dağlar sinəsinə dağ çəkir. Axı Laçın onun dünyaya göz açdığı vətən torpağıdır.

***Oxu, sən qardaşım, oxu , Məhəbbət,***
***Səsin işığında sökülür zülmət.***



***Bilirəm alırsan ümiddən qüvvət,***
***”Laçınım” mahnısı oxunan zaman.***

Gör neçə vaxtdır həsrətik işğal altında qalan yurd yerlərimizə. Aramızda olan uzaqlıq isə göz məsafəsi qədərdir. Yəni doğurdanmı bu qədər yaxınlıqla bu qədər uzaqlıq arasında bu həsrətin sonu olmayacaq? Həsrət odunda qovrula-qovrula göynəyəcəyik. Necə ki, Məhəbbət Kazımov ”Laçınım, Laçınım ...”-deyə haray çəkib göynəyir.

***Ürəyim atlandı bu həzin səsdən,***
***Gah zildən süzülür, gah da ki, pəsdən,***
***Qurtulmaq istəyir bülbül qəfəsdən,***
***”Laçınım” mahnısı oxunan zaman.***

Vətən həsrətini içində yaşadan müğənni səsiylə qartal olub Laçının göylərində uçanda, bulaq olub torpağına süzüləndə, yağış olub düzlərinə çiləniləndə mələklərin kirpiyi nəm çəkdi, Tanrı səbrinin qapısı diksindi. Mə-



nim isə ruhumu ovudacaq müsralar yarpaqlandı:

***Dağların zirvəsi qartal oylağı,***
***Qıy vurur Məhəbbət, qartal sayağı,***
***Canlanır önümdə orman, yayalağı,***
***”Laçınım” mahnısı oxunan zaman.***

Vətən övladlarının nalə nidaları kimi süslənmişdir Laçının həsrət nəğməsi. Bu nəğmə təkcə Laçının yox, neçə-neçə yurd yerlərimizin həsrət nəğməsidir. Mayasında bir od, bir atəş var:

***Yaman qərbsəyib dağları bahar,***
***Didərgin olanı düşüb boran, qar,***
***Yandırır sinəmi sönən ocaqlar,***
***”Laçınım” mahnısı oxunan zaman.***

Qulaqlarımda Məhəbbətin sehrli səsi, dilimdə şəhli sətirlərin sərinliyi, qəlbimdə ümid alovunda yanan kədərimin - yurddaşlarının üzünə həsrət qaldığı sinəsi dağlı dağlarımızın azad, bütöv Azərbaycanımızın qoynuna qovuşacağı günün ümidi ilə ayrılıram müğənnidən:

***Gəlib ehtizaza, riqqətə qəlbim,***
***Kədərə bələndim, qəmə bələndim,***
***İntiqama səslər müqəddəs dərdim,***
***”Laçınım” mahnısı oxunan zaman.***

***P.S*** **Axirətin abad, ruhun şad olsun, unudulmaz sənətkarımız Məhəbbət Kazımov! Başqa ”Laçınım”lar başqa ifa- avazlarda yəqin ki, oxunacaq, amma sənin ”Laçınım”ın özün kimi heç vaxt unudulmayacaq.**

**Zirvə işığında, dağlar qoynunda Zəfərlə dalğalanan Bayrağımızın möhtəşəmlik ovqatında düşünürəm ki, Məhəbbətin ”Laçınım”ı Laçın məhəbbətim...**

# Ürəyiniz üçün portağal yeyin

**Portağal həm dadlı, həm də sağlamlıq baxımından olduqca qiymətli sitrus meyvəsidir. Xüsusilə beyin və ürək sağlamlığının qorunmasında mühüm rol oynayan qida maddələri ilə zəngindir.**

Adalet.az xəbər verir ki, gün ərzində bir dəfə yemək sağlamlığınıza müsbət təsir edə bilər. Mütəxəssislər bildirir ki, bu sitrus meyvəsi tək immunitet yüksəltmir, həmçinin ürək və beyni qoruyur:

Beyin sağlamlığına faydaları

Portağalın tərkibində olan C vitamini güclü antioksidant kimi fəaliyyət göstərərək beyin hüceyrələrini zədələnmədən qoruyur.

Bu isə yaddaşın güclənməsinə və zehni fəaliyyətin yaxşılaşmasına kömək edir. Bundan əlavə, portağalda olan flavonoidlər beyin qan dövranını artıraraq konsentrasiyanı yüksəldə bilər.

Araşdırmalar göstərir ki, müntəzəm sitrus meyvəsi qəbulu yaşla bağlı yaddaş zəifləməsinin qarşısını almağa dəstək olur.

Ürək sağlamlığına təsiri

Portağal ürək-damar sistemi üçün də olduqca faydalıdır. Onun tərkibindəki kalium qan təzyiqini tənzimləməyə kömək edir və ürəyin normal fəaliyyətini dəstəkləyir.

Eyni zamanda, liflə zəngin olması ”pis” xolesterinin (LDL) səviyyəsini azaltmağa kömək edir. Bu da ateroskleroz və digər ürək xəstəliklərinin riskini aşağı sala bilər.

*Digər sağlamlıq üstünlükləri*

İmmuniteti gücləndirir

Orqanizmi toksinlərdən təmizləməyə kömək edir

Dəri sağlamlığını yaxşılaşdırır

Həzm sistemini dəstəkləyir

Gündəlik rasionda 1 ədəd orta ölçülü portağal və ya bir stəkan təzə sıxılmış portağal şirəsi kifayət edir.

Lakin şəkər səviyyəsinə diqqət edən şəxslər meyvəni bütöv şəkildə qəbul etməyə üstünlük verməlidir.

**Mədə turşuluğu yüksək olan şəxslər portağalı həddindən artıq istehlak etməməlidir. Həmçinin bəzi dərmanlarla qarşılıqlı təsir ehtimalı olduğundan, xroniki xəstəliyi olanlar həkim məsləhəti almalıdır.**



*Kamal Abdulla*

# Bulud xatun və Beyrək

Gecənin bir vaxtı on altı ilin dustağı olan Beyrəyi qala divarlarından orqanla sallayıb Oğuz elinə qaçırandan sonra Bayburd bəyinin məhbub qızı bir xeyli həsrətlə onun arxasınca baxdı. Beyrək kölgə kimi divar dibinə sığına-sığına qala atlarının saxlandığı tövləyə tərəf gəldi. O bilirdi ki, qardaşı qədər sevdiyi Boz ayğır burda saxlanır. Uzun zamandır çıxarmadığı kişnərti səsini ciyərinin ən dərin yerindən çıxarıb hayqırmadımı, hayqırdı. Vaxtilə o bu cür Boz ayğırını çağırar, Boz ayğır da onun səsinə çaparaq gələrdi. İndi də elə oldu. Heç elə bil, aradan on altı il keçməmişdi. Boz at Beyrəyin səsinə ağız dolusu kişnəyib səs verdi və atların arasından sıyrılıb Beyrəyə tərəf götürüldü. Beyrək ona yalmanan atını bir tumarladı, bir tumarladı, Boz ayğırın gözləri ləzzətdən süzüldü. Bu ləzzətin içində köhnə, əziz günlərin sevgi dolu sevinci hər ikisinin canından bir anlıq da olsa ildırım sürətilə çaparaq keçib getdi.

Artıq ləngimək olmazdı. Ata minib yola düşmək zamanı idi. Beyrək durduğu yerdəncə elə bir sıçramaq sıçradı ki, Boz atın belinə qonmamış qala divarının üstündə heykəl kimi dayanıb donmuş Bayburd qızının bərabərinə uçub qalxdı və qızın məhzun, işıq saçan baxışları Beyrəyin üzünə meh kimi dəyib qəribə bir cazibə ilə onu havadaca öz qənşərində tutub saxladı. Qızın ona deyəcəyi vardı. Qız dedi:

- Əgər sağlıqla gedib elinə, obana qovuşarsansa, geri dönüb məni halallığa alarsanmı? Mən ki sənə könlümü verdim, bilirsən. Bunu unutma.

Beyrəyin şəfqət damarı qeynədi. Gözlərini yumdu, bu qızla keçirdiyi və dərdi-qəmi unutduğu, deyib-güldüyü, qızın ona danışdığı cürbəcür rəvayətləri, nağılları xatırladı. Bayburd qızının gözlərindən süzülən işıq Beyrəyi ahənrüba kimi hələ də havada tutub saxlayırdı. Bu sevimli kafir qızı intizarla ondan cavab adına bir söz gözləyirdi. Beyrək düşünüb-daşınmadan qətiyyətlə ona belə bir cavab verdi:

- Oxuma sancılayım! Qılıncıma doğranayım! Əgər gəlib səni halallığa almaz isəm. Oğuz yolu - əzab dolu. Burax məni, gedim... İşığını çevir məndən. İnan, mənə... İnan!

Beyrəyin bu sözlərindən sonra Bayburd qızının gözləri yaşla, qəlbi inamla doldu. Onun gözlərindən süzülən və Beyrəyi hələ də tutub saxlayan işıq son dəfə parladı və daha sonra işığın arası kəsildi. İşıq kəsilən kimi, Beyrək canını bu məşəqqətli işıqdan qurtaran kimi o, bir quş tükü olub, yavaş-yavaş havada yellənə-yellənə aşağıdaca durub qulaqlarını şəkləmiş Boz ayğırın belinə qondu. Boz ayğır daha gözləmədi. Balası yanına qaçırmış kimi dördnala Oğuza aparan yola düşdü. Kafir qızı hasar üstə qaldı tənha, tək...

Beyrək əvvəllər də şübhələnirdi ki, Bayburd qızının bəzi sehrbazlıq səriştəsi vardır. İndi də at belində yolun bağrını yardıqca şübhəsinin həqiqət olduğuna inandı və belə düşündü: "Əlbəttə, bu belədir. Əgər belə olmasa idi, o zaman necə ola bilərdi ki, bu on yeddi il boyu bir dəfə də olsun doğma yurdumu, el-obamı, atamı, anamı, hələ sevdiyim, könül verdiyim, beşikgərtmə nişanlım Banuçiçəyi xatırlamadım?! Dostlarımı, düşmənlərimi yada salmadım?! Bazirganlar qala divarlarının altında Dədəm Qorqud sazını çalıb doğma nəğmələri oxumasa idilər, bu huşsuzluq, bu ayrılıq nə zamana qədər sürəcəkdi?!"

Boz ayğır ağır-ağır nəfəs alıb on dörd günlük ayın ona göstərdiyi yolun bağrını yardıqca Beyrək xatırlayırdı. Onun yadına sevdiyi, könül verdiyi Banuçiçəyi də elə bəzirganlar salmadımı, bazirganlar saldı. Atasını, anasını, bacılarını yadına bazirganlar saldı. Oğuz ellərini -- çəmənləri, düzləri, qayaları, dağları, buz kimi soyuq bulaqları, ceyranları, cüyürləri, aslan yataqlarını bazirganlar onun yadına saldı. Beyrək sanki bütün bu illər ərzində ölmüş, böyücük bir uyquya getmiş, indi isə bazirganların doğma səslərini eşidəndən sonra bircə anın içində dirilmiş, bu uyqudan oyanmışdı. Bayburddakı Beyrək Beyrək deyildi, Oğuz yolunda isə o yenidən Beyrəyə döndü.

Bazirganlar onun atası Baybura bəyin bazirganları idi və Baybura bəy Banuçiçəyin düyünündən bir qədər əvvəl son ümidlə onları Beyrəyi axtarmağa göndərmişdi. Onlar da oba-oba, yurd-yurd gəzib on altı il səsi-sorağı gəlməyən Beyrəyi, nəhayət ki, Bayburd hasarında tapmışdılar. Oğuzda belə bir adət vardı: kimisə axtarırdınsa saz götürüb çala-çala, ondan da eyni şəkildə cavab ala-ala istəyinə çatırdın. Bu dəfə də əlləri hər yerdən üzülən bazirganların Qorqud sazının səsinə Bayburd hasarından Beyrək səs vermiş, onlar beləcə tapışmış və Beyrək Oğuzda onsuz baş verənləri bazirganlardan öyrənmişdi. Sevimli atası Baybura bəyin Beyrəyin həsrətilə ağlamaqdan kor olması, Basatın Təpəgözlə ölüm-dirim savaşı, Salur Qazanın əsir düşməsi və sonra əsirlikdən xilas edilməsi, Dəli Domrulun öz xatununu Əzrayılın əlindən alması, Dirsə xanın sadəlövhlüyündən istifadə edən qırx namərd arxadaşının onun başına gətirdikləri və Buğacın comərdliyi bazirganların ona saz ilə oxuduqları dəhşətli xəbərlər idi. Onun sevgilisi Banuçiçəyi Yalançı oğlu Yalançıya ərə verəcəkdilər. Yalançı oğlu onun ölüm xəbərini Oğuza gətirmişdi. Bunları eşidən Beyrəyin başı hərləndi, ürəyi dayandı. Sonra o guphagupla vuran ürək döyüntülərini qulağında apaydın eşitdi. Beyrək elə bu zaman bir anın içində bütün olub-keçənləri xatırladı və pərişan bir halda yerə çöküb ah-zar etməyə başladı. Bayburd hasarından qaçıb canını qurtarmaq və beşikgərtməsi Banuçiçəyə qovuşmaq üçün yollar aradı. Çıxış yolu Beyrəyin heç gözləmədiyi bir yöndən gəlmədimi, gəldi. Çıxış yolu nə qədər qəribə olsa da Bayburd qızından gəldi...

## Hekayə

...Sabaha qədər Beyrək durmadan at çapdı. Günəşin ilk şüaları onun yolunu işıqlandıranda yol qırağında gözünə bir nəhəng ağac və bu ağacın altından fışqırıb axan bir bulaq göründü. Bu bulağın suları dəcəl-dəcəl bir-birilə boğuşur kimi axıb gedirdi. Bulağın başındakı qollu-budaqlı palıd ağacının budaqları isə göylərə baş vururdu. Bu budaqlar sanki çoxlu-çoxlu qollara dönüb torpağa üz tutaraq bulağı bağrına basmaq, qucaqlamaq istəyirdi. Budaqların, yarpaqların xışıltısı bulağa sanki ağac dilində nəsə deyir, bulaq da ona su dilində cavab verirdi. Beyrək onların dilini anlamadı. O ağacın altında Beyrək Boz ayğırın yalmanına əlilə tanış bir tumar çəkdi və Boz ayğır qəfildən yerə mıxlanıb dayandı, ayaqları ilə torpağı eşməyə başladı. Beyrək sıçrayaraq atdan endi. Boz ayğır suya getdi, Beyrək özünü qədd-qamətli ağacın altına verdi. Yerə uzandı, əllərini başına yastıq edib sakitcə qaldı. Yol yorğunu olmuşdu. Canından yorğunluq çıxmağa başlarkən yuxu onu yavaş-yavaş ahənrüba kimi çəkib hansısa başqa bir dünyaya apardı. Ol zamanlar Oğuz igidləri uzun bir yola çıxıb yorğunluq əlindən yatdığı zaman sanki bu dünyadan ayrılır, gözlərinə mələklər və şeytanlar, qəribə məxluqlar, cin-şəyatin dolu yuxular girirdi. Onlar özlərini bu yuxuların qəribə məxluqlarının arasında görür və onları bu şirin və maraqlı uyqudan oyandırmaq heç cür mümkün olmurdu. Bu halın adına küçücük ölüm derlərdi. Beyrək xatırlayırdı: Salur Qazan, Qanturalı da beləcə küçücük ölümə dalmışdılar. Onları ancaq yeddi gün, yeddi gecədən sonra oyandıra bildilər. İndi də küçücük ölüm onu gəlib tapmışdı.

Beyrək uyquya getməzdən bir an öncə yorğunluqdan süzülən gözlərilə səmaya nəzər saldı və uzaqlarda böyük bir bulud topası sezdi. Bu bulud topasının altı ilə böyük bir qoşun əhli əllərində qılınc qara-qara atların üstündə qışqıra-bağıra uçaraq keçib uzaqlarda əriyirdi. Qoşunun başında başı yox birisi kəsik kəlləsini əlində tutub sinəsinə sıxmış halda uçurdu. Bu kəsik kəllədə bir göz var idi. Təkgöz uçduqca hiddətli-hiddətli arxasınca gələnləri, bəlkə də arxada qoyub gəldiklərini təhdid edirdi. Bir xeyli bu qoşun Beyrəyin başı üstdən uçub getdi, uzaqlarda əriyib gözdən itdi. Beyrək baxışları ilə Təkgözün sonuncu əskərini də yola saldı. Göylə uçub gedən bu ordu kimin ordusu idi?! Təkgöz kim idi?! O niyə oğuz tərəfdən uçu-uça Oğuzda qalanları təhdid etmiş olsun?! Amma Beyrək bilmirdi ki, Oğuz elinə gəlib Oğuzu zəbun etmiş Təpəgöz elə bu Təkgöz idi. Onunla savaşan neçə igidi qanına qəltan bu etmişdi. Aruz Qocanın oğlu Basat Təkgözün başını kəsəndən sonra Təkgöz də, ordusu da göyün yeddi qatına qalxıb gözdən itmişdilər. İndi də hansı məkandan ki Oğuza gəlmişdilər, naəlac oraya uçub qayıdırdılar.

Beyrəyin gözləri yumuldu, o, ağır bir uyquya dalmağa başladı. Beyrək sanki dərin və qaranlıq bir quyuya yuvarlanırdı. Qocaman ağacın budaqları, budaqların yarpaqları xışıldaya-xışıldaya ona lay-lay deyirdilər.

Beyrək uyquya gedər-getməz mavi səmadan bir böyük ağ bulud topası ağacın altına qədər süzülüb gəldi və Beyrəyin başının üstünü aldı. Bulud topasının dərinində gözəl bir saray göründü. Bu saraydan Beyrəyin yatdığı yerədək bir ağappaq mərmərdən pillələr açıldı. Bu saray da, bu pillələr də, bu sarayın içindəki qul-xəlayiq də hamısı buluddan ibarət idilər. Hər tərəfində bəyaz çiçəklər açmış və qızıl şamdanlara sancılmış şamlar yanırdı. Onlar da eynən bulud idilər. Ətrafı əsrarəngiz işıq bürüyürdü. Şamlar elə şövqlə yanırdı ki, ətrafda işığın sahibi olan sabahın hər bucağını zülmətdəymiş kimi işıqlandırırdı. Sarayın qapısından açılan pillələ Beyrək tərəfə böyük bir ehtiramla qəribə geyimli qul-xəlayiq enməyə başladı. Onlar yatmış Beyrəyə ehtiyatla yanaşdılar və onu əlləri üstünə aldılar. Sonra başları üstünə qaldırdıqları Beyrəklə bir yerdə haman pillələrlə bulud topasının içinə doğru qalxmağa başladılar. Beyrək uyquya getdiyindən bunların heç birini duymadı.

Bu göylərə baş vuran sarayın, bu sarayın ətrafındakı buludlar aləminin sahibəsi Bulud xatun adlı gözəllər gözəli bir mələk idi. Saray da, qul-xəlayiq də, sarayın ətrafındakı qəribə və əcayib məxluqat da ona məxsus idilər.

Bulud xatun Beyrəyi özünün ağ mərmərdən ucaldılmış sarayının qapısında qarşıladı. Beyrəyi ehtiyatla onun qarşısındakı ağ sandalyaya oturtdular. Bulud xatun Beyrəyə diqqətlə və sınayıcı baxışla nəzər yetirib heç nə deməkdən əlilə yaxından üzüb keçən bir parça buludu havadaca tutdu. O bulud parçası onun gözəl əlində ağ şərbətlə dolu bir piyaləyə çevrildi. Bulud xatun Beyrəyin başı üstünə əyilib bu piyaləni Beyrəyin dodaqlarına tutdu. Bir damla ağ şərbətdən ona içirdi. Beyrək anındaca gözlərini açdı. Küçücük ölüm şeytani qiyafəsilə Beyrəyin canından istəməyə-istəməyə ayrıldı, Bulud xatuna bir nifrətli baxış atdı və ətrafdakı buludların arasıyla uzaqlaşıb əridi. Beyrək gözlərini açandan sonra sonsuz bir maraqla ətrafını seyr eləməyə başladı.

Beyrək burada nə görürdüsə buluda oxşadırdı. Amma əli nəyə dəyirdisə hiss edirdi ki, canlı bir nəyəsə toxunur. Bulud xatun nəvazişlə ona baxmaqda idi. Beyrək onun gözəlliyindən əriyərək kəmali-ədəb ilə soruşdu:

- Sən kimsən, xatun? Mən burada nə edirəm?

Bulud xatun özü qədər incə səsilə ona cavab verdi:

- Bura artıq sənin yeni evindir, Beyrək. Sən ki mənim niyyət ağacımın altında oturdun, mən səni yardımsız qoya bilməzdim. Sən yardım istədin, mən də o yardımı sənə verəcəyəm. Mən qoymanam, sən getmək istədiyin yerə gedib namərd əlilə qətlə yetirilmiş olasan. Bax ətrafına. Burda nə varsa, gözünə nə görükürsə artıq sənindir. Sən isə mənimsən.

Beyrək bu gözəl xatunun sözlərindən heç nə anlamadı. Sualını təkrar etdi:

- Hələ bir de görüm, sən kimsən?

- Eləmi dersən? Amma bir düşün, mən dediyimi sən necə görəcəksən? Sən deyilənləri görə bilirmisən? Amma əgər sən dediklərini həm də görmək istərsənsə mən onu dəxi sənə göstərərəm. İstərmisən?!- Bulud xatun naz ilə gülümsəyərək onun sualına sual ilə cavab verdi.

Beyrək həqqən bu xatunun dediklərinə bilmədi ki, nə söyləsin. Bulud xatun camal yiyəsi olduğu qədər, həm də kamal yiyəsi idi. Bulud xatun onun çaşqınlığını görüb bu dəfə xeyli nazikcəsinə səsləndi:

- Mən Bulud xatunam, igidim. Bu gördüyün yaxındakı, uzaqdakı buludların sahibəsi mənəm. O buludlara mən həyat verə bilirəm və mən onları əridib yox edə bilirəm. Bax, o bulud topasına bax. Əslində, onlar bulud parçaları deyillər. Onlar mənim atlarımdır. Sənin Boz ayğırın da artıq onların içindədir. Amma onu hər necə çağırsan da, o səninlə bir yerdə yer üzünə qayıda bilməyəcək. Yüksəklikdən yerə dəyib param-parça olacaqsınız. Beynindən keçənləri unutsan yaxşıdır.

Bulud xatun Beyrəyin beynindən keçənləri o andaca duymuşdu və onu bu fikrindən daşındırmaq istədi.

Beyrək daha dinmədi. Anladı ki, gözəllər gözəli Bulud xatun onun nə düşündüyünü oxuya bilir. Onun üçün də heç bir şey barədə düşünməməyə qərar verdi. Bulud xatun işarə etdi və qullar yenə Beyrəyi əhatəyə aldılar. Onu oturduğu sandalyadan qaldırdılar və hər iki qolundan yapışaraq sarayın yuxarısına, onun üçün xüsusi hazırlanmış bəmbəyaz, geniş bir otağa apardılar. Bu otaq səliqəsi və düzəni ilə göz qamaşdırırdı. Beyrək otağa baxıb orada sağ küncdə bir böyük pəncərə gördü. Yaxınlaşıb pəncərədən baxdı. Bulud xatunun sarayı səmada sürətlə uçurdu. Hər tərəf ağappaq bulud idi. Alçaqdan, hündürdən uçan, gah aslana, gah ceyrana, gah dəvəyə, gah ata çevrilən bulud topaları hər tərəfi tutmuş idi. Aşağıda, çox-çox uzaqlarda evlər, saraylar, qəsrlər, şəhərlər, ölkələr var idi. Onlar bir-birini yavaş-yavaş əvəz edirdi. Beyrək onu bura gətirənlərə dedi:

- Dinlənmək istirəm.

Qullar bir an içində əriyib yox oldular. Beyrək çarpayıya uzandı. Aşağıda, böyük ağacın altında yatdığı yuxu o qədər şirin və o qədər rahat idi ki... Bir daha belə bir rahat yuxuya gedəcəyinə inanmırdı. Amma o düşünən kimi olmadı. Rahat və şirin bir yuxu yenə də onu öz ağuşuna aldı.

Beyrək yuxudan ayılanda gördü ki, Bulud xatun onun yanında uzanıb, gözlərini onun gözlərinə dikib və bir əli ilə onun saçlarını tumarlayır.

Bulud xatun dedi:

- Mən heç vədə sənin qədər yaraşıqlı igidə rast gəlmədim. Bilirsənmi, mənim yaşım dünyanın yaşı qədərdir. Bura da niyyət ağacımın altından çox igidləri alıb gətirdim. Heç biri sənin kimi deyildi.

Beyrəyin şəfqət damarı yenə də qeynəməyə başladı.

Bulud xatun sevgi dolu bir nəvazişlə ona baxırdı.

**(ardı 10-cu səhifədə)**

(əvvəli 9-cu səhifədə)

# Bulud xatun və Beyrək

Beləcə zaman ötüb keçməyə başladı. Amma bulud içindəki və yer üzündəki zaman eyni zaman deyildilər. Yer üzündəki zaman ağır-ağır keçirdi, çünki üstündəki yük - insanlar, evlər, qəsrlər çox idilər. Bu, ağırlıq demək idi. Buludlar isə quş lələyi kimi yumşaq və çəkisiz... Onlardakı zamanın sürəti böyük idi. Bu zamanlar bir-birinə uyuşmur və bu uyuşmazlığa cavab olaraq buludlar tərəfindən aşağı uzun sürəli yağışlar, sellər axırdı. Onlar insanları, obaları yuyub aparmaq, yer üzünün sonundan o yandakı boşluğa atmaq dilərdilər. Onlar bu şəkildə yer üzünü əlavə yükdən xilas etmək istərdilər. Amma yer üzünün sürəti bundan artırdımı, artmırdı. Hərdən bu buludlar yer üzünə yağış əvəzinə dəvələr, şirlər göndərir, yer üzündəkilərin sayını bu şəkildə azaltmaq istirdilər. Bu da bir nəticə vermirdi. Çünki insanlar durmadan çoxalmaqda idilər.

Beyrək bir müddət Bulud xatunun himayəsində beləcə ömür sürüb durdu. Bulud xatun Beyrəyə isinişmişdi. Onların söhbəti tuturdu. Bulud xatun Beyrəyə yer üzündəki insanlardan, ellərdən, obalardan, yurdlardan, dağlardan, çaylardan, dənizlərdən danışır, bəzən sözlərinə sübut kimi uzaq-uzaq dənizlərdə üzən balıqlardan söz açır, hətta bu balıqları bulud halında Beyrəyin gözünə görükdürürdü. Bu zaman həman balıqlar Bəyaz sarayın qabağından dənizdə üzən kimi üzüb keçir, hətta başları ilə Beyrəyə salam belə verirdilər. Beyrəyin hər bir arzusu anındaca yerinə yetirdi. Bulud xatun bütün mehrini Beyrəyə salmışdı. Xatun Beyrəyi sevmişdi. Beyrək tam olaraq onun qəsd etdiyi bir cəngavər idi. Yaraşıqlı, sözünün düzənini bilən, elinə, obasına sədaqətli birisi idi. Bulud xatun Beyrəklə sonsuza qədər bu buluddan ucaldılmış sarayda yaşamaq istərdi. Amma gərək idi ki, bunu Beyrəyin özü də istəyə idi. Beyrək isə məhzun-məhzun buludların üstündə, içində gəzib-dolaşır, yuxarıdan aşağı yer üzünə baxdıqca baxır, sanki nəyisə xatırlamaq istəyir, amma xatırlaya bilmirdi. Beyrək nə isə itirmiş adama bənzəyirdi, amma nə itirdiyini özü də bilmirdi. Beyrəyin qəlbinin dərinlikləri nəyisə, kiminsə xatırlamaq istirdi, amma özü də bilmirdi ki, bu nə isə, bu kim isə nədir və kimdir. Beyrəyin ürəyi sıxıldıqca sıxılırdı. Beyrək ətrafına baxdığı zaman hansısa qəribə və əcaib məxluqlar görürdü. Beyrək artıq bilirdi ki, bunlar buluddular. Bu bulud parçaları gah aslana dönür, gah buğaya, buğraya çevrilir, gah da şahə qalxmış atlar olurdular. Bulud xatun Beyrəyin belə əhvalından əndişələnərək onu şənləndirmək üçün hərdən bu qəribə məxluqları bir-birilə boğuşdururdu. Aslanlar aslanlarla, dəvələr dəvələrlə, köpəklər köpəklərlə boğuşur, sonra da əriyib yox olurdular. Beyrək bir müddət bu boğuşmaya diqqət edib həvəslə seyr edər, boğuşmadan sonra yenidən qəlbinə həman anlamadığı kədər və qüssə gəlib dolardı. Get-gedə Beyrək saralır, solur, gözlərinin dərinliyindəki qüssə baxışlarına qədər gəlib orada özünə məskən salırdı...

Nəhayət, Bulud xatun Beyrəyin bu halına dözə bilmədi. Bir gün o, Beyrəyə belə dedi:

- Sənin yaddaşını səndən alıblar. Bunu Bayburd bəyinin sehrbaz qızı edibdir. Mən dəxi yaddaşını sənə qaytarmağı diləmədim. İndi isə mən bir qərara gəldim. Sənə bir sualım vardır.

- Nədir sənin sualın? - Beyrək təəccüb içində sordu.

- Əgər mən sənin yaddaşını sənə qaytararamsa, gedib elində-obanda istədiklərinə qovuşarsansa, geri dönüb mənimlə burada əbədi olaraq yaşamağına söz verirsənmi? Bir şeyi də bilməni istərəm. Burada səni böyük bir azadlıq gözləyir. Üz bu səma dənizində haraya istərsən. Amma Oğuzda sənin ölümün səni arar. Orada qalsan bu ölümdən qaça bilməyəcəksən...

Beyrək bu sözlərdən diksindi. Amma yenə də heç nə anlamadı. Özündən asılı olmadan Bulud xatuna da eynən Bayburd qızına verdiyi sözlə belə dedi:

- Oxuma sancılayım. Qılıncıma doğranayım əgər gəlib burada səninlə sonsuza qədər ömür sürməz isəm...

Beyrək dediyi sözlərə özü də inanmırdı. O bilirdi ki, Bulud xatun onun üzünə baxan kimi qəlbindən keçənləri duyacaqdır. Onun üçün də üzünü qaçırıb pəncərədən aşağıları seyr etməyə başladı.

Bulud xatun əllərini uzadıb bir əlilə qara, o biri əli ilə ağ bulud parçasını tutdu. Bu bulud parçalarını bir piyaləyə sıxaraq suyunu çıxardı. Sonra piyaləni Beyrəyə uzatdı. Beyrək piyaləni Bulud xatundan alıb böyük bir heyranlıqla ona baxdı. Baxışı ilə onunla vidalaşdı. Sonra heç bir şey sormadan piyaləni tələsik başına çəkdi. Elə o andaca onun gözlərini qırmızı bir qaranlıq bürüdü. Bütün bədəninə isti tər yayıldı. Huşu uçub harasa getdi. Bir ayıldığında özünü yenə də haman uca niyyət ağacının altında uzanmış bir halda gördü. Başının üstündən böyük bir bulud topası süzüb keçirdi. Beyrək o bulud topasının içində öz möhtəşəm sarayının qapısında bütün əzəməti ilə durmuş və ona böyük bir sevgi ilə baxan Bulud xatunu gördü. Bulud xatunun sözləri qulaqlarında cingildədi:

- Unutma, Beyrək. Sən mənə söz verdin. Azadlığını unutma. İşlərini bitirəndən sonra niyyət ağacının altında gəlib durmanı istərəm. Unutma...

Beyrək daha dayanmadı, o uzandığı yerdən ayağa qalxıb ciyərlərinin dərinindən gələn haman səslə Boz ayğırını harayladı. Boz ayğır anındaca Beyrəyin səsinə səs verdi və haradansa uçaraq gəlib niyyət ağacının altında peyda oldu. Beyrək son dəfə göy üzünə baxıb Bulud xatunu, onun sarayını görmək dilədi. Amma saray da, Bulud xatun da, qul-xələyiq də, sarayın ətrafındakı əcaib məxluqat da yavaş-yavaş uzaqlaşır, əriyib yox olurdu. Yağış yağmağa başladı.

Beyrək Boz ayğırına minib Oğuz yolu ilə getməyə çalışdı. Oğuz yoluna düşmək asan olmadı. Nəhayət, Boz ayğır yol kənarında bitən otları, kolları qoxlaya-qoxlaya Oğuz yolunu tapdı və bundan sonra dördnala bu əzablı və sirr dolu yolla var gücülə çapmağa başladı. Beyrək artıq xatırlayırdı. Ağlamaqdan gözləri tutulmuş atasını, onun həsrətilə iztirablar keçirən anasını, bacılarını və əlbəttə ki, sevdiyi, könül verdiyi beşikgərtmə nişanlısı Banuçiçəyi xatırlayırdı. Beyrək naibi olduğu Salur Qazanı, gənclik dostları Uruzu, Şirşəmsəddini, Qanturalını, Bəkili, alp Rüstəmi xatırlayırdı. Xatırladıqca Beyrək qəlbində qəribə bir rahatlıq hiss edirdi.

Oğuza dönüşün əzablı yolu beləliklə, sona çatdı. Yetdiklərində Boz ayğır birbaşa Baybura bəyin evinin qarşısına getdi. Beyrək baxıb gördü ki, beş-altı çoban yol kənarından daş yığıb yola tökürlər. Əvvəlcə Beyrək qəzəbləndi:

- Çobanlar! - deyə bağırdı. - Nə edirsiniz? Yolda daş görən o daşı alıb kənara atar. Siz niyə daşı yola tökürsünüz?

Çobanlar Beyrəyə belə cavab verdilər:

- Bizim bəyimizin bir oğlu vardı. Adına Beyrək derlərdi. On altı ildir qeyb olub. Ondan bir xəbər yox. Nişanlısının bu gün başqası ilə düyünüdür. Yola daş tökürük ki, bu yol ilə o düyünə gedən olmasın.

Beyrəyin qəzəbi göydəki bulud kimi əriyib getdi:

- Halal olsun sizə ağanızın çörəyi.

Elə bu sözləri deyərkən Beyrək bir də gördü ki, qarşı tərəfdən əlində Dədəm Qorqudun sazı bir ozan gəlir. Bu ozan düyünə gedirdi...

**Son**



*Düzgün ATALI*

# İNSAN YAXŞILIĞI CƏNNƏT ÜÇÜN ETMƏLİDİR, YOXSA YAXŞILIQ ÖZÜ CƏNNƏTDİR?

## CƏNNƏT VƏDİNDƏN RUHUN AZADLIĞINA

**2-ci esse**

İnsan niyə yaxşı olmalıdır?

Bu sual ilk baxışda sadə görünür. Lakin onun daxilində insanın bütün mənəvi taleyini müəyyənləşdirən böyük bir fəlsəfi problem gizlənir.

İnsan yaxşılığı nə üçün edir?

Cəzadan qorxduğu üçün?

Mükafat gözlədiyi üçün?

Cənnətə getmək üçün?

Yoxsa yaxşılığın özü insanın mənəvi mahiyyətindən doğduğu üçün?

Əgər insan yalnız cənnətə getmək üçün yaxşılıq edirsə, onda onun yaxşılığı həqiqətən mənəvidirmi?

Əgər insan pislikdən yalnız cəhənnəm qorxusuna görə çəkinirsə, onda o, həqiqətən yaxşı insandırmı?

Bəlkə də burada insanın mənəvi inkişafının ən mühüm mərhələsi başlayır.

İnsan yaxşılığı mükafat üçün deyil, yaxşılığın özünə görə etməyi öyrənməlidir.

Çünki mükafat gözləyən yaxşılıq hələ tam mənəvi azadlıq deyil.

Qorxudan doğan itaət də mənəvi kamillik deyil.

İnsanın həqiqi mənəviyyatı o zaman başlayır ki, o, yaxşılığı nə cənnətə görə, nə cəhənnəmə görə, nə də başqalarının alqışı üçün edir.

O, yaxşıdır - çünki yaxşı olmaq onun mahiyyətinə çevrilib. Belə insanın mənəvi davranışı xarici mükafat və cəza sistemindən asılı deyil.

O, haqsızlıq etmir, çünki cəzadan qorxur deyə yox.

O, yaxşılıq edir, çünki insanın ağrısını öz ağrısı kimi hiss edir.

O, Vətənini sevir, çünki bunun qarşılığında mükafat gözləmir.

O, millətinə xidmət edir, çünki öz varlığını mənsub olduğu xalqın taleyindən ayrı təsəvvür etmir.

O, insanlığa xidmət edir, çünki insanlığın yüksəlişini öz həyatının mənası hesab edir.

Əsl mənəviyyat burada başlayır.

İnsan öz mənəviyyatını mükafat və cəza sistemindən azad etdiyi anda, ruhən böyüməyə başlayır.

Çünki qorxu üzərində qurulan əxlaq insanı yalnız itaətkar edə bilər.

Amma mənəvi şüur insanı azad edir.

Qorxan insan soruşmur.

Mükafat gözləyən insan şərti davranır.

Azad insan isə anlayaraq seçim edir.

Ona görə də insanın mənəvi yüksəlişinin ən böyük göstəricisi onun nə qədər qorxduğu deyil, nə qədər azad düşündüyüdür.

Burada dinin özü ilə dinin istismarı arasında böyük fərq yaranır.

İnam insanı mənəviyyata, mərhəmətə və xeyirxahlığa yönəldə bilər. Lakin insanın cənnət arzusunu və cəhənnəm qorxusunu istismar edənlər bu mənəvi ehtiyacı hakimiyyət vasitəsinə çevirə bilərlər.

İnsana deyilir:

”Belə et - cənnət qazanacaqsan.”

”Belə etmə - cəhənnəmə düşəcəksən.”

Beləliklə, insanın mənəvi davranışı onun daxili şüurundan deyil, xarici mükafat və cəzadan asılı vəziyyətə gətirilir.

İnsan öz vicdanının səsinə deyil, başqasının hökmünə qulaq asmağa başlayır.

Bu isə insanın mənəvi azadlığını zəiflədir.

Çünki vicdanın yerini qorxu tutanda, mənəviyyat itaətə çevrilir.

Bəs insanın həqiqi cənnəti haradadır?

Bəlkə də cənnət insanın ölümündən sonra gedəcəyi bir məkan deyil.

Bəlkə də cənnət insanın öz ruhunda yaratdığı mənəvi vəziyyətdir.

İnsan sevəndə, bağışlayanda, yaradanda, ədaləti müdafiə edəndə, Vətəninə və millətinə ləyaqətlə xidmət edəndə, başqasının ağrısını öz ağrısı kimi duyanda - o, artıq mənəvi cənnətini qurur.

Bu cənnətin qapısını heç kim aça bilməz.

Heç kim bağlaya bilməz.

Çünki o, insanın öz ruhundadır.

Yaxşılıq özü cənnətdir.

Ədalət özü cənnətdir.

Sevgi özü cənnətdir.

Azadlıq özü cənnətdir.

İnsanlıq özü cənnətdir.

Əgər belədirsə, insanın cənnəti yalnız ölümündən sonra axtarması nə qədər doğrudur?

Niyə insan bu dünyada cənnət yaratmağa çalışmasın?

Niyə öz Vətənində ədalət qurmasın?

Niyə millətinin azadlığını və ləyaqətini yüksəltməsin?

Niyə insanlığın ağrısını azaltmasın?

Bəlkə də insanın ən böyük yanılması budur: o, cənnəti göylərdə axtarır, halbuki insanlığın ən böyük vəzifəsi yer üzünü cənnətə çevirməkdir.

İnsan keçicidir.

Onun həyatı bir gün sona çatacaq.

Amma onun yaratdığı yaxşılıq yaşaya bilər.

Onun qurduğu ədalət yaşaya bilər.

Onun yetişdirdiyi insan yaşaya bilər. Onun yaratdığı mənəvi dəyər nəsillərdən-nəsillərə keçə bilər.

Bu mənada insanın əbədiliyi öz bədənində deyil, yaratdığı İnsanlıqda davam edir.

İnsan keçicidir, İnsanlıq əbədidir.Ona görə də insanın əsl məqsədi özünə cənnət qazanmaqdan daha böyük olmalıdır.

O, özündən sonra cənnətə bənzər bir dünya qoymağa çalışmalıdır.

Əgər insanın yaxşılığı yalnız öz xilasına xidmət edirsə, bu, mənəviyyatın ən yüksək mərhələsi deyil.

Amma insan başqalarının da xoşbəxtliyi üçün çalışırsa, öz həyatını İnsanlığın yüksəlişinə həsr edirsə, onda onun yaxşılığı artıq şəxsi mükafatdan yüksəlir.

Əsl insan cənnət axtaran deyil - cənnət yaradan insandır.

Əsl mənəviyyat isə insana demir:

”Sən nə qazanacaqsan?”

Əsl mənəviyyat soruşur:

”Sən nə yaratdın?”

”Kimin həyatını yaxşılaşdırdın?”

”Hansı haqsızlığa qarşı çıxdın?”

”Vətəninə nə verdin?”

”Millətinə nə miras qoydun?”

”İnsanlığa hansı dəyəri bəxş etdin?”

Bəlkə də insanın əsl hesabı ölümündən sonra deyil, hər gün öz vicdanının qarşısında verilir.

Və bəlkə də ən böyük cənnət budur:

İnsan öz vicdanının qarşısında başıuca yaşaya bilsin.

Çünki ruhun ən böyük azadlığı budur:

Yaxşı olmaq üçün mükafata ehtiyac duymamaq.

# TÜRKOLOJİ DÜŞÜNCƏNİN KİTABI

## Fəlsəfə üzrə fəlsəfə doktoru Cavanşir Feyziyevin "Türk Dövlətləri Birliyi: Qlobal İnteqrasiyanın Türk Modeli" və əslində eyni mövzunun davamı sayıla biləcək beş cildliyi barədə qeydlər

**(əvvəli ötən sayımızda)**

**Doğrudur, Rusiya Avrasiyaçılığı həmişə ortada maneə, manevrdir. Özünün imperiya siyasətindən zahirən guya bu ölkə əl çəkib, amma yenə altdan-alta eqoizmi baş qaldırır, köhnə ittifaqda birləşən ölkələrin işlərinə yerli-yersiz qarışmaq istəyir, qonşuluğunu unudur. Bu "şuluq" hərəkətləri hər vaxt dünya birliyi tərəfindən qınaq hədəfinə çevrilir, tənqid olunur. Burda yenə Azərbaycanın məşhur it-motal məsələsi yada düşür. Qəribədir, az qala dünyanın yarısına yiyəlik edən ölkə hardasa görürsən, təzədən torpaq almaq eşqinə düşür. Hələ ki, qonşu superdövlətin siyasətçilərinin düşüncəsində, zəkasında qabağı görmək yoxdur. Bəsit təfəkkür tərzi və kasıb diplomatiya siyasi elatanı çıxılmaz vəziyyətə qoyur. Belə getsə, nəhəng güc mərkəzi kimi illər uzunu formalaşan qonşumuz tamamilə zəifləyər. Axı, haçanacan dünyada hərb dili ilə danışmaq olar.**

Qərbin Avrasiya siyasətini qəbul edib haqqında danışan Cavanşir Feyziyev mərhələli surətdə iri ölkələrin həyatında baş verən təbəllüatları misal çəkir. Bu mənada Fransa inqilabları, Britaniya reformaları örnəkdir. İnqilablar Fransanı didibtökdü, tar-mar edib dağıtdı, xalq üsyanları hər nəsnəni yerinə qoyub, dayandılar. O cümlədən Fransa, Niderland, Portuqaliya, İngiltərə kimi dövlətlər müəyyən qədər imperiya siyasətindən əl çəkdilər. İngiltərə başa düşdü ki, daha Hindistanın üzərinə qoşun yeritmək düz olmaz. Fransa anladı ki, Seneqaldan, Əlcəzairdən əl çəkməyin vaxtı yetişib. Təəssüf ki, bu cür təcrübə Rusiyanı qəflət yuxusundan oyatmayıb. Halbuki, SSRi boyda ölkənin sonda süquta uğraması gərək ilk növbədə varisini oyadaydı. Bəlkə oyanış gec-tez baş verəcək! Gözləyək...

Marşal Yozef Pilsudskinin, vaxtilə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri olmuş Zbiqnev Bjezinskinin, eləcə də Atlantika şurasının Avrasiya Enerji Mərkəzinin direktor müavini Aleksandr Petersonun, geopolit alim Georg Kennanın maraqlı araşdırmaları sübut edir ki, haqqında bəhs etdiyimiz region "çoxtərəfli rəqabətə həmişə açıqdır. Mərkəzi Asiyadan Balkanlara qədər uzanan "türk etnodil və etnosiyasi zonasıdır".

Heç bir hegemonun yedəyində gəzmək Avrasiyaya xeyir gətirmir və üstəlik, Polşanın da "xırdalanıb kiçildiyi" bölgədə digər ölkələr balacalaşdıqca, əksinə, Rusiyanın ərazidə hegemonluğu və dominantlığı artır. Bir sıra güclərin böyüklük iddialarının qarşısını almaq üçün Avropa və ABŞ NATO-nu xeyli gücləndirmelidir.

Əgər balans pozularsa, siyasi meydanda kimlərsə uduzmuş olsalarda, şər qüvvə mütləq surətdə bundan faydalanar ki, bu süni "meydangirlik" yalnız iki qitənin ziyanınadır. Dəyişən və dəyişməz aspektlər isə müasir beynəlxalq siyasətin mürəkkəb xarakterini ifadə edir: fərdlərin dəllal rolunda "canfəşanlıqları" çıxartmaq yox, suyu bulandırmaq deməkdir, çöpü gözdən çıxartmaq yox.

"Beynəlxalq siyasət və beynəlxalq hüquqda birlik yaratmanın əhəmiyyəti, (kitabın IV fəslinin adı) təcrid vəziyyətindən çıxmaq, təklənməmək, dünyəvi qanunlara qoşulmaq məcburiyyəti deyil, qloballaşan ətrafın diktəsidir, inteqrasiyanın təsdiqidir, yaxınlaşmanın, qovuşmanın maksimum təzahürüdür. Müəllif iddia edir: "qloballaşmanın "Türk potensialı" hələlik aysberq şəklindədir. Bu potensialın tam gücündə üzə çıxması isə o deməkdir ki, Türk dünyası özünün məqsədyönlü siyasi iradəsinin məntiqindən çıxış edərək "daxili inteqrasiyasını" qlobal inteqrasiyanın labud prosesinə qoşa bilir". Burada şərt o deyil, kimsə əhəmiyyətli məsələyə tez qoşulub, digərləri geç. Ancaq Azərbaycanın ilk sırada yer alması hamımızı sevindirir və bolqar tədqiqatçısı İvan Palçevin məşhur kəlamını yada salır: "Qafqaz pələngi Azərbaycan qloballaşma hərəkatının öncülüdür".

Türkiyənin Avropada xüsusi yeri və çəkisi var; dünən, srağagün belə deyildi, çünki siyasi arenada bel bağladığı, inandığı ölkə, sözünü qüvvətləndirən, təsdiqləyən qardaş müstəqil dövlət yox idi. SSRİ-nin tərkibində olan nə nəhəng ərazili Qazaxıstan səsini çıxara bilirdi, nə də Qafqazdan Azərbaycanın bu hüququ vardı. İndi isə Azərbaycan istənilən məsələnin həllində Türkiyənin yanındadır. Avropa İttifaqı ölkələri də, Avropa Birliyi dövlətləri də yalnız bu müttəfiqliyə həsəd apara bilərlər. Ankaradan, İstanbuldan söz alan istənilən siyasi liderin nitqində "can Azərbaycan" kəlmələri bitib. Hələ gör, dörd Orta Asiya respublikaları bu miqyası nə qədər genişləndirir. XXI əsr get-gedə türk əsrinə çevrilməkdədir. Bilgə Xaqanın sözü necə də söylədiklərimizi tamamlayır: "Ey türk! Titrə, özünə dön, sən özünə dönəndə böyük olursan!".

Cavanşir Feyziyevin mühüm zərurətdən doğan kitabının ən maraqlı fəsillərindən biri V fəsildir: "Sarsılmaz təməllər üzərində" adlanır. Əlbəttə, "hər binanın bir ustası var"; əgər tarix XX yüzillikdə Mustafa Kamal Atatürkünü yetişdirməsəydi, onu köklü-köməcli Osmanlı taxt-tacına yetirməsəydi, Türkiyə elə həmin əsrin ilk onilliklərində ciddi problemlərlə üzləşəcəkdi, iflasa uğrayacaqdı. Həqiqətən vəziyyət olduqca mürəkkəb idi. Hərb meydanında müsəlman Türkiyəsi təklənmişdi; dörd tərəfdə isə xristian ölkələrin düşmən birləşmələri. Ölkə parçalanacaq həzır yem idi. Bu zaman Türkiyəni silkələyəcək qüvvə ortaya girdi - Atatürkün başçılığı altında türkün yenilməz ordusu. "Ey türk milləti! Sən yalnız qəhrəmanlıq və cəngavərliklə deyil, mənəviyyat və sivilizasiyada da insanlığın şərəfisən" - kimi dahiyanə müdrik sözlər xalqın inamını qaytardı. Böyük siyasətçi diplomatın daha bir fikri o zamankı Sovet Azərbaycanına da çatdı, sosializmin əzdiyi xalqda ruh yüksəkliyi yaratdı:

"Biz bu gün Sovetlər Birliyi ilə dostuq, əməkdaşıq. Amma heç zaman unuda bilmərik ki, orada bizim qan, dil, mədəniyyət qardaşlarımız yaşayır. Və Sovetlər Birliyi bir imperiyadır. Bütün imperiyalar kimi o da dağılacaqdır. Biz hazır olmalıyıq ki, gələcəkdə öz qardaşlarımıza kömək edə bilək".

Biz başqa türksoylu ölkələrin rolunu kiçiltmirik. Bu gün Azərbaycan-Türkiyə birliyi qardaşlıq səviyyəsinə çatıb. Bunun səbəbkarı türk dünyasının fəxri Heydər Əliyevdir. Mustafa Kamalın qoyduğu təməl daşları Türkiyəni ucaltdı. Heydər Əlirza oğlunun hördüyü özül Azərbaycanı dünyada tanıtdı.

Məhz liderlik bacarığı, liderlik keyfiyyəti bu cür şərtlənir. Fakt danılmazdır: "Türkiyə və Azərbaycan dünya türklülüyünün cazibə mərkəzidir. Bu mərkəzin darvazasından başqırd da keçir, tatar da, kərkük türkü də keçir, uyğur da, qazax da keçir, qırğız da, özbək də, türkmən də, eləcə qaqauz da, etnik Sibir türkləri də - şorlar, nanaylar, xakaslar, yakutlar, altaylar və s. Türk xalqlarının Dostluq və Əməkdaşlıq Təşkilatı beynəlxalq qurum kimi daha çox fəaliyyət göstərir, qurultaylar keçirir, uluslararası mədəniyyət tədbirlərinə rəvac verir, diaspor cəmiyyətləri ilə təbliğat işləri aparır. Məqsəd və məram isə birdir: yaxınlıq, dostluq, inteqrasiya. İndi şüurlu bəşər övladı dünyanın gedişatını yaxşı anlayır və bu birliyin nəticəsinin təməlində nələrin dayandığını dərk edir.

Digər tərəfdən iqtisadi rıçaqları möhkəmləndirmək və inkişaf etdirmək lazımdır. Neft-Qaz layihələrini artırmaq gərəkdir. Müasir dövrümüzdə Azərbaycanın birbaşa təşkilatçılığı sayəsində gerçəkləşən TANAR (Trans-Anadolu Qaz Kəməri) layihəsi dünyada analoqu olmayan hadisədir. Bakı-Tbilisi-Ceyhan xəttinin işə düşməsi isə təkcə Türkiyə üçün deyil, bütün Avropa üçün əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Ərzurum neftqaz marşrutu da o cümlədən.






"Türk Dövlətləri Birliyinin Strategiyası" (VI fəsil). Zəmanəmizin aparıcı güc strukturu dövlətləri arasında geopolitik əlaqələr geniş vüsət aldıqca, ümumtürk ölkələri də dinamik inkişafa doğru irəliləyir, daha artıq çılqınlıqla birləşirlər. Türk Dövlətləri Birliyinin (TDB) təkamülü onun sabitliyini və mütəşəkkilliyini göstərir. Türk Geopolitik Regionu formalaşmışdır (TGR), Avrasiyada Qazaxıstandan (ərazicə dünyanın, 9-cu sırada gedən ölkəsi) Türkiyə Cümhuriyyətinəcən qədər ərazini əhatəsinə alıb. Lap bu ərazidən kənarda yaşayan türksoylu xalqların da gözləri bütövləşən regiona dikilib, axı söz yiyəsi əsasən burda məskunlaşan qohum millətlərdir. Başqa məmləkətlərin sərhədləri arasında iqtisadi- siyasi, mədəni varlıqlarını təsdiqləyən etnik türklər böyük ulusun ayrılmaz parçasıdır, hissəsidir, onları diqqətdə saxlamaq vacibdir ki, "balinaların qarnında" xırda balıqsayağı əriməsinlər. Yeri gəlmişkən, Türk Dövlətləri Birliyi ideyası vaxtilə günün mövzusuydu, indi gündə zəbt edən reallıq. Türk coğrafiyasının ölüm-dirim, tale məsələsi. Qədim etnosun özünütapması.

Amma etiraf etmək lazımdır ki, dünya miqyasında ümumtürk təşkilatlanması prosesinə nisbətən gec başlanılıb. Düzdür, ləng davranış qlobal işləri gecikdirir, məsələn, yüz illərdir, xaricdə yaxın-uzaq ölkələrin diaspor fəalları birləşir, mədəni muxtariyyət və milli adlar altında fəaliyyət göstərirlər. Biz isə indi-indi ayılırıq. Əlbəttə, Türk Xalqlarının Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayları, Türkdilli Dövlət Başçılarının Zirvə toplantıları, Dünya Azərbaycan və Türk Hərəkatı ictimai birlikləri, dərnəkləri, vəqfləri, assosiasiyaları ilhamlandırır, məcraya yönəltmək üçün dirçəldir, təbliğatına ara vermir. Sosializm dağılandan sonra xoş xəbərlər artmaqdadır, sabiq sovet məkanlarını kənara qoysaq, Almaniyada, Britaniyada, Niderlandda, İsveçdə, İtaliyada, İsveçrədə, Fransada, okeanın o tayında ABŞ-da, Kanadada türk birlik təşkilatlarının fəallıqları mühüm hadisələrdir. Azərbaycanlıların ciddi cəhdləri, təşkilatlanması misilsizdir. Amerikada İran türklərinin (qan qardaşlarımızın) milliazadlıq uğrunda çarpışmaları vəziyyətin yaxşılığa doğru dəyişdiyinin göstəricisidir. Azərbaycanlı her yerdə birdir: istər iranlı olsun, istər turanlı.

**Qloballaşan cahanda türk birliyinin bütövləşməsi, beynəlxalq münasibətlərin inkişafında Türk Dövlətləri Birliyinin möhkəm rolu danılmaz tarixi köklərə, əsaslara və təcrübəyə söykənir. Dünyada sağlam rəqabəti sevən, üstün xalq kimi formalaşan, mərdi-mərdanə yaşayışa üstünlük verən, dostu darda tək qoymayan qədim türk indi hər cəbhədə müdrikliyini göstərir. Bütün türkdilli, türksoylu xalqların bir bayraq altında birləşməyə ehtiyacı var. Planetin soyuq müharibələrindən qorunmaq naminə, mənliyini, şərəfini həmişəlik qorumaq üçün. Bəli, Türk Dövlətləri Birliyi hamımızın varlığıdır, sabahıdır, gələcəyidir, onun ətrafına sığınmaq - yaşamaq zərurətidir!**

**Ağacəfər HƏSƏNLİ**

### *Stress bu xəstəliyini kəskinləşdirə bilər*

**Güclü və uzunmüddətli stress orqanizmdə gizli qalan herpes viruslarının yenidən aktivləşməsinə səbəb ola bilər. Herpes simplex viruslarının I və II tipləri, eləcə də suçiçəyi virusu ilkin infeksiyadan sonra sinir hüceyrələrində passiv vəziyyətdə qalır və müəyyən hallarda yenidən aktivləşərək səpgilərə yol aça bilər.**

Adalet.az xəbər verir ki, stress zamanı kortizolun səviyyəsi yüksəlir. Uzunmüddətli gərginlik isə immun sisteminin viruslara qarşı mübarizəsini zəiflədə bilər. Nəticədə virusun aktivləşməsi və xəstəliyin təkrarlanması ehtimalı artır.

Bundan başqa, immunitetin zəifləməsi, yuxusuzluq, xroniki yorğunluq, bəzi xəstəliklər, kortikosteroid və kimyaterapiya, güclü günəş şüaları, hamiləlik və 50 yaşdan yuxarı olmaq da risk faktorları arasında göstərilir.

Təkrarlanma hallarını azaltmaq üçün normal yuxu rejiminə riayət etmək, müntəzəm fiziki fəaliyyət göstərmək və stressi idarə etmək tövsiyə olunur. Herpes tez-tez təkrarlanırsa, həkim profilaktik antiviral müalicə təyin edə bilər.

### *Kopyalanmış IMEI kodlarla 1,6 milyon dəfə şəbəkəyə qoşulma cəhdi olub*

**"AZCON Holding" şirkətlərindən olan "AzInTelecom" MMC Azərbaycana gətirilən mobil cihazların saxta IMEI kodlarla qeydiyyatdan keçirilməsinə qarşı mübarizə tədbirlərini davam etdirir.**

Adalet.az xəbər verir ki, görülən tədbirlər çərçivəsində bu günədək kopyalanmış 77 614 IMEI koda "klon" statusu verilərək blok edilib.

Araşdırmalar nəticəsində məlum olub ki, kopyalanmış IMEI kodlarla bu günə qədər 1 613 177 dəfə Azərbaycanın mobil rabitə məkanında şəbəkəyə qoşulma cəhdi olub. Bütün cəhdlərin qarşısı "AzInTelecom"a məxsus Mobil Cihazların Qeydiyyat Sistemi (MCQS) tərəfindən aşkar edilərək alınıb.

Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Mobil cihazların qeydiyyatının aparılması Qaydası"na əsasən, xaricdən Azərbaycana gətirilən mobil cihazların ölkə telekommunikasiya şəbəkəsində istifadə olunması üçün onların IMEI kodları 30 gün ərzində qeydiyyatdan keçirilməlidir. Qeydiyyat prosesini onlayn şəkildə mygov portalında və ya fiziki formada poçt məntəqələrində həyata keçirmək mümkündür.

Mobil cihazların saxta IMEI kodlarla qeydiyyatdan keçirilməsinə qarşı mübarizə həm abonentlərin hüquqlarının qorunmasına, həm də mobil rabitə bazarında şəffaflığın təmin olunmasına xidmət edir. "AzInTelecom" MMC vətəndaşlara mobil telefon almamışdan əvvəl cihazın qutusu üzərində qeyd edilən İMEİ nömrəsini mygov portalında yoxlamağı və etibarlı satış məntəqələrinə üstünlük verməyi tövsiyə edir.



**Mirqiyas SEYİDSOYLU,**
**Polkovnik**

# EDƏMƏM TƏRK, FÜZULİ...

**(əvvəli ötən saylarımızda)**

**Dünəndən bəri, " MƏNGƏLƏNATA " dağının üzərində burula-burula oyalanan qapqara bulud topası, ölmüş ilanın quyruğu kimi titrəyə-titrəyə şimalda " QARAKÖPƏKTƏP "-yə, cənubunda " MURQUZLU " yalına tərəf yayılırdı...**

Xalqımızın milli-mənəvə dəyərlərində, məişətində, adət-ənənələrində, etnoqrafayasında, ictimai-siyasi və mədəni həyatında min illərdir müqəddəsləşmiş NOVRUZ bayramına sanlı günlər qalırdı. Qədim adətlərə görə sabah, 17 mart günü " İlaxır çərşənbə "si qeyd ediləcək. Ancaq, ilk günlərdən ilimiz heç yaxşı başlamadı. DAŞALTIDA baş verən uğursuz döyüş əməliyyatında onlarla döyüşçümüzün şəhid olması, Rusiya Fedarasiyası Silahlı Qüvvələrinin 366-cı Motoatıcı alayının fəal iştrakı və dəstəyi ilə erməni terror-quldur dəstələri Fransadan, Suriyadan, Livandan, Livyadan gətrilmiş muzdlu qaniçənlərlə birgə XOCALIDA köməksiz vəziyyətdə olan, uşaqları, qadınları, qocaları, əliyalın günahsız insanları qətlə yetirmələri, rayonun təmas xəttinə yaxın olan, Yuxarı Veysəlli, Üçbulaq (Hoğa) kəndlərinin işğalı, erməni terror dəstələrinin kəndlərimizə qəfləti basqınları zamanı günahsız ailələrin evinin içərsində alçaldılaraq girov aparılması, ev-eşiklərinin qarəti, yandırılması, Ərazi Özünümüdafiə bölmələrimizin fasiləsiz olaraq düşmənlə mübarizədə şəhidlərin olması, əhali arasında böyük ruh düşkünlüyü yaratmışdı. 1988-ci ilin fevral ayından üzü bəri, elə bil camaatımızın üzərinə qara uğursuzluq pərdəsi çəkimişdi. Bu qara, zolağ son günlər daha da, böyüyür və qəddarlaşırdı.

Ancaq şəhər camaatının qəlbində və düşüncəsində olan inanc qığılcımı bir an da, olsun sönmürdü. Bu qədər ağrıların, acıların, faciələrin, sarsıntıların içərsində adamlar öz əzəmətini qoruyub saxlayır, biri-birinə hər addım-başı həmrəyliy göstərir, səbrli və təmkinli olmağa çalşırdılar. Ancaq, nə qədər üzüntülü də, olsa, inanca görə, adamlar sabahkı ilaxır çərşənbəsini evində-ailəsilə birgə olmalı və bu əlamətdar günü qeyd etməliydilər. Odur ki, bu gün, hamı dükan-bazara çıxmışdı. Həmşəkindən fərqli olaraq bu gün, şəhər küçələrində daha çox əhali var idi. Elçinlə Nərmin də, burada idilər. Uzun müddətdir onlar biri-birlərini görmürdülər. Əvvəlki illərdən fərqli olaraq xeyli böyümüşdülər. Artıq, 14-15 yaşlarında idilər. Həmişəkindən fərqli olaraq Elçin Nərminənin əlindən tutmağa utanır, daha ona Nərmiş yox Nərminə deyə müraciət edirdi. Nərminənin yanında özünü qəhrəman kimi göstərir, yeridikcə tez-tez musqullarına baxır və hər dəfə də gizli-gizli onu süzürdü. Nərminə isə küçədə insanlarla hər üz-üzə gəldikdə elə bilirdi ki, hamı onlara baxır. Bu səbəbdən o, utandığından başını aşağı salıb addımlayırdı.Hərdən də, gözucu Elçini süzürdü. Nərminənin atası Arif müəllim, Bakıda Azərbaycan Dövlət Unversitetdə dekan, elimlər doktoru, professordur. Onlar uzun illərdir ailəlikcə Bakıda yaşayırlar. Elçinin atası Kamal Əhmədovla yaxın də-də-baba qohumlarıdı. Arif müəllim hər il Novruz bayramında QARABULAĞA gələr ata-babalarının və dünyasını dəyişmiş yaxınlarının qəbrlərini ziyarət edərdi. Adəti üzrə onlar bu il də, bayram ərəfəsində ziysrətə gəlmişdilər. Hər dəfə də, öz doğması olan Kamal Əhmədovun yeni Elçin gilin evidə qonaq qalardılar. Ailələr arasında olan səmimi münasibətlər, uşaqlarada yansımışdı. Ona görə uşaqlıq illərində Elçinlə Nərminə arasında yaxın dostluq münasibətləri yaranmışdı..

Onlar mərkəzi univermaqdan çıxıb üzü aşağı Hacı Ələkbər məsçidi tərəfə gedirdilər. Elçin : Nərminə, bu binanı görürsən ?!

Bax bu, bizim Afiqin babası Sirac əminin kitab mağazasıdır. Sirac əmi bura İsmayıl Şıxlının, Əli Vəliyevin, İlyas Əfəndiyevin, Səməd Vurğunun, Rəsul Rzanın, Elçinin, Anarın, Rüstəm İbrahimbəyovun maraqlı əsərlərini, həmçinin xarici ölkə yazıçılardan Şeksprin, Şillerin, Hüqonun, Drayzerin, Tolustoyun, Lope de Veqanın, Fyodor Dostoyevskinin, Drayzerin, Çexovun, Çingiz Aytmatovun, Aleksandr Dümanın kitabları ilə yanaşı vacib olan maraqlı dərslik və dəftərxana ləvazimatları gətirir. Mən, özümə lazım olan bütün kitab-dəftər və ləvazimatları buradan alıram. Gəl bura da, baxaq.

- Nərminə : baxaq. Bəzi ləvazimatlar var ki, Bakıda tapa bilmirəm. Ola bilsin ki, sizin mağazada olar...

Elçin, kitab mağazasının qapısını özünə tərəf çəkərək Nərminəyə buyur, keç içəri dedi.

- Nərminə : çox sağ ol.

Onlar, əvvəlcə səliqə ilə düzülmüş kitab rəflərinə yaxınlaşdılar. Elçin üzərinə " Cümhuriyyət generalları " yazılmış qalın cildli kitabı götürüb vərəqləməyə başladı. - Səməd bəy Mehmandarov Azərbaycan Cümhuriyyətinin Müdafiə Naziri olub. O, 1920-ci ilin martında QARABAĞI özününküləşdirməyə çalışan erməni quldur dəstələrini darma-dağın edib. O, dövürdə Əsgəran qalasında dəli Qazman deyilən bir quldurbaşı olmuşdu. Bax gözünə döndüyüm bu qəhrəman generalımız onu dəstəsi ilə birlikdə məhv edərək, QARABAĞI onların əlindən xilas etmişdi. Həmin dövürdə ermənilər QARABAĞDAN tamamilə qaçıb getmişdilər. Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Leninin, Mikoyanın, Stalinin əlilə ermənilər yenidən bu torpaqlara qaytarılıb. İndi də, deyilənə görə, ermənilər M.Qorbaçovun xanımçası Raisa Maksimovnaya unikal və bahalı brilyant bağışlayıblar. Bax, ondan sora ermənilər elə başa düşdülər ki, bir bahalı brlianta görə QARABAĞI ələ keçrə biləcəklər. Deyə, Elçin acı-acı gülür...

Erməni və havadarları bilməlidir ki, Azərbaycan xalqı son nəfəsinə qədər mübarizə aparacaq və bu torpaqları güzəştə getməyəcək !..

Ümumiyyətlə Lenindən Qorbaçova qədər sovet liderlərinin heç birinin həyat yoldaşı üzdə olmayıb, dövlət işinə qarışmayıb, özlərinə xüsusi status və vəzifə tələb etməyib. Ancaq Raisa öz ötkəmliyi ilə hər fürsətdə " SSRİ-ni ərim idarə edir, ərimi isə mən " deyirdi.

- Nərminə : həm də Raisa Maksimovnanın ermənilərə rəğbəti böyük idi. Yadımdadır ki, 1989-cu ilin dekabrında Ermənistanın Spitak şəhərində baş vermiş zəlzələ ilə əlaqədar " Vremya " xəbərlər proqramı xüsusi reportaj hazırlamışdı. Qorbaçov ermənilər qarşısında çıxış edərkən, erməni əhalinin əsassız iddialar irəli sürdükləri barədə danışanda Raisa Maksimovna ərinə " sən nə danışırsan " mimikası ilə nəzər salmasını hamı gördü. Mən, diqqət yetirdim ki, Qarbaçov dərhal söhbəti başqa mövzuya çevirdi.

- Elçin : indi sən bax də, öz arvadından qorxan, rəzilin biri, SSRİ-ni necə idarə edirdi ?!.

- Nərminə : elə məsələ də ondadır ki, idarə edə bilmədi...

- Elçin : şükürlər olsun ki, artıq Azərbaycan azad və müstəqil dövlətdir. İndi M. Qorbaçovların, Raisaların əlləri bizə çatmır...

- Nərminə: ancaq mən, düşünürəm ki, ermənilərin bizə qarşı olan bu düşmənçiliyinin altında başqa güclər dayanır...

- Elçin: hər nə olursa-olsun gecdir, onlar bizə heç nə edə bilməzlər. Sağlıq olsun hələ mən, mənim həmyaşıdlarım Ali Hərbi Məktəblərə daxil olaq görərsən nələr olacaq...

- Nərminə : mənim də çox xoşum gəlir hərbiçi peşəsindən...

- Elçin : bax mən, sənə söz verirəm ki, Hərbi Məktəbi bitirdikdən sonra mən də Mehmandarov kimi qəhrəman general olacam.

Elçının bu sözləri Nərminədə daxili kövrəklik yaratdı. Ancaq büruzə verməyib susdu...

Elçin başqa bir kitabı götürüb Nərminəyə göstərərək, dedi : Nərminə sən, bu romanı oxumusan ?

- Nərminə : hansı romanı ?

- Elçin, üzəri romantik ilustrasiyalı, iri hərfərlə " GÜLÇN VƏ ELÇİN " yazılmış kitabı ona göstərib, dedi : müəllifi gənc yazar və həm də bizim yerlidir. Azər Xəlqi, valdeynləri XANLAR küçəsində yaşayır. Hələ çox tanınmayıb. Mənə belə gəlir ki, bu əsəri, onu məhşurlaşdıracaq. Romanın süjet xətti müharibədə şəhid olmuş, gənc zabitimiz ELÇİNİN uşaqlıq illərindən sevdiyi qonşu qızı GÜLÇÜNLƏ aralarında olan, sevgi hekayəsindən bəhs edir. Elçin barəsində söhbət açdığı kitabı Nərminəyə tərəf tutaraq dedi : Çox hörmətli, Nərminə xanım, icazə verin, mən, bu kitabı NOVRUZ hədiyyəsi olaraq təntənəli şəkildə sizə təqdim edim. Nərminə gözlənilməz halda ona qarşı edilmiş bu təmtəraqı gördükdə tutuldu. Rəngi qızardı. Nə edəcəyini və deyəcəyini bilməyib susdu...

- Nərminə : çox sağ ol, nə zəhmət çəkirsən.

- Elçin : məni üzürlü say burada olmadığına görə " 8 mart - xanımlar günü " ndə sənə hədiyyə verə bilmədim. Ona gör xahiş edirəm mənim hədiyyəmi qəbul edərdin.

Nərminə : hədiyyəyə görə minnətdaram. Çox sağ ol.

- Elçin : Nərminə səndən bir xahişim də, var. İcazə ver, bu gündən etibarən sən Gülçin deyərək müraciət edim...

- Nərminə : bu haradan ağlına gəldi.

Niyə ki, mənim öz adım var.

- sənin o, adın qaldı, SSRİ-da, indi artıq biz, azad, müstəqil dövlət olmuşuq. İki həftə əvvəl isə yəni, 2 mart günü Azərbaycan BMT- üzv qəbul olundu. Ona görə də, sənin adın qaldı keçmişdə. İndi sənin adın oldu GÜLÇÜN. Ancaq bu bizim öz aramızda qalacaq. Sənə Gülçün adını ancaq mən deyəcəm. Çünki, mənim bu addan çox xoşum gəlir. Deyərək sakit-sakit Nərminəyə tərəf pıçıldadı. Nərminə onun bu təklifindən təsirləndi və rəngi qızardı.

- bilmirəm!

Dedi və başını aşağı saldı. Elçin özüdə hiss etmədən sakitcə onun əlindən tutdu.

- sakit ol, adamlar bizə baxır.

- narahat olma... mənim dediklərimlə razısan ?! Deyə Elçin süzgün-süzgün ona baxırdı. Birdən gözləri Nərminənin baxışlarına toxundu. Hər ikisi yerindəcə dond...

Qapqara qaralmış bulud pənbəsi ilan kimi qıvrıla-qıvrıla şəhərin üzərinə doğru çökürdü. Alaçalpovun şaxtalı sazağı adamı ülgüc kimi kəsirdi. Göy üzündəki qaraltı artdıqca şəhəri sazağ qarışıq qaranlıq bürüyür və burüdükcə vahimə yaradırdı.

Qəflətən, göy üzündə ildırım oynadı, vəhşət yaradan şaqqıltı qopdu, göy gurudadı, qasırğa başladı, birdən-birə küçələrdə insan seli yarandı. Bu insan axını içərsində Elçinlə Nərminə də, vardı. Onlar da, hamı kimi şəhərin şərq istiqamətində qaçırdılar. Kimsə ucadan qışqırırdı ki, erməni quldur dəstələri şəhərə daxil olub. Elə bu səbəbdən məlumatsız insan kütləsi qaçırdı. Ancaq nədən və niyə qaçdıqları anlamırdı. Özünümüdafiə taborunun qurucularından olan, qcaman döyüşçü Asif Şirinov o, adamın üstünə sərtlədi, ay qardaş sən, burada camaat arasında təxribat aparma. Savadsız-savadsız danışıb adamları qorxutma. Cəbhə buyu yüzlərlə əsgərimiz dayanıb. Şəhərə girmək halvadır ??! Nə danışdığından xəbərin var ? Sonra Asif Şirinov uca səslə dedi : ay camaat təmkinli və səbrli olun. Sadəcə olaraq düşmən şəhəri bombalayır. Odur ki, atəş basqını dayanana qədər mədəniyyət sarayının zirzəmisində hazırlanmış sığnacaqlarda gözləyin. Rayonun müdafiə və mühafizəsini təşkil etmiş Ərazi Özünü Müdafiə taborları dərhal həyacan siqnalı ilə ehtiyat bölmələrini postlarına göndərməklə gücləndirmə apardılar. Şəhərin müxtəlif ərazilərində ard-arda partlayış səsləri eşidilirdi. Məlum oldu ki, erməni faşistləri BM-21 (QRAD ) tipli reaktiv artilleriya qurğularilə şəhəri bombardıman edirlər. Təssüflər olsun ki, erməni hərbi-siyasi rəhbərliyi, həmişə olduğu kimi yenə də, qana batmış dişlərini dinc əhalinin üzərinə şaqqıldadırdı. Müharibə qanunlarını və təlimatları pozaraq, qadağan edilmiş BM-21 ( QRAD ) reaktiv artilleriya qurğularından yaşayış məntəqələrinə, müki ərazilərə atəş açırdılar. Düşmən, qəddar-çirkin niyyətilə bazar ərazisini, hərbi komissarlığı və şəhərin digər mülki əhali sıx məskunlaşmış məntəqələrini hədəfə almışdı. Xeyli yaralı və şəhidlərimiz oldu.

Çox maraqlı bir nüans məni düşündürür, erməni daşnakları düz bir ay əvvəl yəni, 16 fevral günü Füzuli şəhərini raket atəşinə tutmuşdular. Yəni bu bir təsadüfdür və yaxud planlanmış hədəf ??!..

Həmin gün Dövlət bankının yaxınlığına düşən raket mərmisinin təsirindən ağır zədə almış FÜZULİ HAVA LİMANININ rəisi Əşrəf Abbasov iki gün sonra xəstəxanada dünyasını dəyişərək rayonumuzun ilk şəhidlərindən oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Amin !

Müxtəlif ərazilərdə inzibati və yaşayış binaları bombardmanın təsirindən dağılmış, yanğınlar törənmişdi. Ay namərd və rəzil düşmən !..

Köstəbək kimi başını torpağa soxub, uzaq məsafədən mülki əhalinin sıx yaşadığı ərazilərə qadağan edilmiş reaktiv raketlərlə hücum etmək heç də qəhrəmanlıq deyildir. Əgər, bacarırsansa, sənə fitva verən havadarlarının dəstəyi olmadan döyüş meydanında qəhrəman Azərbaycan oğullarının qarşısına təkbaşına özün çıxardın. O, zaman sənin saxta və havalanmış " qüdrətini " görərik...

Atəş basqınlarından sonra süku-ta qərq olmuş şəhərin mərkəzində görkəmli şairimiz Məhəmməd Füzulinin böyük abidəsi sanki bir qədər əyilmiş və kiçilmişdi. O, üzgün-üzgün əlini çənəsinə söykəyib fikrə dalmışdı. Deyəsən nanəcib " qonşuların " törətdiyi xəyanətkar əməllər onu sarsıtmışdı.

- şair nədən belə üzgünsən ?!

- şair Füzuli : " Sordum əhvalımı eşqində münəccimlərdən,

Baxdılar tale evinə, dedilər : qan görünür. "

- şair münəccimlər, nədən belə dedilər ?!

Axı, niyə tale evimizdə qan görünür ??!

- şair Füzuli : " Deyil bihudə gər yağsa fələkdən başımə daşlar,

Binasın tişeyi-ahimlə viran etdiyimdəndir. "

- şair, dediklərin doğrudur. Bu gün, başımıza gələn bütün bəlalar, zamanında öz əllərimizlə özümüzə toxuduğumuz xəyanətlərin nəticəsidir.

- şair Füzuli : o, zaman doğma QARABAĞIMIZI yadellilər yandırıb qarət etdikdən sonra dədə-babalarımızı min kilometirlərlə uzaq, susuz səhralara sürgün edibər. Ulu babam deyərdi ki, yadelliləri güclü görüb qaçmadıq. Onlarla axıra qədər döyüşdük. Şəhidlərimiz yaralılarımız oldu. Ancaq geri çəkilmədik...

- şair !

Füzuli kimi dahi sənətkarlar yetirmiş bir xalq, çox keçməz ki, böyük sərkərdələr yetişdirib yağı düşmənlərin layiqli cavabını verəcək !

- şair Füzuli : " Edəmən tərk Füzuli, səri-kuyin yarın,

Vətənimdir, Vətənimdir, Vətənimdir, Vətənim !

**Ərazi Özünümüdafiə taborlarının komanda heyəti, xidmət rəisləri mayor Rasim İbrahimov, kapitan Mobil Yusifov, kapitan Elxan Yusifov, kapitan Tariyel Qəhrəmanov, kapitan Hamlet Babayev, kapitan Asif Şirinov, leytenant Namik Mehdiyev, leytenant Səməd Əbilov, polis polkovnik-leytenantı Binnət Məmmədov, polis kapitanı Ramiz Ağayev, rayon müdafiə şurasının üzvü Şakir Abbasov, rayon İcra Hakimiyyətinin əməkdaşları, digər vəzifəli hərbiçilər, rayon polisinin məsul zabitləri törədilmiş atəş basqını ilə əlaqədar müdafiə mövqelərində qoşun xidmətinin düzgün təşkili, hərbi qulluqçular arasında ayıqsayıqlığın artırılması, hərbi intizamın möhkəmləndirilməsi, minalanmış sahələrin formulyar sxemlər üzrə qorunması, atəş sisteminin düzgün qurulması işinin təşkilinə nəzarətin artrılması məqsədilə ön xəttdə müdafiə tapşırığı yerinə yetirən bölmələrdə təftişə başladılar. Təftiş- yoxlama komissiyası gün ərzində apardığı yoxlamalar zamanı məlum oldu ki, rayonun Yuxarı Divanallar kəndində təşkil olunmuş müdafiə mövqelərimizdə daha çox atəş basqınlarına məruz qalmaqla yanaşı həm də, düşmənin terrorçu dəstələrinin nalayiq hərəkətlərilə üzləşirlər. Təftiş komissyası müdafiə postunun heyətinə təmkinli və səbrli olmağ barədə göstərişlər verdi.**

**(ardı var)**

**ALLAHVERDİ EMİNOV**



# Şairə Nəzakətin lirikası barədə düşüncələrim

**Esse**

*Sarı çiçəyinə qonmuş sübh şehi,*
*Soyuq illər dolu çatarmı ömrüm?*
*Telimi oxşamaz bir də yaz mehi,*
*Görəsən bəs qışa çatarmı ömrüm?*

**M.Nəzakət**

**Şairi şəxsən tanımağa, ünvanını axtarmağa dəyərmi? Məncə, buna ehtiyac duymuram - əgər o, şairdisə... Ona görə ki, şeir faciəvi janr olub, əzabın, qan-tərin, ilhamın hesabına başa gəlir, hər sətri, hecası, qafiyəsi, rədifi yerində oturur, şair nanəsini, zəfəranını vurur, dada gətirir. Beləcə doğulur, şair təxəyyülündə oxucu süfrəsinə gəlir, oxunur, zövqü dada gətirir. Mən şeir anlayışını belə bir obrazda görürəm. Mən belə bir axtarışda şairə Məmmədli Nəzakətin ünvanını yox, poeziyasını tapdım, onun şöhrət tacına, mövqe və varlıq faktoruna yiyələnməsinə inandım. M.Nəzakət xanımın poeziyası (böyük hərflə) mənə nə verdi? - Sualına cavab axtardım: həyatı duymaq, insanlara etibar etmək, təbiətin hər bir nemətindən faydalanmaq! İnsan yaşadığı həyatı anlayanda əhvalı sakitləşir və sabitləşir, dinclik tapır. Ürəkdə dinclik olanda həyatın qəribəliyi ona əyləncə kimi görünür. Nəzakət "Həyatı möcüzə bilək" şeirində həyata üz tutur:**

*Həyatın qəribə qanunları var,*
*İnsanı oynadır oyuncağı tək.*
*Hərdən üzümüzə gülüş də qonar,*
*Hərdən də yandırar od - ocağı tək,*

- deyir

Həyat məhz bu "möcüzəsiylə" İnsanı ağlada bilir, necə ki, şairə bu həqiqətdən ağlamışdır, hansı səbəblərdən? Ana sevincindən, oyuncaqları qırılanda, ürəyinin yağı əriyəndə, şəhid xəbəri gələndə, atanı məzarlığa aparanda... Amma şairəsə ağlatmamışdır. Çün, qadın ürəyi belə olur. O, Ayın dövrəsində yanıb - sönən, hansı boşluğasa axan ulduza da bir tale hikməti kimi baxır, öz taleyini görür. Çün, qadın ürəyidir:

*Göydən bir ulduz da axdı bu gecə,*
*Qarışdı gecənin qaranlığına.*
*Ömrüm başa vurdu o da beləcə,*
*Çatmadı səhərin aydınlığına.*

Bəlkə də axan ulduz kiminsə bəxt ulduzu imiş? Bəxti gətirməyən kiminsə?

Həqiqətənmi şeir aləmi belə möcüzələrin beşiyidir, misralar lay-lay çalır, oxucunu sərməst edir? Mən Nəzakət xanımın - istedadlı şairənin poeziyasını oxuyanda bilmirəm hansı şeirlərinin adını çəkim, "Dərd", "Payız", "Ömrüm", "Qar yağır", "Tənha qadın", "Dünya", "İlk məhəbbət" kimi unikal şeirlərimi? Bu və digər şeirlər oxucusu ilə həmsöhbət olur, danışdırır, qüssələndirir, sevindirir. Adi predmetləri poetik obraza bükür. Şairənin bir şeiri var: "Bənövşə". Klassik poeziyamızda bu zərif və küsəyən gül rəmziləşmişdir:

Vaqif, Zakir, Aşıq Ələsgər, Osman Sarıvəlli, Səməd Vurğun şeirində bənövşə həyəcanından qar altından yanan kosov kimi Günəşi axtarır. Şairə Nəzakətinsə öz bənövşəsi var.

*Bahara ilk könül verən sən oldun,*
*Kolların dibində bitdin, bənövşə.*
*Baharsa könlünü çox gülə verdi,*
*Gül-çiçək işində səndin, bənövşə.*

Nəzakət xanımın poetik dünyası məni başqa bir aləmə səslədi. Pəncərədən yaşıllığını saxlayan Zeytun bağını süzür, quşların ora - bura vurnuxduqlarına tamaşa edirdim. Onlardamı günəşli fəzada nəyisə axtarırdılar? Bəlkə də?! Mən isə istedadlı bir şairin poetik misralarının atəşindəydim. Axı, şeir ilk misrasından son sətrinəcən ruhdur, ruhi təzahürdür. Axı, poeziya - şeir heyrətin və təntənənin, ağıl və fəhmin qiyamıdır.

Şeir aləmi qəribə bir fenomendir: həyatın predmetlərini görüb duymaq və qavramaq; müşahidə etdiyin sadə və mürəkkəb fəlsəfəsini anlamaq və mənimsəmək; daxili hisslərin mübhəm pıçıltısını eşitmək və səs vermək. Belə "üçlüklər"in içərisində daha bir "üçlük" də mövcuddur: Şeiri kim yazır, nədən yazır və kim üçün yazır?! Oxucuya bu məqamları açmaq çətindir nə qədər dərinə varsan da, uzağı poeziyanın nəzəriyyəsinə və qayda - qanunlarına çıxacaqsan... Amma bu xaotik proseslərdə mənim diqqətimi bir nüans özünə yaxınlaşdırmışdır nə qədər qəribə olsa da: Müəllifi kişidirmi, qadındırmı? Amma sual da göydəndüşmə deyil. Kişi şairin şeir subyektinə münasibətilə qadının yanaşma və tərənnüm tərzi fərqlidir, çünki duyum hissiyyatı kişi şairdə daha aqressivdir, xarakterdən gəlmədir, əgər, o, Koroğludan, Qaçaq Nəbidən yazırsa diqqət qəhrəmanlığın, igidliyin mahiyyətinə yönəldiləcəkdir, qadın da Koroğludan, Qaçaq Nəbidən yazarsa Nigardan, Həcərdən, onların gözəlliyindən və sədaqətindən yan keçməyəcəkdir! Şeir mənim zövqümdə sevməkdir, bu hiss qadınların payına daha çox düşür və əlavə edərdim: Şeir şairələr üçün dəlicəsinə sevməkdir! Sevgini, gözəlliyi, aşiqliyi şair tamam başqa bir yönümdən təsvir edir - xasiyyətindən gələn cizgilərilə, şairə haçansa yaşadığı, bəslədiy bu "üçlüyü" n içindən ehtiyatla keçirir, oyatmaq istəmir, hər misrası onun saçlarından işıq teli kimi asılır. Ömrünün yalnız həzin, bəlkə də solan - saralan çağını anır, çün bir qadın olaraq ölümün qarşısına qılıncla çıxa bilməz! Xatırlayıram: nə vaxtsa Nəzakət xanımın bir şeirini oxumuşdum. Misraları hələ yaddaşımdan silinməyib.

*Saralmış yarpağa bənzəyir ömrüm,*
*Sanki payız gəlib, xəzan düşübdür.*
*Durub əl açmışam bahara sarı,*
*Sıxıb əllərimi qış görüşübdür.*

*Sarı çiçəyimə qonmaz sübh şehi,*
*Telimi oxşamaz bir dəryaz mehi,*
*Görəsən bəs qışa çatarmı ömrüm7*
*Qışdır son mənzilim, qışdır, ay gülüm.*

Bu kiçik şeiri nümunə gətirməkdə təsadüflük axtarmaq əbəsdir; amma ömrün haçansa dayanacaqda susması isə təsadüfi deyil - mütləqdir. Bu şeirdə, düzü elə öz ömrümlə müqayisə edərdim: kövrək münasibətimi xatırlatmazdım oxucularım üçün, başqa bir ovqatda hayqırardım, pıçıldamazdım, "ay gülüm"ə ümid bağlamazdım - axı təbiətimiz sərtdir!

Poeziya mənimçün ilahi və sirli kədərdir, sevincdən ona bir ovuc pay düşübdür, əks halda şeir yazılmazdı. Hansı kədərdir, harada gizlənibdir, onun oyanma şansı varmı? Sualları bu yazımda verəcəyimi düşünmürdüm, bax, bu təsadüfi oldu; bəlkə də zərurət idi. Nəzakətin "Etüd"ünü oxuyanda çox-çox düşündüm, nikbinliyimi unutdum və bayaqkı etirafıma qayıtdım: "mütləq"lik fəlsəfəsinə və S.Vurğunu, M.Arazı, M.Yaqubu xatırladım. Bu korifey şairlər həyatın şirinliyini necə yaşayıblarsa, bu şirinliyin nə vaxtsa acısını dadmalı olacaqsa... şeirə üz tutdular, məzarstanla üzbəüz dayandılar və Səməd Vurğun "Unudulmuş tək məzarı" qələmə aldı. Nəzakət bu üç şairdən çox-çox cavandır, şeiri də gənc yaşında yazmışdır, amma dərin kədər duyğularından qaça bilməmişdir, məkanı görmüşdür:



*Pəncərəm açılır qəbirstanlığa,*
*Gördüyüm mənzərə gözümə batır.*
*Məəttəl qalıram uca Tanrıya,*
*Alimi cahillə yanaşı yatır.*

Şeir məndə assisiativlik oyatdı: bir zaman (1979-1984) doqquzuncu mərtəbədən, iş otağımdan məlum məkana - qəbirstanlığa hey baxmışam. Əvvəllər seyrəklikdi, qara mərmər daşları bir-birinin qonşuluğunda idi, ruhları qovuşurdu. Sonralar qəbirstanlıqda boş yerlər azaldı. Çün bu elə məkandır bütün "qonaqları"nı səxavətilə qəbul edir, torpağını əsirgəmir, kimliyilə maraqlanan, sorğu - suala çəkən yoxdur.

*Burda soruşmurlar kimsən, nəçisən,*
*Möminsən, canisən, ya dilənçisən.*
*Cərgəyə düzülüb sakit qəbirlər,*
*Burda heç bilmirsən sən neçəncisən.*

*Kasıbı, varlısı bilinmir burda,*
*Özü öz xoşuna gələni yoxdur.*

*Libası eynidir hər kəsin burda,*
*Axsa göz yaşları, siləni yoxdur.*

*Ömürlük sakindir bu son mənzilə,*
*Adı əməlində yaşayan kəslər.*
*Dünən bir haqq işi tərsə çəkənin*
*Məzarı hər kəsi düzlüyə səslər.*

Şeirdə şairə ölüm anlamının adını çəkmir, ehtiyac da yoxdur, lakin bu yoxluğa aparan həqiqətin fəlsəfəsi var və məndə sual doğurdu: Ölüm - müəmmanı açan olmuşmu? Ən kamil və müdrik insanlar öz ölümünü qabaqcadan duymuşsa, səbəbini açmaqda aciz qalmışdır. Məhəmməd İbn Kab əl Kurazi nəql edir ki, bir zamanlar Ömər bin Əbdüləzizlə Mədineyi Münəvvərdə qarşılaşmışdım. O, bığ yeri yenicə tərləmiş idi, bolluq içində yaşayırdı. Daha sonra xəlifə oldu və yanına getdim. İzn istəyib içəri girdim. Onu görəndə təəccübləndim, üzünə mat - məəttəl baxdım. O, mənə dedi ki, ey Məhəmməd, nə üçün belə heyrətlə nəzər yetirirsən?

Mən ona çatdırdım ki, ey möminlərin əmiri, rənginiz solmuş, bədəniniz taqətdən düşmüş, saçlarınız ağarmışdır. Sizi bu halda görəndə heyrətimi gizlətməyi bacarmadım.

Ömər bin Əbdüləziz mənə üzünü tutub dedi: - Ey Məhəmməd, məni qəbrə qoyulandan üç gün sonra görsən kim bilir nə qədər təəccüblənəcəksən? O zaman qarışqalar gözlərimi çıxarmış, ağzım, burnum qanla dolmuş olacaq, məhz onda məni heç kəs tanımaz, daha çox heyrətlənərsən. Bu hədis təkcə ölümün hikmətini yada salmır, insan xislətinin ziddiyyətlərinə və mürəkkəbliyinə işarədir. Ey insan, məzarstanın yanından saymazyana keçmə, orada öz yerini gör! Təəssüf ki, bu müqəddəs hissi bir qrup adamlar yaşamaq istəmirlər, yaxud bacarmırlar. Ona görədir şairə Nəzakət poetik ideyasında haqlıdır.

*Cavanın tər ömrü yarımçıq qalıb,*
*Bu qoca nə qədər yaşayıb, Allah?!*
*Ömür də deyəsən, düz paylanmayıb,*
*Bağışla, İlahi, eylədim günah.*

Mən Nəzakət xanımın poeziyasına bələd olduqca düşünürəm ki, istedad payında onun "ölü" şeir yazmağa haqqı çatmır, çün o, öz obrazını axtarıb tapır və bir üstünlüyü də ondadır ki, Şərq təfəkkürü ilə Qərb poetik yanaşmanı birləşdirir, emosional və rasional düşünür. Nəzakət xanım "dünya", "insan", "tale" subyektlərinə özünəməxsus tərzdə yanaşır - bu şeirin məzmunu məsələsidir, intellektualdır; digər tərəfi obrazlı deyimin harmoniyasıdır; üçüncü ruhi enerjinin paylanması aktıdır ki, sonuncuda poetik kansofka - fikir dayanır. Mən şairənin poeziyasında bir nüansı özüm üçün aydınlaşdırdım ki, mövzunun epik təsvirinə yeri gələndə ehtiyac qalmır, elə bir bənd də bəs edir.

*Dözməkdən bezmişəm, ruhum ağrıyır,*
*Həzrəti İsa tək sanki dardayam.*
*Bəxtim yatan yeri tapdım, oturdum,*
*O vaxtdan bu vaxta hələ ordayam -*

Ruhun fenomenliyi, candan bezməsi, artıq ömürdüsə - mütləq zamanı gözləmək. Və: assisiativ düşüncə bağlılığı: ölümün gəlişinə geniş yer verməyə dəyməz, özünü tez çatdırır, yaxşısı budur, ona hazır olmalısan:

*Ölümün gözünün içinə baxdım,*
*Ölümü hər anın özündə daddım...*
*Necə qəribədi, ölümdən qaçıb,*
*Ölümə gedirəm hər an bir addım -*

İnsanın öz aqibətini sezmək fəhmi, hansı ki o, öncə, aqibətini anlamalıdır - son nəfəsi necə olacaq, bir həyatında nələrlə qarşılaşacaq, axirətdə hansı məqamda olacaq? İnsan üçün ən məchullar bunlardır ki, hələlik cavabsız qalmışdır, daha doğrusu qundaq ilə tabut arasındakı məsafənin sirrini, bu dünyaya gəlişini və buradan axirətə köç eləməsinin hikmətini qavraya bilmək. Bəli, hər bir insan fanidir - ölümə məhkumdur. Şairənin məntiqi - bədii praqnozu təxəyyülün yalnız müəyyən vəziyyəti olmayıb, eyni zamanda insanın fəaliyyət formasıdır. "Dünya", "Ey dünya" şeirlərində müəllif üzünü bu real Dünyaya tutur, bir qədər nəsihətçiliyə varır, amma gileyini gizlətmir, lakin bu üztutmanı Nəzakət xanım qadın hissiyyatı ilə çatdırır, kəskin də deyərdi "amansız dünya"ya, "qaradan ağı seçmə"yən, bu, bir yana - şairəni yormusan - nə üçün?

*Yormusan, yamanca yormusan məni,*
*Sən demə, bitməzmiş zülmün, zillətin.*
*Arzumun dalınca qaldı gözlərim,*
*Yolların daşlıdır, yüyürmək çətin.*

*Sən elə beləsən başdan, binadan,*
*Bilirəm? Heç kəsə qalan deyilsən.*
*Sonuma gedirəm hey addım - addım,*
*Bilirəm, mənim də olan deyilsən.*

*Yaş olub gözündən düşənə kimi,*
*Əlindən nə çəkdim, biləydin barı.*
*Bir gün üz döndərib, üzündən sənin,*
*Çıxıb gedəcəyəm göylərə sarı.*

Mən Nəzakət xanımın şeirlərinin cövhərinə vardıqca, mühüm poetik mətləblərlə üzləşdim: ağrı və sevinc, vüsal və həsrət, inam və pessimizm, bir-birini rədd edən və tamamlayan motivlər. Bu atributlar olmasa şeir yazılar, ancaq yaddaşa hopmaz, ona görə ki reallıqlarla uydurmalar təsvir predmetinə can vermir. Bu baxımdan poeziya - həqiqətlərin və yalanların emosional - əqli doğuluşunun, şairin fərdi - özəl üslubunun təzahürüdür. Lakin bu üslubda başqa şairlərə bənzəməyən həzinlik, pıçıltı, nigarançılıq oxunurdu, elə - belə misraların gəlişi deyil, ilhamın diqtəsidir. Belə şeirləri təkrarən oxuyası oldum, kövrəldim, vərəqi çevirdim, amma tabım çatmadı: "Bilmir insan", "Göydən bir ulduz axdı", "Getmisən", "Qar yağır", "Bənövşə" şeirləri bu etirafımı diriltdi. Nədir misraların hökmü? Hökmümü? Şairənin sünilikdən uzaq istedadımı? Hər üçü və dediyim əlavələri. "Bilmir insan"ı mənə dahi hind şairi və mütəfəkkiri R.Taqorun "İnsan" şeirini xatırlatdı. Nəzakət xanım yaşamaq ehtirasının tükənməzliyinin şahidinə çevirir oxucunu - Məni!

*Bir gün dönüb geriyə bu günü axtararsan,*
*"Ömür necə keçdi gör", - özünü danlayarsan.*
*Nə zamana ün çatar, nə də ötən çağlara,*
*Təkcə boylanmaq qalar itirdiyin anlara.*
*Gözəlliyi, gəncliyi aynada axtararsan,*
*Saralmış şəkilləri gözünlə oxşayarsan...*

Bax, bu yerdə qələmi saxladım, barmaqlarımın titrəməsindən ehtiyatlandım, ürəyim dolmuşdu, bu hiss nəydi, haradan hisslərimi tutmuşdu - deməkdə çətinlik çəkirəm. Həqiqətmi bir gün? Bəlkə həqiqət deyil?

*İnana bilmədiyim ölümə rast gələrsən,*
*Soyuq daş məzarlara atam - anam deyərsən.*
*Övlada qanad verib, bir quş tək uçurarsan,*
*Yolların yorğunluğun nəvələrdən alarsan...*

Yaman yaşa doldum, şairə! Bu unikal misralarını oxumasaydım bəlkə də özümə təsəlli verərdim. Bir də fəhmə bax ki, sübh tezdən bu şeirini oxuyanda vaxtilə yatdığı babasının çarpayısında Nəzrin nəvəm yatmışdı, astaca o otağa keçdim, ilahi görəsən bütün uşaqlar beləcə qəmsiz - kədərsiz uyuyurlar? Uşaqlar hardan bilər ki, ataları, sonra babaları cavanlığını onların uşaqlığına bağışlayıb yaşa dolurlar.

*Zamanın "sığal"ıyla qara saçın ağarır,*
*Səni yaradan Tanrı öz yanına çağırır.*
*Ümidin yaxasına sarılıb sən gedirsən,*
*Nələr gözləyir səni, bax bunu bilməyirsən.*

Bax "bilmədiyin" o tale hətta şair qapısını döyür, özü gizlənir Əcəl atını göndərir ki, minib məchul aləmə gedəsən. Nəzakət xanımın vaxtsız itirdiyimiz Alim Məhərrəmliyə həsr etdiyi şeiri məni ağrıtdı, tez-tez görüşdüyüm gəncin bir gün yoxluğuna inandım. Ölümündən sonra "Kür-Araz" dərgisində qələm dostumuz Əlirza Sayılovun çap etdiyi xeyli saylı şeirlərini xatırladım. Böyük istedadın poetik misraları məni kövrəltdi. Nəzakət xanım "Getmisən"lə sanki onu qaytardı.

**(ardı var)**







# Canım-gözüm, ömür elə budur, bu!



Əjdər Ol

## Ömür

Ağrılara, əzablara darılma,
Öz işindən bərk-bərk yapış, yorulma,
Çalış ölmə, çalış itmə, vurulma,
Canım-gözüm, ömür elə budur, bu!
Tale, qismət deyirdin ha, odur bu!

Yağlı vədlər, yaman "ayır-buyur"lar,
Demə mənə nə ad, nə san qıyırlar,
Tez artmağa axı kimi qoyurlar?!
Canım-gözüm, ömür elə budur, bu!
Yarışmağa meydan budur, cıdır bu!

Adamsan də, incidərlər adamı,
O dünyadan haraylama atanı,
Alan yoxsa, dur özün al qadanı,
Canım-gözüm, ömür elə budur, bu!
Dadına bax, gör nə şirin dadır bu!

Neynəsən də, hər gələn gün xoş olmaz,
Adam gedib ağlağana qoşulmaz,
Fors eləmə, dünya sənsiz boşalmaz,
Canım-gözüm, ömür elə budur, bu!
Səni, məni diri-diri udur bu!

Keçmək olmur payızından, yazından,
Üzülürsən bir gözəlin nazından,
Əşşi, yüz yol mən demişəm azından,
Canım-gözüm, ömür elə budur, bu!
Ürəkdə od, gözümüzdə sudur bu!

Hər istəkdə, hər diləkdə düyün var,
Nə istəsəm, olmasa da, deyin: "Var!",
Əjdər Olsan, kimsən, boş hay-küyün var,
Canım-gözüm, ömür elə budur, bu!
Adəm budur, Nəbi budur, Xıdır bu!

## Allah qoysa...

Maşallah alnımın qırışı artıb,
ağ saçı özümə yaraşdırıram.
Ağrı, əzab verir qurban olduğum,
mən ondan ömür-gün quraşdırıram.

Vallah, ürəyimdən xeyli razıyam,
hərdən ağrısını kəsir, sağ olsun!
Bir böyrü üstə də keçinmək olar,
təki adam kimi yaşamaq olsun!

Belə gəzirəmsə, axtarıramsa,
bir gün itkinimlə tapışacağam.
Bir işim inşallah, başa gəlməsə,
gedib başqasından yapışacağam.

Şükür, dərdlərimi yaxşı çəkirəm,
mən bilən, əzaba dözərəm yenə.
Allahın yanında hörmətimə bax,
həyat hər üzünü göstərir mənə.

Aman verməsələr əl tərpətməyə,
əli ağ, ürəyi çat-çat olaram.
Nə olsun, ömrümdə dinclik görmədim,
ölüb, allah qoysa rahat olaram!

Nə Kəbə daşına sürtdüm üzümü,
nə tövbə elədim, nə də and içdim.
Gördüm doymayacaq gözüm dünyadan,
özümü tox tutmaq yolunu seçdim.

## Mən

Əzabı mən elə gözəl çəkirəm,
Çəkdiyim əzabdan heç kəs usanmır.
Özüm öz başıma sığal çəkirəm,
Məndən söz düşəndə söhbət uzanmır.

Dərd məndən əlini büsbütün çəkib,
dərdi sonalayıb, qəmi seçirəm.
Əzabın altından pis tütün çəkib,
üstündən şipşirin su da içirəm.

Ağrıya, əzaba qənim ürəyim,
hamını yatırdıb gecə ağrıyır.
Bircə mən bilirəm mənim ürəyim,
hərdən həzin-həzin necə ağrıyır.

Təmkinim elə tez pozulmaz, atam,
çox da iş pozulur, saç yelən salır.
Xoşbəxt günlərində quduran adam,
dərdə düşən kimi vay-şivən salır.

Başdan eləyirəm, başdan əkirəm,
kim doğan səhərə şükür eləmir.
Əzabı mən elə gözəl çəkirəm,
bir kimsə dərdimdən fikir eləmir.

## Qorxma!

Qorxursan qəfildən yağan yağışdan,
Zülmət gecələr də qorxan yerindir.
Qorxursan naqolay sözdən, baxışdan,
Səni qorxudan da sənin birindir.

Deyirsən, gizlətsən ağrı-acını,
Aralar qarışmaz, bulanmaz sular.
Əkmirik Allahın qoz ağacını,
Deyirsən düşəri-düşməzi olar.

Keçər düşər-düşməz, solar hər baxış,
Qara geyim də gey, səbrdən də keç.
Bilirsən nə deyir hər qəfil yağış,
Qorxma, ovcunu tut, bir qurtum su iç!

## Yaz

Qış vaxtından qalan bulud,
Keçdi yazın tərəfinə.
Soyuqlayan qoca palıd
Keçdi yazın tərəfinə.

Oyanıb qış yuxusundan
Ayı çıxdı kahasından,
Qış əl çəkdi yaxasından
Keçdi yazın tərəfinə.

Tumurcuqlar budaq üstə,
Qaranquşlar dəstə-dəstə,
Qarı nənəm xəstə-xəstə
Keçdi yazın tərəfinə.

Gün gördü çox geyməyimi,
Gözlərimi döyməyimi,
Çıxartdı yun köynəyimi
Keçdi yazın tərəfinə.

* * *

Qollarım bir cüt kəndirdir,
yüz düyün vurun, açılar!
Bağlıdırsa haqq qapısı,
qapanı qırın, açılar!

Qismətimə qış düşəndə,
Qarı bir qarış düşəndə,
Üzümə qırış düşəndə
qəlbimdə şırım açılar.

Həm zorun var, həm də zərin,
Allah, ölsəm, nədir xeyrin,
Tutular bir qəbir yerin
bir adam yerin açılar.

* * *

Əjdər Ol da çox döşünə döyməsin,
onun da sözünü yerə salarlar.
Bir gün dönük çıxar dost dedikləri
ürküdüb kürkünə birə salarlar.

Nə səsi, nə də ki küyü artıqmış,
Bir az çalışmağı, səyi artıqmış,
Şərə düşənlərdən nəyi artıqmış,
heç nədən şərləyib şərə salarlar.

Dəyişər zəmanə, qarışar ara,
Qoyular avara, üzü divara,
Düşər hörümçəklər toxuyan tora,
dərdlilər yanında mərə salarlar.

## Könül vuruşu

Könlümü vuruşa çıxarmışam mən,
Səf-səf, qoşun-qoşun kədərlə, qəmlə.
Mənim ürəyimin hər döyüntüsü,
təzə bir hücumdur, yeni bir həmlə.

Bütün vuruşlardan uzundur, uzun,
bu saat, bu fəsil, bu il vuruşu.
Dönük zəmanəmlə aramızdakı
könül vuruşudur, könül vuruşu.

Mənim ürəyimin döyüş marşı var,
hər an eşidirəm, hər an o marşı.
Belə vuruşmayıb İmamsöyün də,
bir könül milyona, milyarda qarşı.

Mənə gələn zərbə özümə dəyib,
onu qardaşıma ötürməmişəm.
Bircə bayrağım var, döyüş bayrağı,
yanımca ağ bayraq götürməmişəm.

Yerindən oynayıb, yurdundan olub,
qəlbin sevən yeri hara bağlıdır?
Bədənə-çadıra sığışa bilmir.
elə bil qaçqındır, qarabağlıdır.

Mən öz ürəyimə yaxşı bələdəm,
döyüşər döyüşün sonuna qədər.
İnsanlar, mən sizin aranızdayam,
günəşli qiyamət gününə qədər.

## Gizlənən

Baxmadı heç umana,
Dağ büründü dumana.
Duman qaldı gümana,
Qaya məndən gizlənir.

Arı keçir balından,
Kəpənəklər xalından,
Biri dönür yolundan,
Guya məndən gizlənir.

Gah çiçək arxasında,
Gah mələk arxasında,
Gah böcək arxasında
Dünya məndən gizlənir.

## Ürəyin

Zoru sevmir, onu zora salmayın,
Ağlamadır, qara-qura salmayın,
İncitməyin, ora-bura salmayın,
Dilmancıyam gözləri nəm ürəyin,
Gup-gupunu çevirirəm ürəyin.

Bir ömürdə bircə çimir almaz o,
Biz yatarıq, öz işindən qalmaz o,
Nə qocalmaz, nə də yaşa dolmaz o,
İlk sevgindir hər yaşında ürəyin,
Dad-tamı var göz yaşında ürəyin.

Dolu qandır, qan-qan deməz, dedirtməz,
Ona qalsa, haram yeməz, yedirtməz,
Elə bilmə dediyini yeritməz,
Qırılanda ağrısı var ürəyin,
Hara çəksən, doğrusu var ürəyin.

Baxan deyil işarəyə, him-cimə,
Titrədimi, toxundumu sim simə,
Başlayacaq dodaqaltı zümzümə,
Həzin-həzin mələyəcək ürəyin,
Bildiyini eləyəcək ürəyin.

Mən bir ürək quruluşu qurmuşam,
Canla-başla qulluğunda durmuşam,
Bu köhləni çox dişimə vurmuşam,
Mənnən sözü yaxşı tutur ürəyin,
Üreyindir sinəm cıdır, ürəyin!

## Qəmciyəz

Xoş gəlmisən, qəmciyəz,
Nə deyirəm mənciyəz.
Qəmin içiyi olmaz,
Böyük-kiçiyi olmaz.
Sərçə kimi donmusan,
Əllərimə qonmusan.
Qəmlərimə gəl qoşul,
Mənim gözlərim yaşıl,
İsti qanıma buyur!
Yarı canıma buyur!
Mən səni tək qoymaram,
Gözlərindən doymaram.
Bit dilimin ucunda,
Saqqalımda, saçımda,
Dən sağlığına qismət!
Mən sağlığına qismət!

## Xoşbəxt

Xoşbəxt günlərim olub,
anlarım olub,
Xoşbəxtliyi üzümdən
oxuyanlarım olub.
Xoşbəxtlik qəfildən gəlir,
qəfildən gedir.
Hər nədirsə, tez əldən gedir.
Yoxsa, necə olar,
deyəsən:
Bütün işlərimi
sahmana salıb,
xoşbəxt günlərimi yaşayım.
Belə olanda
Mən söhbətə hardan başlayım?
Xatırlayanda da xoşbəxtəm,
arzulayanda da.
Bəzən xoşbəxt-xoşbəxt işləmişəm.
sevgimi xoşbəxtlik bilmişəm.
Bəzən xoşbəxtlikdən
ürəyim ağrıyıb həzin-həzin.
Bəzən ondan qaçmışam,
Bəzən ona sarı sürünmüşəm
dizin-dizin.
Nə pis günümdə özümü itirmişəm,
nə yaxşı günümdə.
Odur ki, elə həmişə
bəxt quşu olub çiynimdə.
Ən dərdli adamı da
ən azı bir an
xoşbəxt edərəm indi.
Bu saat tam,
Könlümdən arxayınam!

# Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 32 (2504) 28 avqust 2026-cı il

**Heç bir gənc birdən-birə yüksək inkişaf mərhələsinə çata bilməz. Həmin gəncin kamil, müdrik bir insan kimi yetişməsi üçün heç şübhəsiz, müəyyən zaman kəsiyinə ehtiyacı var. Və bir də onu qeyd edək ki, öncə gənclərimiz bir məktəb keçməlidir. Bu məktəbin adı tərbiyə, əxlaq və milli-mənəvi dəyərlərdir. Bəs, bu tərbiyəni gənclərimiz harda almalıdır, harda yetişməli və harda mövqe tutmalıdır?**



# GƏNCLƏR VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏ EDİLİRSƏ...



Təbii ki, bu suala birmənalı cavab vermək çətindir. Ən azından ona görə ki, hər bir gəncin öz həyat tərzi, öz ailəsi və düşdüyü bir mühit var. Başqa sözlə demiş olsaq, həmin gəncin əsl vətəndaş, milli və mənəvi dəyərlərə yiyələnməsi üçün hər şeydən əvvəl sağlam, mənəvi cəhətdən milli ideologiyaya uyğun tərbiyə edilmiş və püxtələşmiş ailəsi olmalıdır. Yəni hər şey ailədən, onun əxlaqından, dünyaya baxışından, milli və bəşəri dəyərlərə nə dərəcədə sahib olmasından asılıdır.

Əgər ailədə dediyimiz bu elementlər, bu cəhətlər mövcuddursa, deməli, həmin ailənin övladı da bir gənc olaraq vətənə layiq insan kimi yetişəcək. Sonrakı dövr isə bağça və məktəblə bağlıdır. Yəni bağçada və məktəbdə həmin uşaqlar daha da formalaşır, milli ideologiyaya uyğun tərbiyə edilir və əsl vətəndaş kimi yetişir. Bax, bütün bu sadaladığımız zəruri elementlər gənclərimizin vətənpərvərlik ruhunda böyüməsində çox önəmli rol oynayır.

Bir dəfə metroda bir oğlanla tanış oldum. Qısa söhbətdən sonra məlum oldu ki, həmin gənc Bakı Dövlət Universitetinin tarix fakültəsinin 4-cü kursunda təhsil alır. Elə ilk söhbətdən onu anladım ki, bu uşaq son dərəcə tərbiyəli, əxlaqlı və mədəni bir gəncdir. Həmin gənclə söhbətimiz çox uzun çəkdi. Yəni metro qatarında yarım saat yol yoldaşı olduq. Bu yarım saatda onun necə savadlı, tərbiyəli, əxlaqlı və dünyagörüşlü olmasını daha dərindən hiss elədim. Çox maraqlı idi ki, bu gənc həm də çağdaş Azərbaycan ədəbiyyatını, eləcə də dünya ədəbiyyatının məşhur yazıçılarının hamısının əsərlərini oxumuşdu. Hətta Süleyman Rəhimovun "Şamo" romanından danışırdı.

Həmin gənc dedi ki, hər bir ailədə kitaba, qəzetə, bir sözlə, bilik mənbələrinə hörmət olmalıdır. Mənim atam özü hüquq elmləri doktoru, professordu. Amma heç vaxt mənə deməyib ki, filan kitabı oxu, filan işi gör, araq içmə, siqaret çəkmə. Sadəcə olaraq, evimizdə yaranmış bu milli-mənəvi mühit mənim daha kamil bir gənc kimi yetişməyimə və formalaşmağıma böyük kömək göstərib. Evimizdə çox zəngin kitabxanamız var. Hardasa 5 mindən çox kitab olar, onların hamısını bir-bir oxumuşam və bu qənaətə gəlmişəm ki, insanın kaiml şəxsiyyət kimi yetişməsində, millətini və xalqını sevməsində, hətta onun yolunda ölümə getməsində bu ədəbiyyatın, bu kitabların çox böyük dəyəri var.

Mən bir gənc olaraq həmin kitabları oxuyandan sonra özümü daha güclü, daha müdrik və daha vətənpərvər hiss etdim. Hiss etdim ki, bizim gəncliyin üzərinə çox ağır yük düşür və biz bu yükü şərəflə daşımalı, Vətənimizi, xalqımızı qorumalı, bu yolda mücadilə aparmalıyıq.

Dəfələrlə biz gənclərin yaşlı nəsil tərəfindən qınanıldığını görmüşəm, Hətta mənim özümə də deyiblər ki, nə olsun ki, universitet tələbəsisən, amma çox aciz və zəif insansan. Bunun bizim ailəni və məni tanımayan adamlar deyiblər. Sözün düzü, bu söz də həmişə mənə pis təsir edib. Bir el deyimi var ey, "qurunun oduna yaş da yanır". Hardasa bir gənc nəsə səhv edirsə, bir tərbiyəsiz hərəkətə yol verirsə və eyni zamanda ictimai yerdə özünü yaxşı aparmırsa, bunu bütün gəncliyin adına yazmaq olmaz və yazılırsa çox ədalətsizlikdir. Ona görə də yaşlı nəsillə bizim düşüncələrimiz çox vaxt bir-birini tamamlamır və əks qütbdə dayanır.

Mənim qardaşım İkinci Qarabağ savaşında, yəni 44 günlük döyüşdə qəhrəmancasına vuruşub və Şuşa uğrunda gedən ağır döyüşlərdə şəhid olub. Biz belə bir tərbiyə almışıq və mənim özüm də həmin dövrdə döyüşə getmək üçün Səfərbərlik idarəsinə müraciət etmişdim. Məni qeydiyyata aldılar, "gözlə" dedilər. Ata-anam da bu hərəkətimə görə məni qınamadılar, əksinə, alqışladılar. Dedilər ki, sən döyüşə getsən, qardaşının da ruhu şad olar. Amma mənə növbə çatmadı. Baxmayaraq ki, növbə çatmadı hər an, hər dəqiqə böyük döyüşə hazır idim. Möhtəşəm qələbəmiz və tarixdə görünməyən qeyri-adi bir 44 günlük müharibə bizim hər birimizdə daha güclü xarakteri üzə çıxardı. Bu xarakter olan yerdə biz gənclər heç nədən və heç kimdən, daha doğrusu, heç bir düşməndən çəkinən deyilik. Həmin gəncin mənimlə olan söhbəti yaddaşıma əbədi həkk olundu. Düşündüm ki, nə yaxşı bizim belə mərd, qorxmaz, qəhrəman gənclərimiz var və həmin gənclər on minlərlədir.

Bəli, düz eşitdiniz bu rəqəm - on minlərlədi. Həmin gəncləri olan xalq və millət sözün həqiqi mənasında xoşbəxtdir. Bu gün tək Azərbaycanın döyüşən oğulları Vətəni qorumurlar, həm də vətəni bax, belə on minlərlə gənc qorumağa hazırdır.

Bu gün sevindirici haldır ki, Azərbaycan gəncliyi bayrağımızı və dövlətimizin himnini dünyanın ən mötəbər yarışlarında qaldırmağa və səsləndirməyə nail olublar. İdmançılarımız elə bir idman növü yoxdur ki, həmin sahədə möhtəşəm qələbələr qazanmasın. Gənc idmançılarımız Avropa və Dünya çempionatlarında, eləcə də Olimpiadalarda çox möhtəşəm qələbələr qazanaraq böyük uğurlara imza atıblar. Eyni zamanda elm, mədəniyyət və siyasət sahəsində də gənclərimiz birbirindən böyük uğurlar, qələbələr əldə ediblər.

**Bu gün Azərbaycan gənclərinin səsi dünyanın ən mötəbər idman yarışlarından gəlir. Onlar böyük uğurlara imza ataraq vətənimizə qızıl, gümüş, bürünc medallarla dönürlər. Deməli, Azərbaycan gəncliyi öz milli adət-ənənələrinə və tarixi keçmişlərinə sadiq qalaraq yeni möhtəşəm bir tarix yazırlar. Bu tarixin adı Müstəqil Azərbaycan və Böyük Qələbələrdir!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



Əli Şirin Şükürlü

# Metamodernizm: postmodernizmdən sonra

(esse)

**Gerçəkliyi dərketmə axtarışları müstəvisində XX əsrdən XXI əsrə keçid üç böyük təfəkkür paradiqması ilə xarakterizə olunur: modernizm, postmodernizm və metamodernizm.**

Modernizm (inam və struktura cəhd): Modernizm xaosda olan dünyaya rasional nizam vermək, ”mütləq həqiqət”i tapmaq cəhdi idi. Modernizmin saf optimizm - inam dövrü kimi xarakteristikası daha qabarıq görünür: Elmlə, böyük ideyalarla dünyanı xilas edə bilərik və bu halda hər şey mükəmməl olacaq! Rasionalizmin doğurduğu modernizmin əsas xüsusiyyətləri əsasən bunlar idi: idrak və elmə inam, varlığın qanunlarla tənzimlənməsi və dərkedilən olması, elmi biliyin sosial problemlərin həlli və həyatın yaxşılaşdırılması üçün əsas vasitə olması - proqressif inkişaf, elm və fəlsəfənin irrosionalizmdən azad olunması, azadlıq, bərabərlik, ədalət və humanizmin təntənəsinə səbəb ola biləcək universal əxlaq və hüquq normaları. Ədəbiyyatda isə modernizmin generasiyası əsasən ciddi struktur, nizam axtarışı, səmimiyyət, pafos - iztirab çəkən insan obrazı və insanın kainatdakı yerini axtaran fərdi mənlik - ekzistensional prinsip ilə səciyyənəlir.

Postmodernizm (inkar və ironiyaya sığınma): Modernizmin böyük idealları çökməyə başladıqca (müharibələr, iqtisadi krizis, faşizm idealogiyası və s.) postmodernizm səhnəyə çıxdı. O, mütləq həqiqət anlayışını təkzib etdi. XX əsrin ikinci yarısında postmodernizm modernizmin ”böyük ideyalarına” qarşı çıxaraq relativizm - mütləqliyin nisbiliyi, məzmunun şərtiliyi, dekonstruksiya, intertekstuallıq və ironiya - qara yumor üzərində quruldu. Bu yanaşma insanı xaos içində və ”həqiqətin çoxluğu”: dünyanın tekstual - semantik məna zənginliyi (müəllif ölümü), gerçək olandan simulyasiyaya qeyri-səlis (aramsız - sərhəd müəyyənətmənin qeyri-mümkünlüyü) keçid ilə yaşayan varlıq kimi təsvir edirdi. Postmodernist mədəniyyətin oyunçul təfəkkür və məna çoxluğu ədəbiyyatı tekstual oyuna, dekonstruksiyaya, kinayəyə (ironiyaya) və skeptisizmə çevirdi. Qeyri-səlis məntiq dili ilə desək, binar (məntiqi qiymət: həqiqət - 1, yalan -0) fəlsəfə inkar olundu, amma yerinə sadəcə nihilizm və ”heç nə mütləq deyil - hər şey simulyasiyadır” soyuqluğu gəldi.

Lakin... postmodernizmin oyun üzərində qurulan düşüncə spektri və varlığa məxsus ontoloji məna çoxqatlılığı XXI əsrin qlobal çağırışları qarşısında yetərsiz görünməyə başladı...

***və***

Metamodernizm (rəqs və koqnitiv sintez): Metamodernizm postmodernizmdən sonrakı elmi-mədəni paradigma kimi ortaya çıxdı. Bu anlayışı 2010-cu ildə hollandiyalı mütəfəkkirlər - filosof Robin van den Akker və media tənqidçisi Timoteus Vermulen (Metamodernizm haqqında qeydlər essesi) populyarlaşdırdılar. XXI əsrin informasiya bolluğu və sosial-texnoloji gərginliyi fonunda insan nə postmodernizmin hər şeyi ironiyaya çevirən müstəvisində qala bildi, nə də modernizmin sadəlövh inamına qayıda bildi. Metamodernizm iki qütb arasında osilliyasiya - rəqs yaratdı. Onun əsas prinsipi olan osilliyasiya - elmlə metafizik baxış, rasionallıqla irrosionallıq, məntiqlə intiusiya, ümidlə şübhə, səmimiyyətlə ironiya, milli ilə qlobal arasında davamlı hərəkətdən ibarətdir. Metamodernist düşüncə insanı həm rasional, həm də emosional varlıq kimi qəbul edir. Bu, belə demək mümkünsə, XXI əsrin yeni idrak modelidir.

Metamodernist düşüncə xüsusilə elmi-mədəni diskursda (elm və fəlsəfənin sənətlə sintezi, müasir elmi-texnoloji innovasiyaların incəsənətə daxil olması) özünü qabarıq göstərir. Burada elm və poeziya, texnologiya və mədəniyyət, milli və qlobal yanaşmalar bir-birini tamamlayır. Metamodernist ədəbiyyat modernizmin səmimiyyəti və ümidi, postmodernizmin ironiyası və skeptisizmi ilə eyni anda yaşayır. Ədəbiyyatda bu keçid aşağıdakı təməl parametrlərlə səciyyələnir: ironik səmimiyyət, ehtimallar və sintez, struktura malik simvol və informativ dəqiqlik, qeyri-səlis yanaşmalar.

***P.S.*** **Metamodern ədəbiyyat həm də elmi biliklərin - rasional düşüncənin sənətə qayıdışıdır. Bu kontekstdə Ədəbi suprematizm - intellektual poeziya haqqında konsepsiya xüsusi məna qazanır: rasionallığı fəlsəfi düşüncə vasitəsilə ədəbiyyata gətirməklə elmi düşüncəni və səmimiyyəti skeptisizm və ironiya ilə birgə yaşadır:**

### *Ədəbi suprematizm: Mən və mən: kvant adam*

Otaqdayam. Paraleliped şəklində olur adətən bütün otaqlar; döşəmə, tavan, divarlar - düzbücaqlı.

Bir sözlə, otaqda hayana baxsan hər şey çərçivədə sanki.

Və beləliklə, otaqdayam. Mən və əşyalar doldurub məkanı; masa, televizor, güzgü və sairə.

Pəncərədən boylanıram fərqli mənzərə görüm; baxıram mənəm, gedirəm harasa. Çəkilirəm pəncərədən.

Çəkildikcə gözdən itir o, - yəni mən. Geri dönürəm; qarşıda yenə mənəm, dayanmışıq üz-üzə.

Gedib qayıtdın deyəsən? - soruşuram. Nəsə deyir - eşitmirəm.

Əlimi uzadıram görüşüm özümlə. Axı harasa gedib, gözdən itmişdi bir az əvvəl. Əlimi uzadıram, o da uzadır. Görüşə bilmirik.

Məsafə olmasa da, arada nəsə var elə bil. Soyuq nəyəsə toxunur barmaqlarım. Soyuq nəyəsə...

Güzgü qarşısında dayanmışam özümlə üz-üzə.

Üz-üzə dayanmışıq. Arada güzgü - məsafəsiz məsafə.

Nəsə söyləyir o, eşitmirəm amma.

O necə, yəni mən güzgüdəki - anlayırmı məni görəsən?!

## *Canan: “Biz asan pul qazanırıq”*

**Gənc ifaçı Canan müğənnilərin digər peşə sahiblərindən daha asan pul qazandıqlarını etiraf edib.**



Adalet.az bildirir ki, həmkarlarının bəziləri onunla razılaşmasa da, müğənni yenə də fikrini dəyişməyib:

”Mən demirəm biz əziyyətsiz qazanırıq. Xeyr, bizim də özümüzə görə görə zəhmətimiz çox olur. Ancaq fəhlənin, ustanın zəhməti bizdən qat- qat artıqdır. Bunu inkar etmək insafsızlıqdır. İnsan vicdanla danışar. Biz onlardan daha rahat pul qazanırıq. Elin gözü tərəzidir. Necə ola bilər ki, bunu inkar edək? Bu millət ustanın, fəhlənin, aşpazın, dərzinin əziyyətindən xəbərsizdir ki? Ayıbdır. İnsan öznə hörmət etməlidir”.

## *Təranə Qumral: “Ailəmizdəki gözəlliyi görmürlər”*



**Tərənə Qumral açıqlaması ilə diqqət çəkib. Adalet.az bildirir ki, o, ailəsində problemlər yaradan insanlardan uzaqlaşdığını bildirib:**

” Mənim normal ailəm var. Ağıllı balalarım, məni sevən həyat yoldaşım var. Çox çalışdılar ki, bizi ayırsınlar. Heç kəs ailəmizdəki gözəlliyi görmək istəmir. İstəyirlər ki, ancaq müdaxilə etsinlər. Efirlərdə ifritələr görürük ki, üzlərində nur da olmur. Belələrindən hər şey gözləmək olur. Musa da , mən də ailəmizə problem gətirsən, söz- söhbət salan hər kəsdən uzaqıq. Heç elə adamları ailəmizə də buraxmırıq”.

## *Üzeyir: “Onları efirdə işıqçı kimi tanıyırdım”*

**Meyxanaçı Üzeyir Mehdizadə illər əvvəl efirlərdə başına gələn əhvalatlardan danışıb.**



Adalet.az xəbər verir ki, o, oxuduğu mahnılara görə çox danlandığını etiraf edib:

”Yeni- yeni efirlərə dəvət alırdım. Orada mahnılarımı dinləmək əvəzinə məni danlayırdılar. Üzümə hər sözü deyirdilər. Mahnılarımı bəyənməyən adamların çoxusunu tanımırdım. Yəni hamı bir- birini tanımaq məcburiyyətində deyil axı. İnanın səmimiyyətimə, elə bilirdim ki, həmin kəslər efirlərdə işıqçı işləyir. Ancaq sonra gördüm ki, efir başlayanda mənimlə birgə qonaq kürsüsündə əyləşirlər. Oxuduğum mahnılar haqda pis fikirlər səsləndirirlər. Həmin sözləri deyənlər haqda məlumat toplayanda gördüm ki, bu adamın özünün heç normal səsi, sənəti yoxdur. Kimsə məndən 10-15 il əvvəl oxumağa başlayıb deyə mütləq onu tanımalıyam? Kimisə tanımadığım üçün təhqir olunmalıyam, danlanmalıyam? Bu hallar o qədər yaşanb ki... Axırda çağrıldığım proqramların prodüsserlərinə deyirdim ki, belə hallar olmasını istəmirəm. Məni özümdən yaşca böyük adamla çağırırsınız, o da ağzına gələni deyir. Məndən yaşca böyükdür deyə cavab verməm. Belə olmaz axı”.

**Əntiqə**

## *Mətanət Əsədova: “Kişilər çılğın qadınları sevmir”*



**Müğənni Mətanət Əsədova kişi-qadın münasibətlərindən danışıb.**

Adalet.az bildirir ki, o, kişilərin zəif qadınları sevdiklərini etiraf edib:

”Mən həmişə bunun şahidi olmuşam ki, kişilər zəif qadınları sevirlər. Yəni özü müstəqil yaşamağı bacaran, öz ayaqları üzərində durmağa çalışan qadınları kişilər sevmir. Cəsarətli, güclü qadınlardan isə qorxurlar. Səbəbini bilmirəm.

Ancaq mən belə görmüşəm. Sakit təbiətli xanımlar daha çox sevilir, nəinki çılğın qadınlar. Bəlkə də düşünürlər ki, bu xasiyyətli xanımlar dözülməz olurlar. Ancaq elə deyil, sakit xanımlardan daha çox çılğın qadınlar ərlərini sevirlər”.

**Əntiqə**

## *Əminə Şirin: “Bu mənə hörmətsizlikdir”*



**İfaçı Əminə Şirin dəvət aldığı efiri tərk edib.**

Adalet.az bildirir ki, o, qonaq olduğu şou-proqramda keçmiş həyat yoldaşı Kazım Canla telefon bağlantısı yaradıldığı üçün efiri tərk edib. Belə ki, müğənni aparıcının heç bir sualını cavablandırmayıb.

O, ”Bu mövzu ilə bağlı heç bir sualınıza cavab verməyəcəm. Bunu özümə hörmətsizlik hesab edirəm. Zəngdən əvvəl dedim axı, bu haqda bir kəlmə belə danışmaq istəmirəm. Ümumiyyətlə, bu proqrama gəlməməliydim”- deyib, canlı yayımdan uzaqlaşıb.

**Əntiqə**

## *“Odisseya” rekord qırdı*

**Kristofer Nolanın rejissoru olduğu ”Odisseya” filmi böyüklər üçün nəzərdə tutulan R reytinqli filmlər arasında ən yüksək gəlir gətirən ekran əsəri olub.**

Adalet.az xəbər verir ki, bu barədə ”Variety” nəşri məlumat yayıb. Film dünya üzrə 1,352 milyard dollar gəlir əldə edib. Beləliklə, ekran işi 2024-cü ildə yayımlanan ”Deadpool & Wolverine” filminin rekordunu geridə qoyub. Sözügedən ekran işi dünya üzrə 1,338 milyard dollar gəlir toplamışdı. Film iyulun 17-də kinoteatrlarda nümayişə çıxıb və ilk həftəsonunda 123 milyon dollar gəlir əldə edib. Hazırda ekran əsərinin ABŞ-dakı gəliri 516 milyon, dünya üzrə gəliri isə 835 milyon dollar təşkil edir.

”Odisseya” ətrafında böyük marağın yaranmasında IMAX nümayişlərinin də xüsusi payı olub. Bu format filmə 354 milyon dollar gəlir qazandırıb.

Aqil Abbas **Hacı Firudin Süleymanoğluna** qardaşı **Sultan Süleymanovun** vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə ağsaqqal dostu **Hacı Firudin Süleymanoğluna və ailə üzvlərinə** əzizləri **Sultan Süleymanovun** vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 292
Çapa imzalanmışdır: 27.08.2026